RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 253 (9132) BAZAR, 20 noyabr 2022-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az

# QÜDRƏTLİ Azərbaycanın partiyası

Yeni Azərbaycan Partiyası mənim qəlbimdədir. Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevinirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcəkdir.

Yeni Azərbaycan Partiyası Azərbaycanın həyatında ən güclü, ən böyük intellektual səviyyəyə malik, ən böyük hörmətə malik olan siyasi partiyadır. Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır.

Heydər ƏLİYEV



Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında həlledici rol oynayır. Partiyanın qərarları, fəaliyyəti ölkəmizin uğurlu inkişafına güclü təsir göstərir. Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır.

Partiyamızın tarixi müstəqillik tarixi ilə də demək olar ki, üst-üstə düşür. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda Prezident kimi fəaliyyəti də Yeni Azərbaycan Partiyasının güclü dəstəyi ilə tamamlanırdı. Heydər Əliyev və Yeni Azərbaycan Partiyası bizim siyasi xəttimizdir. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının, müstəqil Azərbaycan dövlətinin qurucusudur.

İlham ƏLİYEV

→ 3

## Ağdamın Zəfər Günü



→ 12

Azərbaycan Sizin yolunuzu gözləyir
HEYDƏR ƏLİYEVƏ MÜRACİƏT → 4

Yeni Azərbaycan Partiyasının Zəfər missiyası → 5

Yeni Azərbaycanın şanlı partiyası → 6

Sınaqlarla dolu Zəfər yolu → 7

Xalqın birlik rəmzi → 8

Müxalifətdən hakim partiyaya təbrik → 9

## İlham Əliyevə ümumxalq sevgisi var



→ 10

1992 2022

YENİ AZƏRBAYCAN PARTİYASI

milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

30





# Milli Məclisdə Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr olunmuş tədbir keçirilib

**Noyabrın 19-da parlamentdə Milli Məclisin Sədri Sahibə Qafarovanın iştirakı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə, tədbir iştirakçıları Milli Məclisin inzibati binasının foyesində xalqımızın Ümummilli Lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin abidəsi önünə gələrək, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər, abidənin önünə tər çiçəklər düzüblər.

Tədbir iştirakçıları, həmçinin parlamentin foyesində yerləşən "Zəfər Guşəsi"nin önünə gələrək burada əks olunmuş məlumatlarla tanış olub, guşənin önünə tər çiçəklər düzüblər, Vətən müharibəsində şəhid olmuş qəhrəman övladlarımızın xatirəsini ehtiramla yad ediblər.

Sonra Ulu Öndər Heydər Əliyevin şərəfli adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illik yubileyinə həsr olunmuş tədbir başlayıb.

Milli Məclisin Sədri Sahibə Qafarova yığıncağı açaraq, bu əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və Vətən müharibəsində həlak olmuş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova tədbirdə çıxış edərək bildirib ki, Azərbaycanın ən mütəşəkkil və qüdrətli siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının ölkəmizin müstəqillik və dövlətçilik tarixində müstəsna rolu var. Tamamilə məntiqlidir ki, dövlətimizin xaos və anarxiyadan, tənəzzüldən, məhv olmaq təhlükəsindən xilas edilməsində, davamlı sabitlik və inkişaf yoluna çıxarılmasında əvəzsiz xidmətləri olan Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümü Azərbaycanın hər bir guşəsində təntənəli surətdə qeyd olunur.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan Partiyası ötən müddət ərzində milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin təminatçısı olduğunu sübuta yetirmişdir.

Spiker qeyd edib ki, Yeni Azərbaycan Partiyasının yaradılması Ulu Öndərin Azərbaycan xalqına verdiyi ən böyük töhfələrdən biridir və partiyanın siyasi səhnəyə çıxması Azərbaycan insanının özünə güvənini qaytardı. Bildirib ki, xalqımız öz gələcəyinə inamla baxmağa başladı, onu irəliyə aparan, böyük məqsədlər naminə səfərbər edə bilən siyasi təşkilata və onun elan etdiyi azərbaycançılıq ideologiyasına ürəkdən bağlandı, bu ideologiyanın Azərbaycanı nicat yoluna çıxara biləcək yeganə siyasi yol olduğunu qəbul etdi. Yeni Azərbaycan Partiyasının yaradılmasından bir neçə ay sonra xalqın təkidli tələbi ilə Ulu Öndərin ali hakimiyyətə qayıtdığını deyən Sahibə Qafarova vurğulayıb ki, bu qayıdışla başlanan xilaskarlıq missiyası xalqımızın və dövlətimizin gələcək taleyini müəyyən etdi.



Ən böyük milli sərvət olan dövlət müstəqilliyini xalqımızın XX əsrdə iki dəfə əldə etdiyinə diqqət çəkən spiker bildirib ki, əsrin əvvəlində dövlət müstəqilliyimizi birinci dəfə qoruyub saxlamaq mümkün olmasa da, əsrin sonlarına yaxın dövlət müstəqilliyi bərpa olunduqda onu məhz Heydər Əliyev xilas etmişdir.

Sədr Azərbaycanın strateji inkişaf yolunun bu gün dövlət başçısı, Müzəffər Ali Baş Komandan və Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayaraq, Yeni Azərbaycan Partiyasının təmsilçilərindən formalaşmış iqtidar komandasının qarşıya qoyulan hər bir mürəkkəb vəzifənin öhdəsindən gəlməyə qadir olduğunu əməli işləri ilə nümayiş etdirdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, 30 il ərzində Yeni Azərbaycan Partiyası şərəfli yol keçərək monolitliyini qoruyub və daha da güclənib, ölkəmizdə keçirilən bütün seçkilərdə qalib gəlib.

Ötən dövrdə ölkə həyatında bir çox mühüm hadisələrin baş verdiyini söyləyən Milli Məclisin Sədri onların arasında 44 günlük Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfər nəticəsində tarixi ədalətin və dövlətimizin ərazi bütövlüyünün bərpa olunmasını ən önəmli hadisə kimi vurğulayıb. Sədr qəti bir inamla bildirib ki, qarşıdakı illərdə də dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni tarixi nailiyyətlər qazanacaq, daha yüksək strateji zirvələri fəth edəcəkdir. Qalib xalqın qalib partiyası olan Yeni Azərbaycan Partiyası da ümummilli vəzifələrin yerinə yetirilməsinə kömək göstərməklə, ölkəmizin dayanıqlı və dinamik inkişafına dəyərli töhfələr verəcəkdir.

Parlamentin spikeri bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini hörmətli Mehriban xanım Əliyevanın milli maraqlara, bəşəri dəyərlərə əsaslanan çoxcəhətli fəaliyyətinin həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə dərin rəğbətlə qarşılandığını məmnunluqla qeyd edib, onun həyata keçirdiyi işlərin bütün digər məsələlərlə yanaşı, partiyaya ictimai dəstəyin daha da artmasına böyük kömək göstərdiyini vurğulayıb.

Danılmaz həqiqətdir ki, Yeni Azərbaycan Partiyası siyasi sistemin avanqard institutudur, ölkəmizdə siyasi mədəniyyətin inkişafına, siyasi sistemin təkmilləşməsinə birbaşa töhfələr verən ümumxalq partiyasıdır. Eyni zamanda partiyamız malik olduğu resurslara, ictimai-siyasi nüfuzuna, fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə görə Cənubi Qafqazın da ən güclü və mütəşəkkil siyasi qüvvəsidir.

YAP-ın gənclərə geniş imkanlar yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşmasına böyük diqqət yetirdiyini xüsusi qeyd edən spiker partiyanın cəmiyyətə və dövlətə yararlı olmaq istəyən istedadlı gəncləri öz ətrafında birləşdirməklə, yeni nəslin hərtərəfli inkişafı üçün mühüm işlər gördüyünü deyib.

Yeni Azərbaycan Partiyasının Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsində də mühüm rol oynamasına toxunan Sahibə Qafarova partiyanın həm Avropanın, həm də Asiyanın bir çox ölkələrinin aparıcı siyasi partiyaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirdiyini, partiyalar səviyyəsində beynəlxalq qurumlarda uğurla təmsil olunduğunu bildirib.

Respublikamızın qazandığı nailiyyətlərdə Milli Məclisin də özünəməxsus xidmətləri olduğunu deyən spiker qeyd edib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş parlamentarizm ənənələri bu gün də uğurla davam etdirilir. Qanunvericilik orqanında xalqımızın layiqli nümayəndələri təmsil olunmuşlar. Həmişə olduğu kimi, 2020-ci ildə də azad və şəffaf şəraitdə keçirilmiş demokratik seçkilər nəticəsində formalaşan altıncı çağırış Milli Məclisdə mandatların əksəriyyətini YAP-ın üzvləri qazanmışlar.

Spiker bildirib ki, parlament dövlət başçısı cənab İlham Əliyevin dediyi kimi, xalqın mənafelərinin həqiqi təmsilçisi olmalı, millət vəkili isə onu seçmiş insanların qayğıları ilə yaşamalıdır. Azərbaycan parlamenti öz işini bu prinsiplər üzərində qurur və daha da təkmilləşdirir.

Parlamentin rəhbəri diqqətə çatdırıb ki, ölkəmizin inkişafının indiki tarixi mərhələsində qarşımızda mühüm vəzifələr dayanır. Biz dövlətimizi daha qüdrətli etmək, Azərbaycan vətəndaşlarını firavanlığa qovuşdurmaq, sabitliyi və inkişafı qorumaq, uğurlarımızı daha da artırmaq əzmindəyik. Yeni Azərbaycan Partiyasının fəaliyyətinin məramını məhz bu amallar təşkil edir.

Çıxışının sonunda Sədr Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü münasibətilə hamını ürəkdən təbrik edib, Ulu Öndər Heydər Əliyevin şərəfli adı ilə bağlı olan, möhtərəm Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi ilə gündən-günə daha da inkişaf edən Yeni Azərbaycan Partiyasına daha yüksək zirvələr arzulayıb.

İclasda Yeni Azərbaycan Partiyasının yarandığı tarixdən bu günədək keçdiyi şərəfli və uğurlu yoldan bəhs edən Milli Məclis tərəfindən hazırlanmış video-çarx nümayiş etdirilib.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri, Ərazi Partiya Təşkilatının sədri Adil Vəliyev çıxış edərək, 30 illik yubileyi qeyd olunan Yeni Azərbaycan Partiyasının xalqımız üçün tarixi missiyanı gerçəkləşdirən Ümummilli Lider Heydər Əliyevin qüdrətli əsəri olduğunu vurğulayıb. Şərəfli yol keçmiş, o dövrün mürəkkəb siyasi situasiyasında yaradılmış Yeni Azərbaycan Partiyasının xalqımızın arzu və istəklərinin ifadəçisi olduğunu qeyd edib.

İclasda çıxış edən Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, YAP-ın 30 illik yubileyi mühüm tarixi hadisələr dövrünə təsadüf edir. Ötən il dövlət müstəqilliyinin bərpasının 30 illiyi tamam oldu. Bu il Vətən müharibəsində qələbənin ikinci ildönümü qeyd edildi. Noyabrda Dövlət Bayrağı Günü və Konstitusiya Günü də artıq ərazi bütövlüyünün bərpa olunduğu şəraitdə keçirildi. Bu tarixi hadisələri səciyyələndirən ən başlıca amil isə Ulu Öndərin siyasəti, onu uğurla davam etdirən isə Prezident İlham Əliyev və bu siyasəti icra edən Yeni Azərbaycan Partiyasıdır.

Birinci vitse-spiker Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində keçdiyi keşməkeşli yola nəzər salıb, dövlətimizin suverenliyi uğrunda mübarizədə verdiyi töhfələrdən, əldə etdiyi naliyyətlərdən söhbət açıb. Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə yaranmış Yeni Azərbaycan Partiyasının xalqımızın müstəqilliyi naminə mübarizəsində layiqli aparıcı siyasi qüvvə olduğunu vurğulayıb. Ümummilli Lider Heydər Əliyevin "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" ifadəsinin hər zaman aktual olduğunu deyib.

Sonra iclasda Milli Məclisin komitə sədrləri Eldar İbrahimov, Səməd Seyidov, Hicran Hüseynova, deputatlardan Hikmət Məmmədov, Mixail Zabelin, YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev çıxış edərək Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi şərəfli yoldan söhbət açıblar. Ulu Öndər Heydər Əliyevin partiyanın qurulmasında və möhkəmlənməsində göstərdiyi fədakarlıqlardan, qarşıya çıxan maneələri cəsarətlə dəf etməsindən danışıblar. Bildirilib ki, partiyada hər zaman multikultural dəyərlər yüksək tutulub, gənclərə diqqət və qayğı ilə yanaşılıb, qadınların ictimai-siyasi həyatda rolunun artmasına şərait yaradılıb. Çıxış edənlər Ümummilli Lider Heydər Əliyevlə bağlı öz xatirələrini də bölüşüblər.

Sonra YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev fərqlənən gənc partiya fəallarından bir qrupuna - Səməd Sultanova, Lalə Çələbizadəyə, İlahə Mehrəliyevaya, Elman Aslanova, Seymur Əşrəfliyə fəxri fərmanlar təqdim edib.

İclasda Milli Məclisin bir qrup əməkdaşı - Abbas Yusifov, Kamran Həsənzadə, Orxan Abdullayev, Əli Hüseynli, Sənəm Cəfərova YAP sıralarına qəbul olunublar.

Sonra Milli Məclisin Sədri tərəfindən partiya sıralarına qəbul olunmuş parlament əməkdaşlarına Yeni Azərbaycan Partiyasının vəsiqələri təqdim edilib.

İclasda gənclər adından Milli Məclisin əməkdaşları Lalə Çələbizadə və Elman Aslanov söz alaraq partiya tərəfindən gənclərə göstərilən diqqət və qayğıdan danışıblar.

İclasda deputat Nurlan Həsənov, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, İşlər müdiri Firudin Hacıyev, parlamentin Ərazi Partiya Təşkilatının sədr müavini Teymur Tağıyev, Aparatın şöbə müdirləri və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

## A.Ə.Aslanovun Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aslan Əhməd oğlu Aslanov Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 noyabr 2022-ci il*

## Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Kambocada səfərdə olacaq

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti noyabrın 20-də Kamboca Krallığına səfər edəcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə deputatlardan Ramin Məmmədov, Elnur Allahverdiyev və digər rəsmi şəxslər daxildirlər.

Rəsmi səfər çərçivəsində nümayəndə heyəti Kamboca Krallığının parlamentində olacaq. Burada keçirilən görüşlərdə parlamentlərarası və ikitərəfli əlaqələrin bu günü, gələcək perspektivləri barədə fikir mübadiləsi aparılacaq.

Səfər zamanı nümayəndə heyətimiz ölkənin paytaxtı Pnompendə keçiriləcək Cənub-Şərqi Asiya Ölkələri Parlamentlərarası Assosiasiyanın (AİPA) Baş Assambleyasının 43-cü iclasında iştirak edəcək.

Milli Məclisin Sədri Assambleyada müzakirəyə çıxarılan məsələlərə Azərbaycan tərəfinin münasibətini bildirəcək, tədbirdə iştirak edəcək nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşlər keçirəcək.

*"Azərbaycan"*

## Frankofoniya üzv dövlətlərinin Zirvə görüşündə qəbul ediləcək sənədləri siyasi cəhətdən qərəzli və əhəmiyyətsiz hesab edirik

Beynəlxalq Frankofoniya Təşkilatının Tunisin Cerba şəhərində davam edən Zirvə görüşü çərçivəsində noyabrın 18-də baş tutmuş Nazirlər iclası zamanı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tərəfindən təxribat xarakterli və sözügedən Təşkilatın üzvlərinin guya Azərbaycana qarşı mövqe tutmaları ilə bağlı təhriflərlə dolu bəyanat səslənib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Cerba Zirvə görüşünə hazırlıq mərhələsində Fransanın birbaşa dəstəyi ilə Zirvə görüşünün yekun sənədləri olan Cerba Bəyannaməsinin və Frankofoniya ərazisində böhran vəziyyətlərinə həsr olunmuş qətnamə layihəsinin ilkin mətnlərinə Azərbaycan əleyhinə birtərəfli, qərəzli və təhriflərlə dolu təhrikçi ifadələr daxil edilərək, üzv dövlətlərin müzakirəsinə təqdim olunub. Lakin sənəd layihələrinin müzakirəsi mərhələsində bir neçə üzv dövlətin müdaxiləsi nəticəsində ölkəmizə qarşı sözügedən ifadələr mətnlərdən çıxarılaraq, layihələrdə Azərbaycanı birbaşa hədəf alan hər hansı ifadənin daxil edilməsinə imkan verilməyib. Bununla belə, sənədin yekun layihəsində hələ də təşkilatın mandatına aid olmayan və Ermənistanın siyasi təbliğat vasitələrinə təhrik imkanı verən müəyyən elementlər qalmaqdadır.

Sənədlərin razılaşdırılması prosesi çərçivəsində Azərbaycan əleyhinə birtərəfli, qərəzli və təhriflərlə dolu müddəalara etiraz edən ölkələrə qarşı Fransa tərəfindən əlavə siyasi təzyiqlər və diplomatik praktikadan kənar çəkindirmə addımları atılıb. Bu təzyiqlərə baxmayaraq, noyabrın 18-də keçirilmiş Beynəlxalq Frankofoniya Təşkilatına üzv dövlətlərin Nazirlər iclası zamanı bəzi üzv dövlətlər bir daha söz götürərək qətnamə layihəsinin müvafiq bəndlərinə etiraz etdiklərini və sənədin qəbuluna razı olmadıqlarını bəyan edib. Bununla belə, etirazlara məhəl qoyulmadan, qərar qəbuletmə prosedurları pozularaq və üzv dövlətlərin mövqeləri nəzərə alınmadan, sənəd layihəsinin Zirvə görüşünə təqdim edilməsi üçün təsdiqləndiyi bildirilib. Bu məqamda qərara etiraz edən nümayəndələr konfrans zalını tərk ediblər.

XİN-in məlumatında qeyd edilib ki, beynəlxalq çoxtərəfli platformalarda presedenti olmayan bu kimi addımların atılması və prosedur qaydalarının kobud şəkildə pozulması bir daha Beynəlxalq Frankofoniya Təşkilatının Fransanın digər dövlətlərə təzyiq etmək üçün siyasi aləti olduğunu nümayiş etdirib və bu, şübhəsiz ki, bir mədəniyyət profilli qurum olaraq onun nüfuzuna ciddi xələl gətirəcəkdir. Azərbaycanın üzv və müşahidəçi olmadığı, əsas məqsədi fransız dili və mədəniyyətinin dünya miqyasında təbliği olan və Fransanın təsiri altında idarə olunan bir qurumun öz mandatına aid olmayan məsələlərin müzakirəsi və siyasi qərəzli məqsədlər üçün sui-istifadə edilməsi tamamilə qəbuledilməzdir.

"Fransanın bu cür pozucu fəaliyyəti nəticəsində Frankofoniya üzv dövlətlərinin Zirvə görüşündə qəbul ediləcək sənədləri siyasi cəhətdən qərəzli və əhəmiyyətsiz hesab edirik. Azərbaycan tərəfi sözügedən Zivə görüşünün sənədlərinin müzakirəsi prosesində beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqe nümayiş etdirmiş bütün dövlətlərə öz təşəkkürünü bildirir", - deyə nazirliyin məlumatında vurğulanıb.

1992 2022

YENİ AZƏRBAYCAN PARTİYASI
milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır
30

# Qüdrətli Azərbaycanın qüdrətli partiyası

**Noyabr ayının 21-də Azərbaycan siyasi palitrasının avanqardı, ölkəmizin və regionun ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümü tamam olur. Hesab edirik ki, YAP-ın yubileyi təkcə bu partiyada birləşən yüzminlərlə siyasi həmfikirlərimiz üçün deyil, bütövlükdə ölkəmizin ictimai-siyasi tarixində mühüm əhəmiyyət kəsb edən hadisədir. Çünki Yeni Azərbaycan Partiyası ötən 30 il ərzində uğurlu və şərəfli yol keçərək, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində, sosial-iqtisadi inkişafında, ölkəmizdə demokratik siyasi sistemin güclənməsində, vətəndaş həmrəyliyi və milli birliyin təmin olunmasında, həmçinin ən müxtəlif sahələrdə əldə olunan misilsiz nailiyyətlərdə özünəməxsus rol oynamışdır.**



### Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğmuşdur

Biz Yeni Azərbaycan Partiyasının zamanın təxirəsalınmaz tələbindən irəli gələrək ümumxalq partiyası kimi yaradıldığını qeyd edərkən, o dövrün ictimai-siyasi mühitinə istinad edirik. Bildiyimiz kimi, müstəqilliyinin bərpasının ilk illərində Azərbaycanda ciddi xaos və böhran baş vermiş, ölkəmizin müstəqilliyi böyük təhlükələr qarşısında qalmışdı. Ölkənin iqtisadiyyatı tamamilə dağıdılmış, bütün iqtisadi sistem iflic edilmiş, siyasi qrupların hakimiyyət uğrunda mübarizəsi vətəndaş qarşıdurmasına rəvac vermişdi. Digər tərəfdən, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti daha da genişlənmiş, ərazilərimiz bir-birinin ardınca düşmən işğalına məruz qalmışdı. Cəmiyyətdə ictimai münasibətlər normal məcrasından çıxmış, bütün sahələrdə gərginlik baş qaldırmış, əhalinin sosial durumu gündəngünə daha da ağırlaşmışdı.

Belə bir şəraitdə Azərbaycan xalqı öz xilasını görkəmli dövlət xadimi, təcrübəli siyasətçi və böyük azərbaycanlı Heydər Əliyevin simasında görmüş, yalnız Onun ölkəmizi bu ağır vəziyyətdən xilas edə biləcəyinə sonsuz inamını ortaya qoymuşdur. Bu məqsədlə ölkəmizin gələcək taleyini düşünən bir qrup ziyalı - "91-lər" xalqımızın istəklərini ifadə edərək, Ulu Öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir", - deyə müraciət ünvanlamışdır. Onlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü irəli sürmüş, bu məqsədlə Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşmişdilər. Ümummilli Lider Heydər Əliyev isə 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zərurətdən doğduğunu bəyan etmişdir.

Hamımızın yaxşı xatirindədir ki, Yeni Azərbaycan Partiyasının yaradılması prosesi çox çətinliklə həyata keçirilmişdir. Həmin dövrdə hakimiyyətdə olan qüvvələr YAP-ın yaranmasının qarşısını almaq üçün hər cür təxribatlara əl atmış, bu təşəbbüsə qoşulan ziyalılarımıza qarşı təzyiqlər olmuşdur. Siyasi hakimiyyət Yeni Azərbaycan Partiyasının təsis konfransının Bakıda keçirilməsinə imkan verməmiş, tədbir Naxçıvanda baş tutmuşdur. Beləliklə, 1992-ci ilin 21 noyabr tarixində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası təsis olunmuşdur.

Ulu Öndər Heydər Əliyev ölkəmizdə mövcud olan ictimai-siyasi prosesləri çox dəqiq təhlil edərək, həmin dövrdə Azərbaycanda siyasi sistemi irəli aparacaq, normal, sivil münasibətlərin yaranmasına xidmət edəcək siyasi təşkilatın olmadığını görürdü. Ona görə də Ümummilli Lider "91-lər"in müraciətinə tarixi cavabında "Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər", - deyə vurğulamışdı. Yeni Azərbaycan Partiyası yaradılarkən qarşısına Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət və azad vətəndaş cəmiyyəti quruculuğu ilə yanaşı, siyasi mühitin sağlamlaşması və milli mənafelərə xidmət edən siyasi təşkilatların həyata vəsiqə almasına da öncüllük etmək missiyasını qoydu və Yeni Azərbaycan Partiyası siyasi sistemimizə yeni mədəniyyət və demokratik ənənələr gətirdi. Bu dəyərlər o zamana qədər siyasi mübarizəni dağıdıcılıq, hakimiyyətə gəlmək və hakimiyyətdə qalmaq uğrunda bütün qeyri-qanuni vasitələrə əl atan qüvvələrin nümayiş etdirdiyi destruktiv davranış formalarından kəskin fərqlənərək, milli birliyi, vəhdəti, ölkə qanunvericiliyinə və xalqımızın mənəvi dəyərlərinə uyğun fəaliyyəti özündə əxz etdirirdi. YAP müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətəndaş həmrəyliyi, sosial ədalət və bu kimi digər mühüm prioritetləri özünün əsas fəaliyyət prinsipləri olaraq elan etmiş, dövlətimizin həyata keçirdiyi tədbirlərə mühüm töhfələr vermişdir. Yarandıqdan qısa vaxt sonra Azərbaycan xalqının Ulu Öndərə dərin inam və etimadı sayəsində Yeni Azərbaycan Partiyasına ictimai maraq gündən-günə daha da genişlənmiş, respublikanın bütün bölgələrində onun yerli təşkilatları yaranmış və YAP siyasi palitranın ən güclü təşkilatı kimi özünü təsdiq etmişdir. Heydər Əliyev ideyalarına, Ulu Öndərin müəyyənləşdirdiyi prinsiplərə sadiqlik partiyamızın uğurlarının təməlində duran əsas amillərdən biridir.

### Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol

1993-cü il iyun ayının 15-də Ulu Öndər Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsi ilə Azərbaycanın dövlət müstəqilliyinin xilası başlandı. Milli Qurtuluş Günü kimi xarakterizə etdiyimiz bu tarixdən etibarən Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycanda hərc-mərclik, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, sabitlik bərpa olundu. 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərində Ulu Öndər Heydər Əliyev xalqımızın mütləq əksəriyyətinin səsini qazanaraq prezident seçildi. Ümummilli Liderin rəhbərliyi ilə qısa müddətdə yeni demokratik dövlət quruculuğu prosesinə, bütün sahələri əhatə edən genişmiqyaslı islahatlara start verildi. Azərbaycanın bu gün əldə etdiyi uğurların təməlində dayanan yeni neft strategiyası həyata keçirilməyə başlandı, Azərbaycan Respublikasının Konstitusiyası hazırlandı və qəbul olundu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Təbii ki, Yeni Azərbaycan Partiyası bu prosesdə mühüm rol oynamışdır. YAP cəmiyyətin vahid amal və dövlətçilik ideyası ətrafında səfərbər olunmasında, xalqın sarsılmaz birliyinin təmin olunmasında, o cümlədən islahatların həyata keçirilməsində üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirmişdir.

Yeni Azərbaycan Partiyası mübarizə xalifət partiyası kimi təsis edilmişdir. O dövrün siyasi hakimiyyətinin təzyiqlərinə, YAP-ın fəaliyyətinə yaradılan bütün qeyri-qanuni maneələrə baxmayaraq, partiyamız Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə təşkilatlanaraq, siyasi sistemin əsas güc mərkəzinə çevrilməyə nail olmuşdur. Ümummilli Liderin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə Yeni Azərbaycan Partiyası həm də iqtidar partiyası mövqeyinə yüksəlmişdir. Bununla YAP Azərbaycanda sivil yolla mübarizə aparmaq, hakimiyyətə gəlmək örnəyi nümayiş etdirmiş, demokratik nümunə yaratmışdır. Partologiya tarixində çox nadir rast gəlinən hallardan biridir ki, bir siyasi təşkilat yaradılandan altı ay sonra iqtidar partiyasına çevrilə bilsin. Bu, Yeni Azərbaycan Partiyasının qələbələr salnaməsi olan 30 illik şərəfli tarixinin ilk böyük qələbəsi olmuşdur. Sonrakı illərdə YAP ölkəmizdə keçirilən bütün seçkilərdə qələbə qazanaraq, siyasi arenadakı mövqeyini daha da möhkəmləndirmişdir və bu gün partiyamız ictimai rəydə haqlı olaraq, qələbələr partiyası kimi xarakterizə olunur.

### Dünənin, bu günün və gələcəyin partiyası

Biz bilirik ki, hər bir inkişaf özlüyündə yeni şərtlər formalaşdırır. Cəmiyyətlərin inkişafı da yeni çağırışlar, yeni tələblər meydana çıxarır. Ona görə də bir siyasi təşkilatın uğurları, onun siyasi sistemdə mövqeyini qoruması və gücləndirməsi əhəmiyyətli dərəcədə öz fəaliyyətini dəyişən zamanın və yeni formalaşan şərtlərin tələblərinə uyğunlaşdırmasından asılıdır. Yeni Azərbaycan Partiyası 30 illik fəaliyyəti dövründə öz siyasi maraqlara uyğun fəaliyyət göstərməklə yanaşı, zamanın da nəbzini tutmuş, öz fəaliyyətini daim təkmilləşdirmişdir. Yeni Azərbaycan Partiyasının bu gün siyasi sistemimizin lokomotivi olmasını şərtləndirən mühüm amillərdən biri də məhz budur.

Siyasi səhnəyə "Yeni, müstəqil Azərbaycan uğrunda" şüarı ilə ayaq basan YAP Ulu Öndər Heydər Əliyevin Azərbaycanı yenidən inşa etməsində, müasir, müstəqil dövlət quruculuğu prosesində fəal rol oynamışdır. Bununla yanaşı, YAP cəmiyyətə hər zaman yenilikləri təqdim edən siyasi təşkilat kimi özünü təsdiq etmişdir. Bu mənada partiyanın qurultaylarının və bu qurultayların qəbul etdiyi qərarların xüsusi əhəmiyyəti vardır. 1999-cu ildə keçirilən ilk qurultaydan bəri Yeni Azərbaycan Partiyasının təkcə üzvlərinin sıraları əhəmiyyətli dərəcədə genişlənməmiş, eyni zamanda YAP öz fəaliyyətini nəzərəçarpacaq dərəcədə yeniləmiş, daha da güclənərək nəinki ölkəmizin, eləcə də regionun ən böyük siyasi təşkilatına çevrilmişdir. Əlbəttə, burada ilk növbədə partiyamızın yaradıcısı Ulu Öndər Heydər Əliyevə Azərbaycan xalqının sonsuz etimadı və sevgisi başlıca faktor kimi çıxış etmişdir. Bununla yanaşı, partiyamızın inkişafına xidmət edən obyektiv və düzgün qərarların qəbul olunması onun gücünü və nüfuzunu ildənilə artırmış, milli dövlətçilik naminə fəaliyyətinin daha da genişlənməsinə rəvac vermişdir. Xüsusilə möhtərəm Prezident İlham Əliyevin YAP-ın 1999-cu ildə keçirilən birinci qurultayında partiyanın Sədr müavini, 2001-ci ildə keçirilən ikinci qurultayında isə partiya Sədrinin birinci müavini seçilməsi partiyaya yeni nəfəs vermiş, partiyamızın sıralarının daha da genişlənməsini şərtləndirmişdir.

Beləliklə, 1993-2003-cü illər Azərbaycanın müstəqillik tarixinə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyinin xilas edilməsi və qorunması, ölkəmizin inkişafının möhkəm təməllərinin yaradılması mərhələsi kimi daxil olmuşdur. Bu illər ərzində Yeni Azərbaycan Partiyası da Azərbaycanın inkişaf siyasətində mühüm rol oynamış, ölkəmizdə sabitliyin və vətəndaş həmrəyliyinin gücləndirilməsinə müvafiq töhfələr vermiş, Heydər Əliyev siyasətinin və bu siyasi kursun xalqımıza qazandırdığı misilsiz nailiyyətlərin əsas təbliğatçısı olmuşdur.

### Ölkəmizin və Yeni Azərbaycan Partiyasının inkişafında yeni mərhələ

2003-cü ildə Ulu Öndər Heydər Əliyevin layiqli varisi, onun dövlətçilik məktəbinin ən layiqli yetirməsi cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkəmizin inkişaf tarixində yeni mərhələnin əsasını qoymuşdur. Ali hakimiyyət kürsüsündə Heydər Əliyev siyasətini böyük müvəffəqiyyətlə davam etdirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan uğurla inkişaf etmiş, yeni və müasir mərhələdə qarşısında duran bütün vəzifələri layiqincə yerinə yetirmişdir. Həyata keçirilən çoxşaxəli, səmərəli siyasət Azərbaycanın iqtisadi qüdrətinin artmasını təmin etmiş və Azərbaycan dünyada iqtisadiyyatı sürətlə inkişaf edən ölkələrdən birinə çevrilmişdir. Sosial sahədə, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən məqsədyönlü tədbirlər ölkəmizdə işsizliyin, yoxsulluğun səviyyəsinin minimuma enməsini, əhalinin gəlirlərinin əsaslı şəkildə artmasını təmin etmişdir. Ölkənin təhsil, mədəniyyət, səhiyyə, idman infrastrukturu tamamilə yenilənmiş və müasirləşdirilmişdir.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın neft strategiyası müasir mərhələdə möhtərəm Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə yerinə yetirilərək, yeni nəhəng enerji layihələri həyata keçirilmiş, Azərbaycan Avropanın enerji xəritəsini dəyişdirmişdir. Ölkəmizin yaratdığı nəhəng nəqliyyat habı daha geniş coğrafiyada kommunikasiya marşrutlarının və imkanlarının genişlənməsini və şaxələndirilməsini təmin etmişdir. Azərbaycan fəal xarici siyasət həyata keçirmiş, beynəlxalq mövqeləri möhkəmlənmiş, ölkəmiz BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və digər mühüm beynəlxalq təşkilatlara uğurla sədrlik etmişdir. Beləliklə, mürəkkəb bir regionda yerləşməsinə baxmayaraq, dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biri kimi xarakterizə olunan Azərbaycan bəzi dövlətlərin əsrlərboyu əldə edə bilmədiyi nailiyyətləri dövlətçilik baxımından çox qısa bir müddətdə qazanmışdır.

Qeyd etməliyik ki, bu dövr Yeni Azərbaycan Partiyasının həyatında da çox böyük uğurlarla zəngin olan yeni mərhələnin əsasının qoyulması ilə müşayiət olunmuş, 2005-ci ildə keçirilən üçüncü qurultayda möhtərəm Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının Sədri seçilməsi ilə YAP yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu illərdə Yeni Azərbaycan Partiyasının sıraları daha da genişlənmiş və bu gün 770 min nəfərdən çox üzvü olan böyük bir siyasi təşkilata çevrilmiş, onun beynəlxalq əlaqələri kifayət qədər güclənmiş, bir sıra ölkələrin siyasi partiyaları ilə geniş əlaqələr qurulmuş, beynəlxalq təşkilatlarda uğurla təmsilçilik həyata keçirilmişdir.

Yeni Azərbaycan Partiyasının güclənməsində, ona ictimai marağın daha da artmasında əhəmiyyətli faktorlardan birinə də diqqət çəkmək lazımdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının 2013-cü ildə keçirilən V qurultayında partiyamızın Sədr müavini seçilməsi, 2021-ci ildə keçirilən VII qurultayda isə YAP Sədrinin birinci müavini təyin edilməsi Yeni Azərbaycan Partiyasının inkişaf tarixində vacib amillərdən biri kimi dəyərləndirilməlidir. Bildiyimiz kimi, hörmətli Mehriban xanım Əliyeva özünün çoxşaxəli fəaliyyəti ilə həm Azərbaycanın sosial-iqtisadi inkişafına, ölkəmizdə humanitar məsələlərin böyük uğurla həllinə, həm də Azərbaycan tarixinin, mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin dünyada təbliğ olunmasına mistəsna töhfələr verir. Təbiidir ki, onun misilsiz xidmətləri hər bir vətəndaşımız tərəfindən yüksək qiymətləndirilir. Bu gün hörmətli Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunması, onun partiya Sədrinin birinci müavini kimi fəaliyyəti həm də YAP-a cəmiyyətimizin etimadının, ona beynəlxalq marağın daha da artmasını təmin etmişdir.

### Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır

Şübhə yoxdur ki, əldə olunan misilsiz nailiyyətlər silsiləsində 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər dövlətçilik tariximizin ən böyük qələbələrindən biridir və xalqımızın çoxəsrlik tarixində öz şərəfli yerini almışdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu Zəfər sayəsində Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımızı azad edərək həm tarixi ədaləti, həm də ərazi bütövlüyümüzü bərpa etmiş, BMT Təhlükəsizlik Şurasının uzun illər ərzində kağız üzərində qalan qətnamələrini öz gücü, qüdrəti hesabına həyata keçirmişdir. Bu şanlı qələbə regionda yeni vəziyyət yaratmış, dövlətimiz qarşısında yeni vəzifələr müəyyənləşdirmişdir. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə böyük quruculuq, bərpa işləri həyata keçirilir, işğal dövründə tamamilə dağıdılmış şəhər və rayonlarımız, kəndlərimiz bərpa edilir, infrastruktur layihələri reallaşdırılır, yeni yollar çəkilir, hava limanları tikilir. Azərbaycan xalqının tarixi torpaqlarına Böyük qayıdışının əsası qoyulub və bu proses gələcəkdə daha sürətlə həyata keçiriləcək. Əminik ki, yaxın gələcəkdə bu ərazilər ölkəmizin dilbər guşələrindən birinə çevriləcək. Bu işlərdə cəmiyyətimizin hər bir üzvünün, o cümlədən Yeni Azərbaycan Partiyasının fəallarının da üzərinə həm böyük vəzifələr, həm də böyük məsuliyyət düşür.

Yeni Azərbaycan Partiyası təkcə ölkəmizin sosial-iqtisadi inkişafında mühüm rola malik deyil. YAP hakim partiya olaraq, Azərbaycanda siyasi islahatların da uğurla həyata keçirilməsinə öz töhfəsini verməkdədir. Bildiyimiz kimi, ölkəmizdə son dövrlərdə siyasi sahədə ciddi islahatlar aparılmış və siyasi dialoq mühiti əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Milli birliyin möhkəmləndirilməsi, dövlətçilik mənafelərinin qorunması baxımından vacib olan bu prosesdə YAP-ın fəallığı həm cəmiyyətimiz tərəfindən alqışlanır, həm də siyasi sistemin tərkib elementləri olan siyasi partiyalar Yeni Azərbaycan Partiyasının təşəbbüslərini təqdir edir.

Yeni Azərbaycan Partiyasını ümumxalq partiyası kimi xarakterizə etməyə imkan verən digər mühüm amil isə onun cəmiyyətin bütün təbəqələrindən olan sağlam düşüncəli, vətənpərvər insanları birləşdirməsidir. YAP-ın çoxminli üzvləri sırasında Azərbaycan dövlətçiliyi, cəmiyyəti qarşısında müəyyən xidmətlər göstərmiş dəyərli ziyalılar, tanınmış elm və mədəniyyət xadimləri, müxtəlif sahələrdə özlərini təsdiq etmiş təcrübəli insanlarla yanaşı, savadlı, bilikli, vətənpərvər gənclər də kifayət qədər yer tutur. YAP bu cür gənclərə geniş meydan verir, onlara özlərini təsdiq etmək üçün imkanlar təklif edir.

*Böyük məmnunluqla qeyd edə bilərik ki, tarixin ən qüdrətli Azərbaycanının ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yarandığı gündən Azərbaycan dövlətçiliyinə və xalqımıza ləyaqətlə xidmət edir. Bu gün isə yeni mərhələdə həm dövlətimizin, həm də partiyamızın qarşısında yeni vəzifələr dayanır. Və əminik ki, möhtərəm Prezident, partiyamızın Sədri cənab İlham Əliyevin dediyi kimi, Yeni Azərbaycan Partiyası bundan sonra da bütün ölkəmizdə gedən proseslərin mərkəzində olacaq.*

**Sahibə QAFAROVA,**
*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*

1992
2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

30




# Azərbaycan Sizin yolunuzu gözləyir

## HEYDƏR ƏLİYEVƏ MÜRACİƏT

Möhtərəm Heydər bəy!

Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan sözün əsl mənasında siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali Hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində, ifliç vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir.

Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır. İqtidarın idarəetmə səriştəsi, təcrübəsi, bacarığı olmayanda zora əl atması təbiidir. Qəribə burasındadır ki, prezidentdən tutmuş respublikanın müxtəlif vəzifəli şəxsləri dəfələrlə öz müsahibələrində bildiriblər ki, artıq hakimiyyəti bizim əlimizdən heç kəs ala bilməz, çünki ordu və polis bizə xidmət edir.

Dünənə kimi küçə, meydanlarda səhərdən axşama qədər demokratiyadan danışanlar görünür demokratiyanın mahiyyətinin nə olduğunu dərk etmirlər. Əsl demokratik ölkələrdə ordu, polis, başqa inzibati orqanlar siyasətdən kənardır və bütün bu qüvvələr hakimiyyətdə olanlara deyil, xalqa xidmət edirlər. Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün məharətlə istifadə edirlər. Əgər dünənə qədər Azərbaycanın sərvətləri bir istiqamətə daşınıb aparılırdısa, indi var-dövlətimiz bir neçə səmtə axıdılır. Bir sıra Şərq ölkələrindən qovulmuş Qərb inhisarları indi asanlıqla çoxdan həsrətində olduqları Bakı neftini ələ keçirirlər. Belə gedərsə, biz siyasi əsarətdən qurtarmamış, tezliklə iqtisadi əsarətə məruz qalacağıq. Çünki respublikanın olan-qalan iqtisadi potensialı sürətlə dağılır, təbii sərvətlərimiz talan edilir.

Vəziyyətin ağırlığından, çıxılmazlığından, həyatın qeyri-sabitliyindən, gələcəyə ümidsizlikdən respublikanı yüzlərlə ziyalı - yüksəkixtisaslı kadrlar tərk edir. Sözsüz ki, ən ağır zərbə geniş xalq kütləsinə, aşağı təbəqəyə dəyir. Hadisələrin bu cür inkişafı göstərir ki, yaxın gələcəkdə sosial ədalətdən heç əsər-əlamət də qalmayacaq. Halbuki uzun illər boyu imperiya boyunduruğu və totalitar rejim altında inləyən xalqımız bu gün demokratik qanunlara əsaslanan vətəndaş cəmiyyəti qurmaq arzusu ilə yaşayır.

Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyillərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti, idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə təyin edilməsi, respublikamızın onsuz da ağır olan durumunu daha da dərinləşdirir.

Xalqımıza qarşı törədilən ən böyük dəhşətli cinayətləri - 20 Yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlər hələ cəzalarına çatmayıblar. Axırı görüməyən, minlərlə insan ömrü aparan, saysız-hesabsız ailələri doğma yurdlarından didərgin salan Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, məqam, vəzifə qamarlamaq girəvəsinə, qazanc mənbəyinə dönübdür. Azərbaycanda "sürətli artım" ancaq yeni-yeni partiyaların və onların liderlərinin meydana çıxması sahəsindədir. Bu siyasi partiyaların sayı gündən-günə çoxalsa da, respublikada ictimai-siyasi həmrəylik yaratmaq yolunda əməli iş görülmür, siyasi vakuum mövcuddur. Çünki bu siyasi partiyaların rəhbərləri arasında sözün əsl mənasında geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, ən müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam, geniş məlumatı olan güclü lider yoxdur.

Möhtərəm Heydər bəy!

İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bu günü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar.

Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar.

Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını da məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz. Bütün çətinliklərə baxmayaraq, hələ Baltik respublikalarında belə qalan rus ordusunun Naxçıvandakı hissələrini Siz çox bacarıqla, qayda-qanunla yola saldınız. Qardaş Türkiyə və İranın köməyi ilə Naxçıvan əhalisini dözülməz vəziyyətdən çıxarırsınız. İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz.

Heydər bəy!

Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir.

*Hörmət və ehtiramla:*

1. Ziya Bünyadov - Azərbaycan Respublikası EA-nın akademiki
2. Fərəməz Maqsudov - Azərbaycan Respublikası EA-nın akademiki
3. Ömər Eldarov - heykəltaraşlıq akademiyasının akademiki
4. İqrar Əliyev - Azərbaycan EA-nın müxbir üzvü
5. Kərim Kərimov - Azərbaycan EA-nın müxbir üzvü
6. Məmmədtağı Cəfərov - Azərbaycan EA-nın müxbir üzvü
7. Sabir Hacıyev - Azərbaycan EA-nın müxbir üzvü
8. Xəlil Rza Ulutürk - Xalq şairi
9. Sirus Təbrizli - yazıçı, publisist
10. Zeynəb Xanlarova - Xalq artisti
11. Əli Ömərov - Azərbaycan Respublikasının xalq deputatı
12. Eldar İbrahimov - Azərbaycan Respublikasının xalq deputatı
13. Mixail Zabelin - Azərbaycan Respublikasının xalq deputatı
14. Əlfəddin Abdullayev - Azərbaycan Respublikasının xalq deputatı
15. Murtuz Ələsgərov - Əməkdar hüquqşünas
16. Əkbər Bayramov - Əməkdar elm xadimi
17. Zahid Qaralov - Əməkdar müəllim
18. Həsən Quliyev - Əməkdar müəllim
19. Adil Qasımov - Əməkdar müəllim
20. Əjdər İsmayılov - Əməkdar müəllim
21. Fikrət İsmayılov - respublika dövlət mükafatı laureatı
22. Şahlar Əskərov
23. Mübariz Əhmədov
24. Əli Nuriyev
25. Ədalət Fərəcov
26. Həsən Mirzəyev
27. Zahid Xəlilov
28. Vilayət Əliyev
29. Abbas Səmədov
30. Ağababa Mahmudov
31. Şəmistan Mikayılov
32. Səfyar Musayev
33. Əsədulla Qurbanov
34. Musa İlyasov
35. Tələt Qayıbov
36. Məmməd Məmmədov
37. Rafiq Əmənzadə
38. Lalə Hacıyeva
39. Eldar Abbasov
40. Əli İnsanov
41. Fuad İsmayılov
42. Əlişir Musayev
43. Hüsü Kərimov
44. Rafiq Məmmədhəsənov
45. Məmməd Nəsirov
46. İbrahim İsayev
47. Faiq Cəfərov
48. Sudef İmamverdiyev
49. Liliya Luqovaya - dosent, Əməkdar həkim
50. Hacıbala Abutalıbov - elmlər doktoru
51. Novruz Quliyev - elmlər doktoru
52. Əmir Mərdanov - elmlər doktoru
53. Sabir Xəlilov - dosent
54. Pənah Mahmudov
55. İskəndər Quliyev
56. Zakir Sərdarov
57. Əli Əhmədov
58. Əli Nağıyev
59. Maqsud Nəcəfov
60. Heydər Hüseynov
61. Nəbi Əskərov
62. Allahverdi Hacıyev
63. Tofiq Hüseynov
64. Məmməd Məmmədov
65. Musa Heydərov
66. Hacı Hacıyev - elmlər namizədi
67. Nəzir Əhmədov
68. Allahyar Hüseynov
69. İbrahim Əzizov
70. Aydın Əhmədzadə
71. Vidadi Acalov
72. Sabirə Dünyamalıyeva
73. Georgi Savoskin - Sodrujestvo cəmiyyətinin üzvü
74. Lüdviq Muradov - Azərbaycan-Rusiya cəmiyyətinin məsul katibi
75. Rafael Allahverdiyev - Azərbaycan-Rusiya cəmiyyətinin vitse prezidenti
76. Asif Cahangirov - BXTŞ-nin müdiri
77. Rafiq Qasımov - "Azərelektroterm"in baş direktor müavini
78. Kərim Kərimov - Bakı Kondisioner zavodunun şöbə müdiri
79. Munis Bayramov - Azərbaycan Əlillər cəmiyyəti sədrinin köməkçisi
80. Möhsün Möhsünov - yazıçı, jurnalist
81. Ağabəy Əsgərov - elmlər namizədi, "Səs" qəzetinin baş redaktoru
82. Vüqar Rəhimzadə - "İki sahil" qəzetinin baş redaktoru
83. Rizvan Cəbiyev - "Naxçıvan" qəzetinin baş redaktoru
84. Ariz Abduləliyev - "Axtarış" qəzetinin baş redaktoru
85. Əziz Axundov - "Gənc müəllim" qəzetinin baş redaktoru
86. Mirzə Əsgərov - "Real" agentliyinin direktoru
87. Xeyrəddin Qoca - "Açıq söz" qəzetinin redaktor müavini
88. Səlahəddin Quliyev - jurnalist
89. Ziya Paşa - jurnalist
90. Vüqar İsmayılov - jurnalist
91. Tahir Məmmədov - jurnalist

**15 oktyabr 1992-ci il**

# Partiya yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər

## Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı

Hörmətli ziyalılar!

16 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirəlayiqdir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir. Eyni zamanda bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər öz layiqli töhfəsini verməlidir.

Bununla bağlı və Sizin müraciətinizə cavab olaraq bəzi fikirlərimi və arzularımı açıqlamaq istəyirəm. Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən səksəninci illərin əvvəllərindən başlanmış, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir. Bu tarixi-obyektiv proseslər Sovet İttifaqının dağılmasına, Kommunist partiyasının tarixin səhnəsindən çıxmasına və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bundan sonrakı hadisələr - yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir haldır və beynəlxalq, dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür.



Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin, o cümlədən də Xalq Cəbhəsinin xidməti saymaq olmaz. Təkrar edirəm, bu tarixi-obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir.

Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol verməmək olmaz ki, bu ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması bütün ictimai-siyasi, sosial-iqtisadi potensialdan maksimum istifadə olunmasını tələb edir. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur. Güman edirəm ki, bu yolda əsas vəzifələr aşağıdakından ibarətdir.

Birinci. Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik. Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşlar. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqınlar var. Respublikaya misli görünməmiş hədsiz maddi və mənəvi ziyan dəyib. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi, bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.

İkinci. Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur. Respublika iqtisadiyyatının cari ilin doqquz ayındakı vəziyyəti barədə statistik məlumatlar insanı dəhşətə gətirir.

Milli gəlirin istehsalı 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür, Kənd təsərrüfatında və əsaslı tikintidə vəziyyət daha da ağırdır. Əgər Azərbaycanın iqtisadiyyatının səviyyəsinin son 5-6 il ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil.

Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlarına, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır. Aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Təəssüf ki, respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə olunmur.

Belə qənaətə gəlmək olur ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın iqtisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə də çox işlər kortəbii aparılır.

Üçüncü. Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılıqlarına səbəb olur. Rəhbər vəzifələrə təyinatlar iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan yalnız Xalq Cəbhəsinə mənsubiyyətinin əsas götürülməsi hüquq normalarına uyğun deyil, ağır nəticələr verə bilər. Xalq, Xalq Cəbhəsinə heç zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai-siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq fəal quruculuğa cəlb edilməlidirlər.

Azərbaycandan kənarda, Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onları öz vətənlərində müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər.

Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir. Təəssüf ki, son aylar bu təcrübə respublikada geniş tətbiq edilir.

Dördüncü. Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib seçilmək azadlığından gedir.

Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır. Əfsuslar olsun ki, bu sahədə də respublikada ötən yarım ildə heç bir dəyişiklik baş verməmişdir. Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqisinə çalışmalıdır. Bu işdə heç kəsə məhdudiyyət qoyulmamalıdır.

Beşinci. Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyillərin təzahürü böyük təhlükə yaradır. Belə meyillərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemlər sivilizasiya və demokratik yollarla həll edilməlidir. Azərbaycan onilliklərlə, yüzilliklərlə onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur. Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanması və inkişaf etdirilməsi, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir.

Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur.

Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğulur.

Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram.

*Dərin hörmətlə:*

**Heydər ƏLİYEV**
***24 oktyabr 1992-ci il***
***Naxçıvan şəhəri***

1992
2022

YENİ AZƏRBAYCAN PARTİYASI
*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*
30

# Yeni Azərbaycan Partiyasının
# Zəfər missiyası

"Daşdan sızan su saf olar"… Yeni Azərbaycan Partiyasının keşməkeşli yaranış tarixinə və 30 il ərzində keçdiyi fəaliyyət yoluna nəzər salarkən xalqımızın məhz bu deyimi yada düşür. Ötən əsrin 90-cı illərinin əvvəllərində - ölkə həyatının ictimai-siyasi təbəddülatlarla dolu olduğu bir zamanda Azərbaycanda baş verən taleyüklü tarixi hadisələrin və siyasi proseslərin canlı şahidi, bir çox hallarda isə iştirakçısı olmuş nəsillərin nümayəndələri sadə məntiqə söykənən bu həqiqəti daha dolğun dərk edir.



Ona görə də gələcək nəsillərə Ulu Öndər tərəfindən siyasi miras kimi ötürülmüş Yeni Azərbaycan Partiyasının təşəkkül tarixinin ictimai-siyasi baxımdan səciyyəvi xüsusiyyətlərini araşdırmadan və fəaliyyət yoluna nəzər salmadan onun dövlətçiliyimizin və xalqımızın taleyində oynadığı müstəsna rolu və tutduğu mövqeyi yetərincə dəyərləndirmək mümkün deyil.

İşə başlamaq onun yarısını görmək deməkdir, söyləyirlər. Bu, düşünürəm, doğru yanaşmadır. Çünki ötən əsrin 80-90-cı illərinin qovuşuğunda və ondan sonrakı mərhələlərdə gedən proseslərin iştirakçılarından biri olaraq, partiyamızın ziddiyyətli və mürəkkəb bir şəraitdə siyasi təşkilat kimi formalaşmasının heç də asan başa gəlmədiyinin şahidi olmuşam. Belə ki, YAP-ın tarixinin ən mühüm və ən əhəmiyyətli hissəsi olan yaranma dövrü dövlətimizin mövcudluğunu sual altına qoyan siyasi burulğanlarla müşayiət olunurdu. Bu, elə bir dövr idi ki, Sovet İttifaqının süqutundan sonra onun tərkibindəki keçmiş müttəfiq respublikalar formal müstəqillik əldə etməyə nail olmuşdular. Lakin bu proses hər respublikada özünəməxsus şəkildə əksini tapırdı. Azərbaycanda isə vəziyyət digərlərindən əsaslı şəkildə fərqlənirdi. Ölkə nankor qonşularımız tərəfindən dövlət siyasəti səviyyəsinə çıxarılmış separatizm meyilləri ilə üz-üzə qalmışdı, xalqımız qanlı 20 Yanvar hadisəsinin ağrıacısını çəkməkdə idi, erməni işğalı faktoru hər gün onlarca, yüzlərlə gəncimizi həyatdan məhrum edirdi.

Ermənistandan qovulmuş 300 mindən artıq soydaşımızın və öz doğma yurd-yuvalarını tərk etməyə məcbur olmuş yüz minlərlə qarabağlının taleyi ümidsizliyə düçar olmuşdu. Bu həm də ölkənin idarə olunmasında böyük sosial problemlərin yaranmasına yol açırdı.

Bütün bunların əsas səbəblərindən biri də o zaman tez-tez baş verən hakimiyyət dəyişiklikləri və bununla bağlı daxili siyasi çaxnaşmalar idi. Öncə Əbdürrəhman Vəzirov xalq hərəkatının istiqamətini doğru-düzgün məcraya yönəldə bilmədi, "bəlkə də qaytardılar" ümidi ilə artıq son günlərini yaşayan Sovetlər Birliyinin rəhbəri, açıq-aşkar antiazərbaycan və antiəliyev mövqeyi ilə indi tarixin zibilliyinə atılmış Mixail Qorbaçovun siyasi oyunlarının girovuna çevrildi.

Daha sonra müstəqillik aktını imzalamasına rəğmən, əslində, müstəqillik ideyasından tamamilə uzaq olan Ayaz Mütəllibovun dişsizliyi və uzaqgörməzliyi nəticəsində Azərbaycanda böhranlı vəziyyət qorxulu həddə yönəlmişdi.

Nəhayət, 1992-ci ilin mayında meydan hərəkatının dalğası üzərində hakimiyyəti zəbt etmiş qüvvələrin - AXC-Müsavat cütlüyünün səriştəsiz və yarıtmaz idarəçilik sistemi, bəzən isə dövlətə və dövlətçiliyə qarşı xəyanətkar əməlləri Azərbaycanı uçuruma aparan prosesləri kulminasiya mərhələsinə daşıdı.

Nizami ordumuz olmadığına görə pərakəndə şəkildə yaradılmış özünümüdafiə dəstələri düşmənin qarşısını almaqda çətinlik çəkir, çoxlu itki verirdilər. Hakimiyyət uğrunda mübarizədə Azərbaycanın tarix və mədəniyyət incisi Şuşanın, onun ardınca da Laçının qurban verilməsi demək olar ki, Birinci Qarabağ müharibəsinin acı taleyini müəyyənləşdirdi.

İqtidara gələr-gəlməz buraxdıqları kobud səhvlər ucbatından, eləcə də qəsdən yaratdıqları xaos nəticəsində həm daxildə, həm də beynəlxalq münasibətlər müstəvisində neqativ tendensiyalar daha təhlükəli məcraya yönəldi. Sözdə millətçi ideyaları tərənnüm edən bu siyasətbazların çox keçmədən antimilli mövqeləri üzə çıxmağa başladı.

YAP-ın yaranma tarixi də məhz bu antimilli ünsürlərin xalqın inamını sarsıtdığı həmin dövrə təsadüf edirdi. Həqiqətən də ümumxalq inamını qazanan, xalqı işıqlı gələcəyə doğru öz arxasınca apara bilən, ilk növbədə milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyulurdu. Azərbaycan xalqı da artıq "cəbhə"çilərin uydurduğu nağılların təsirindən və utopik xəyallardan ayılaraq praqmatik düşüncələrə üstünlük verməyə başlamışdı və Azərbaycanın nicat yolunu düzgün müəyyənləşdirə bilən güclü lider axtarışında idi.

O zaman bu meyarlara uyğun yalnız bir şəxsiyyət var idi - dünya səviyyəli siyasətçi və dövlət xadimi Heydər Əliyev! Xalq bu dahi şəxsiyyətin qeyri-adi idarəçilik və liderlik istedadına bələd idi: Heydər Əliyev respublikaya birinci rəhbərliyi dönəmində Azərbaycanı bütün göstəricilər üzrə geridə qalmış aqrar ölkədən SSRİ-nin ən qabaqcıl respublikasına çevirən, onu dünyaya tanıtdıran rəhbər olmuşdu.

Müstəsna işgüzar keyfiyyətləri onun nəhəng imperiyanın ali rəhbərliyində təmsilçiliyini şərtləndirirdi. Beynəlxalq siyasi dairələrdə o, müasir dünya tarixinin ən böyük siyasətçiləri ilə müqayisə olunurdu. Lakin, təəssüf ki, siyasi qısqanclıqla qarşılaşdığı üçün 1987-ci ildə Moskvadakı bütün rəhbər vəzifələrindən uzaqlaşdırıldıqdan sonra o dövrdə baş verən hadisələrə birbaşa təsir göstərmək imkanından məhrum olmuşdu.

Yeri gəlmişkən, düşünürəm ki, Heydər Əliyevə belə ədalətsiz münasibət həmin illərdə Qarabağ hadisələri fonunda vüsət alan xalq hərəkatına güclü təkan verən faktorlardan biridir. Ona görə də cəmiyyət daxilində əminliklə belə bir fikir formalaşmışdı ki, əgər o dövrdə Heydər Əliyev Azərbaycanı idarə etmiş olsaydı, xalqımız bu ağır müsibətlərlə üzləşməzdi.

Lakin, çox təəssüf ki, bu, belə olmadı. Moskvada təcrid şəraitində yaşayan Ulu Öndərin 1990-cı il qanlı 20 Yanvar hadisələrindən sonra Bakıya gəlməsinə mərkəzi hakimiyyət, üstəlik, yerli iqtidar hər vəchlə mane olduğuna görə o, Naxçıvana üz tutmalı oldu. Muxtar respublikanın Ali Sovetinin Sədri olduğu illərdə hətta onu fiziki cəhətdən məhv etməyə çalışan "cəbhə"çilərin təhdidlərindən çəkinməyən Heydər Əliyev Naxçıvanı mümkün təhlükələrdən qorumaq üçün siyasi iradəsini ortaya qoyaraq bütün prosesləri ustalıqla idarə edirdi və sonda bu hədəfə nail ola bildi. Cəmiyyətin mütərəqqi düşüncəli kəsimi və xalqın böyük əksəriyyəti isə "Heydər baba! Xalqı bu bəladan qurtar!" çağırışı ilə Ulu Öndərin Bakıya gəlişini arzulayırdı.

Lakin bu istəyi reallaşdıran bir ideoloji təmələ, siyasi təşkilatlanmaya ehtiyac var idi. Sovetlər İttifaqı dağılandan və vahid hakim partiya - Kommunist Partiyası süqut edəndən sonra dünya demokratiyasının təcrübəsindən istifadə etmək meyilləri meydana çıxmışdı. Postsovet ölkələrində, o cümlədən Azərbaycanda bu müstəvidə ayrı-ayrı partiyaların, hərəkatların yaranması prosesi başlanmışdı. 1992-ci ilin oktyabrında Azərbaycanın "91-lər" adı ilə məşhur olan tanınmış ziyalıları da o dövrdə mətbuata yeni mütərəqqi nəfəs gətirmiş "Səs" qəzeti vasitəsilə Ulu Öndərə müraciət ünvanlayaraq onun rəhbərliyi altında yeni siyasi partiya yaratmaq təklifini irəli sürmüşdülər. Təbii ki, bu müraciət cavabsız qalmadı və çox çətin və ağır bir şəraitdə partiyanın ilk Nizamnaməsi hazırlandı. 21 noyabr 1992-ci ildə isə Azərbaycanın əksər rayonlarından cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə partiyanın təsis konfransı keçirildi və Heydər Əliyev YAP-ın Sədri seçildi. Sonralar Ulu Öndər o günləri belə xatırlayırdı: "...Azərbaycanda vəziyyətin get-gedə ağırlaşdığını, çətinləşdiyini görərkən və bu partiyanın yaranması ilə əlaqədar mənə müraciət edən ziyalıların, respublikanın tanınmış adamlarının - ölkəmiz, xalqımız, torpağımız üçün ürəyi həqiqətən yanan adamların iztirabını duyarkən, onların xalqımız, ölkəmiz üçün bir iş görmək arzusunu hiss edərkən mən belə bir partiyanın yaranmasına kömək etməyə razılığımı verdim..."

Əslində, Yeni Azərbaycan Partiyası yaranarkən onun tərəfdarları bundan qat-qat cox idi və onların sayı sürətlə artmaqda idi. Digər tərəfdən isə Azərbaycanda çoxpartiyalılıq prinsipinin elan olunmasına baxmayaraq, YAP-ın siyasi arenaya çıxmasına, xüsusən hakimiyyət dairələri tərəfindən maneçilik göstərənlər də az deyildi. Ona görə də partiyanın yaranma prosesi bir çox təzyiq, hətta təqiblər altında gedirdi. Siyasi təşkilatların, vətəndaş cəmiyyətinin ölkənin taleyində oynadığı rola qiymət verərkən Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaranmasını siyasi uzaqgörənlik nümunəsi kimi dəyərləndirmişdir: "1993-cü ilin iyun ayında respublikada baş vermiş hadisələr - Azərbaycanda hakimiyyət böhranı, vətəndaş müharibəsinin başlanması onu göstərdi ki, Azərbaycanın ovaxtkı iqtidarı və o vaxt mövcud olan çoxsaylı partiyaların heç biri xalqı, milləti bu vəziyyətdən çıxarmağa qadir deyildi... Bunları nə iqtidarda olan partiyalar, nə də o vaxt iqtidara müxalifətdə olan partiyalar edə bildilər. Demək, bu onu göstərir ki, bu partiyanı yaratmaq istəyən adamlar uzaqgörən imişlər, həqiqətən Azərbaycanın gələcəyi haqqında düşünürmüşlər..." Ona görə də bu əlamətdar tarixi yubileyi qeyd edərkən Azərbaycan xalqı həyatını təhlükə altına alaraq partiyanın yaranmasına təşəbbüs göstərmiş və onun inkişafına mühüm töhfələr vermiş bütün insanlara böyük hörmət və ehtiramını ifadə edir. Son qənaət isə ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsidir.

Güclü lider ətrafında yaradılan YAP qısa müddət ərzində xalqı həmrəylik ideyası ətrafında sıx birləşdirməyə nail oldu və siyasi proseslərin axarına böyük təsir imkanı əldə etdi. Bu uğuru şərtləndirən bir çox strateji amil mövcud idi. Onlardan ən əsası odur ki, fəaliyyətinin ilk günlərindən Yeni Azərbaycan Partiyası müxalifətçiliyin sivil qaydalarını və normalarını müəyyənləşdirməklə yeni siyasi mədəniyyət nümunəsini ortaya qoydu. O, göstərdi ki, müxalifətçilik dövlətin maraqlarına zidd mövqe tutmaq deyil, ilk növbədə ümummilli maraqlar naminə məhz xalqa xidmət prinsiplərini qorumaq deməkdir. İkinci əlamətdar məqam isə ondan ibarətdir ki, o zamana qədər Azərbaycandakı siyasi sistem dövlətin vacib institusional sütunlarından birinə çevrilə bilməmişdi. Çünki siyasi qüvvələr arasında mövcud olan qeyri-sağlam rəqabət, məsələlərə qeyri-rasional və pozucu yanaşma buna imkan vermirdi. Yeni Azərbaycan Partiyası isə AXC, Müsavat və digər partiyalardan fərqli olaraq öz proqramına, prinsiplərinə, amallarına sadiq qalmaqla məqsədyönlü, nümunəvi fəaliyyəti ilə yeni, mütərəqqi ictimai-siyasi ənənələr yaratdı, ölkənin demokratik inkişafının siyasi özülünü qoydu. Onu da xüsusi qeyd etmək vacibdir ki, Heydər Əliyevin şəxsi nüfuzu, xalqın ona məhəbbəti bu partiyanın sıralarının möhkəmlənməsində müstəsna rol oynamışdır. Bakının Yasamal rayonunda Heydər Əliyevin müdafiəsi və təbliğatı üçün təşəbbüs qrupunu yaradarkən də, doğma Füzulidə YAP-ın yerli qurumunun təşkil olunmasına rəhbərlik edərkən də dəfələrlə bu qürurverici hadisələrin şahidi olmuşam. Azərbaycan Prezidenti, YAP-ın Sədri cənab İlham Əliyev ölkəmizdə siyasi sistemin formalaşmasında partiyamızın müstəsna rolunu siyasi baxımdan dəyərləndirərkən demişdir: "...O vaxta qədər bizdə siyasi sistem mövcud deyildi. Yeni Azərbaycan Partiyasının siyasi mədəniyyəti, siyasi mübarizə qaydalarının təbliği, ümumiyyətlə, siyasətin sivil yollarla aparılması ideyaları da cəmiyyətdə böyük əks-səda yaratdı və cəmiyyət tərəfindən dərhal dəstəkləndi. Biz bu ideyalara bu gün də sadiqik...".

Beləliklə, bütün maneələri dəf edərək Azərbaycanın ictimai-siyasi səhnəsinə cəmiyyətdəki qüvvələr nisbətini və bundan sonra ölkədə baş verəcək hadisələrin axarını köklü və konstruktiv sürətlə dəyişə bilən mətinləşmiş bir siyasi təşkilat - Yeni Azərbaycan Partiyası çıxdı. 1995-ci ildə və ondan sonrakı mərhələlərdə keçirilən parlament seçkilərində Milli Məclisin mandatını qazanan deputatların əksəriyyəti bu partiyanın üzvləri olduğundan parlamentin cəmiyyətdəki nüfuzu və təsir gücü daha da artdı və o, artıq rəsmi olaraq iqtidar partiyasına çevrildi.

Bu gün, bir qərinəlik zaman kəsiyindən sonra hər kəs tam əmindir ki, Ümummilli Lider Heydər Əliyevin mütərəqqi ideyalarının daşıyıcısı olan Yeni Azərbaycan Partiyasının yaranması ölkənin inkişaf və dövlət müstəqilliyi tarixində dönüş nöqtəsi olmuşdur. Çünki o dönəmin çağırışlarına cavab olaraq və ciddi zərurətdən doğan partiyanın bütün mərhələlərdə xalqın ictimai-siyasi həyatında oynadığı rolun əhəmiyyəti ölçüyəgəlməzdir. YAP-ın Heydər Əliyev dövrü partiyanın fəaliyyət konsepsiyasının və prioritetlərinin məhz zamanın çağırışlarına, reallıqlarına uyğun müəyyənləşdirilməsi, onun Azərbaycanın dövlətçilik maraqlarının etibarlı və qəytiyyətli müdafiəçisinə çevrilməsi ilə səciyyəvidir. Cəbhədə atəşkəsə nail olunması və uğurlu neft strategiyasının reallaşdırılması ilə paralel olaraq, Ulu Öndərin irəli sürdüyü "azərbaycançılıq" prinsipinin ardıcıllıqla reallaşdırılması qısa müddət ərzində ölkəmizin həyatında keyfiyyətcə və mahiyyətcə tamamilə yeni mərhələnin başlanmasını, milli həmrəyliyə nail olunmasını və yeni Azərbaycanda dövlət müstəqilliyinin dönməzliyini və yeni dövlət quruculuğunun həyata keçirilməsini təmin etdi. Multikultural dəyərlərə sadiqlik nümayiş etdirən ölkəmiz YAP-ın ideoloji dəstəyi sayəsində Şərqlə Qərbin unikal vəhdətini özündə birləşdirən sabitlik adasına çevrildi.

Yeni Azərbaycan Partiyasının fəaliyyətinin səmərəliliyini təmin edən mühüm strateji faktorlardan biri onun zaman-zaman struktur və təşkilati baxımdan yenilənməsi, ölkədə aparılan köklü islahatlara uyğun təkmilləşməsidir. Partiyanın qurultaylarında qəbul edilən qərarların uğurlu icrası, siyasi varislik və siyasi intizam prinsiplərinə sadiqlik onun fəaliyyətində yeni keyfiyyət dəyişikliklərini təmin edən çox mühüm amillərdir. 2003-cü ildə xalqın iradəsi əsasında Prezident seçildikdən sonra cənab İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf dönəminə qədəm qoymuş Yeni Azərbaycan Partiyası bu gün ölkəmizin dayanıqlı və dinamik inkişafının ideoloji sütununa çevrilmişdir. Ulu Öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər", - deyə söyləməklə ümumxalq maraqları naminə partiyamızın gələcək taleyinin etibarlı əllərə ötürülməsi ilə bağlı tarixi tövsiyəsini vermişdi. Həqiqətən də, tarix Ümummilli Liderin inamının və xalqın böyük etimadının özünü tam doğrultmasına şahidlik etdi: ölkəmiz və partiyamız yeni tarixi nailiyyətlərə imza atdı və bu gün bu proses yüksələn xətt üzrə davam edir.

Ümummilli Lider Heydər Əliyevin təbirincə desək, "dünənin, bu günün və gələcəyin partiyası" kimi hər zaman islahatlara açıq olan, müasir çağırışlara cavab verən, öz fəaliyyətini yeni tendensiyalar əsasında davam etdirən Yeni Azərbaycan Partiyası dinamik ictimai-siyasi qüvvədir. Onun nüfuzu və siyasi-ideoloji təsir dairəsi cəmiyyətin bütün təbəqələrinin, xüsusilə gənclərin və qadınların fəal vətəndaş mövqeyinin formalaşması baxımından təşkilata aktiv şəkildə cəlb olunması ilə daha da artmış olur. Partiyamız ölkə daxilində çoxşaxəli fəaliyyətlə yanaşı, bu gün respublikamızın hüdudlarından kənarda səmərəli əlaqələr formalaşdırmaqla beynəlxalq miqyasda ən güclü siyasi təşkilatlardan biri kimi tanınır və qəbul edilir ki, bu da, şübhəsiz, ölkəmizin beynəlxalq nüfuzunun yüksəlişinə vacib töhfədir. O, indi ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edərək təkcə Azərbaycanın ümumxalq partiyasına deyil, Cənubi Qafqaz bölgəsinin ən nüfuzlu və ən böyük partiyasına çevrilmişdir.

Ulu Öndərin tarixi vəsiyyətinə əməl edərək Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qarabağ zəfərinin işığında ölkənin siyasi avanqardına çevrilmiş Yeni Azərbaycan Partiyasının yeni siyasi konfiqurasiyanın formalaşması prosesindəki rolu və milli həmrəylik missiyası daha aydın görünür. Təsadüfi deyil ki, siyasi texnoloqlar bu müqəddəs savaşda əldə olunan qələbənin əsas amillərindən biri kimi məhz Azərbaycanda sarsılmaz xalq-Prezident-ordu birliyinə və ümummilli maraqlar naminə siyasi həmrəyliyə nail olunmasını qeyd edirlər. Bu nəticə isə ilk növbədə məhz hakim partiya və ölkənin ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının müasir çağırışlara adekvat münasibəti, çevik və praqmatik düşüncə tərzi, eyni zamanda proseslərə yetərincə təsir göstərmək imkanları ilə bilavasitə bağlıdır. Bütövlükdə ən müxtəlif istiqamətlərdə inqilabi dəyişikliklərin və cənab İlham Əliyevin köklü islahatlar konsepsiyasının reallaşdırılması üçün YAP-ın ortaya qoyduğu ideoloji dəstək və siyasi təşəbbüslər həlledici əhəmiyyətə malikdir.

Partiyamız daim inkişafda olan və yeniləşən siyasi təşkilat kimi xalqın yüksək rifahını hədəfləyən mütərəqqi ideyaların daşıyıcısıdır. YAP-ın 2021-ci ildə keçirilmiş VII qurultayında partiyanın yeni Nizamnaməsinin və Proqramının qəbul edilməsi, idarəetmə strukturunun daha çevik və səmərəli fəaliyyəti üçün yeni formata keçirilməsi, ölkəmizin birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini vəzifəsinə təsdiq olunması, qurultay ərəfəsində 6 müxalifət partiyasının YAP-a birləşməsi yeni, daha yüksək hədəflərə çatmaq əzminin ifadəsidir. Ölkə Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyev ali forumdakı yekun nitqində qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə saydığını söyləmiş və mütərəqqi ənənələrə malik Yeni Azərbaycan Partiyasının yeniləşmiş formatda daha fəal olacağına, qarşıda duran problemlərin böyük fədakarlıqla həllinə, ölkəmizin aparıcı siyasi qüvvəsi və nailiyyətlərimizin bayraqdarı olaraq qalacağına əminliyini ifadə etmişdir.

Təsadüfi deyildir ki, partiyamız zəfər salnaməsini yazan xalqımızın ən müxtəlif təbəqələri ilə işin yalnız siyasi deyil, həmçinin sosial və humanitar aspektlərini də diqqətdə saxlayır, sağlam ətraf mühit və ekoloji məsələlərlə bağlı örnək fəaliyyət sərgiləyir.

İkitərəfli və çoxtərəfli əsasda beynəlxalq əlaqələrini genişləndirir, Avropa və Asiya ölkələrinin syasi partiyaları və onların birlikləri ilə münasibətlərini günün tələblərinə uyğun şəkildə qurmaqda davam edir.

Qardaş Türkiyənin iqtidar partiyası olan Ədalət və İnkişaf Partiyası ilə isə ən müxtəlif istiqamətlər üzrə fəaliyyətini əlaqələndirir.

Bu baxımdan inamla söyləmək olar ki, respublika həyatının bütün sahələrində əldə edilmiş uğurların altında 800 minə yaxın siyasi həmfikri öz ətrafında birləşdirən YAP-ın imzası var.

*Heydər Əliyevin ideyalarını siyasi yol xəritəsi kimi qəbul edən partiyamız özünün 30 illik yubileyini tam yenilənmiş, möhkəmlənmiş, və müasirləşmiş bir siyasi təşkilat kimi qarşılayır.*

*Yeni Azərbaycan Partiyası Müzəffər Ali Baş Komandanın liderliyi ilə qalib ölkənin Zəfər partiyasıdır.*

*Və qəti şəkildə əminəm ki, o, əsl ümumxalq partiyası olaraq bu missiyanı bundan sonra da bütün fəaliyyəti boyu şərəflə daşıyacaq!*

**Bahar MURADOVA,**
***Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsinin sədri,***
***YAP İdarə Heyətinin üzvü***

1992
2022

YENİ AZƏRBAYCAN PARTİYASI

milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

30

# Yeni Azərbaycanın şanlı partiyası

Yeni Azərbaycan Partiyasının yaradılmasından otuz il keçir. Bu partiyanın yaradılmasını şərtləndirən şəraitin öyrənilməsi müasir Azərbaycanın tarixinin ən vacib tərkib hissəsidir. Hadisələrin mərkəzində dünyaşöhrətli siyasətçi Heydər Əliyevin siyasi fəaliyyətdən süni şəkildə uzaqlaşdırılması və Azərbaycanda Milli Azadlıq hərəkatının başlanması fonunda dahi siyasətçinin xalqın tələbi ilə hakimiyyətə gəlməsi dayanırdı. Hadisələrin xronologiyasına diqqət edək. Mixail Qorbaçovun 1985-ci ilin mart ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi seçilməsi ilə Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə qarşı qərəzli münasibət başladı. M.Qorbaçov özünə rəqib gördüyü üçün Heydər Əliyevi siyasi hakimiyyətdən uzaqlaşdırmaq yolu tutdu. Nəticədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 1987-ci il oktyabr plenumunda Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdi.



## Moskvadakı yeganə və ən böyük qalamız!

Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə bu xəbəri eşidəndə təəssüflənərək demişdi: "Moskvadakı yeganə və ən böyük qalamız yıxıldı". Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, hər şeydən öncə, ermənipərəst M.S.Qorbaçovun Azərbaycana qarşı mənfur siyasətini reallaşdırmaq üçün əvvəlcədən düşünülmüş planlarını həyata keçirmək kimi çirkin məqsədindən irəli gəlirdi.

Heydər Əliyevin istefaya göndərilməsinin səbəblərindən biri də SSRİ-nin siyasi rəhbərliyini ələ almış erməni lobbisinin təsiri və təzyiqi idi. Təsadüfi deyildir ki, Heydər Əliyev şəxsiyyətini tanıyıb, onun gücünü bilənlər, daxili qruplaşmalar arasında, eyni zamanda xarici mətbuatda onu "Sovetlərin dəmir müsəlman rəhbəri", "Kremldəki türk" kimi dəyərləndirirdilər. Ona görə də yaramazların bu işdə məqsədləri və çoxdan hazırlanmış niyyətləri var idi. Təəssüf ki, bu işə bizim milli bədxahlarımız və manqurtlarımız da qoşulmuşdular. Moskvanın yanında özlərinə "hörmət" qazanmaq istəyən milli hisslərdən uzaq adamlar da bu işdə fəallıq göstərirdilər. Heydər Əliyevin rəhbərlikdən uzaqlaşdırılmasının əsl səbəbləri tezliklə aşkara çıxdı. Heydər Əliyev bu haqda bildirmişdir: "Siyasi bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbekyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" - demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdı. Moskvanın "Qarabağ əməliyyatı" mənim Siyasi bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm".

## Vətənə bağlılıq

Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunduğu, Moskvada yaşadığı vaxtlarda qəlbi həmişə vətən eşqi ilə döyünüb.

Məlum olduğu kimi, sovet rəhbərliyi 20 yanvar 1990-cı il tarixində Bakıya qoşun yeridərək xalqın azadlıq hərəkatını boğmağa çalışdı. Heydər Əliyevin siyasi fəaliyyətdən faktiki təcrid edilmiş vəziyyətdə olmasına baxmayaraq, o, törədilmiş bu ağır faciəyə laqeyd qala bilməzdi. Belə də oldu, Heydər Əliyev 20 yanvar 1990-cı il tarixdə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün həyatını riskə ataraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək mətbuat konfransı keçirib bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb etdi.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyevin Bakıda qalmasına həmin dövrün siyasi hakimiyyəti bütün cidd-cəhdlə mane oldu. Hətta Heydər Əliyev Bakıda hava limanında düşərkən onun həyatına sui-qəsd cəhdi oldu. Heydər Əliyev Bakını tərk etmək məcburiyyətində qalaraq Naxçıvana getməli oldu. Bir müddətdən sonra yerli əhali Heydər Əliyevin Naxçıvan Ali Məclisinə alternativsiz olaraq namizədliyini irəli sürdü və o, deputat seçildi. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi. Hakimiyyət iddiasında olan bütün qüvvələr, o cümlədən Ayaz Mütəllibov, Yaqub Məmmədov, Əbülfəz Elçibəy Heydər Əliyevin böyük siyasətə qayıdışını istəmirdilər. Artıq Heydər Əliyev Naxçıvan Ali Məclisindəki fəaliyyəti ilə özünün müstəqillik ideyalarını gerçəkləşdirməyə başlamışdı.

Müstəqil yaşaya bilməyəcəyimizlə bağlı fikirləri dəstəkləyən Ayaz Mütəllibov Azərbaycanın formal olaraq prezidenti seçilməklə ittifaqın bərpa olunmasına çalışırdı. AXC üzvləri isə cidd-cəhdlə hakimiyyətə gəlmək istəyirdilər. Yeni ittifaq müqaviləsinin Azərbaycanın Ali Sovetində müzakirəsi aparılırdı. Bu ərəfədə Ali Sovet o dövrdəki hakimiyyəti və Moskvanı müdafiə etmək məqsədilə bir çox qeyri-demokratik qərarlar qəbul etdi. Bunlardan biri də Heydər Əliyevin siyasi fəaliyyətinə imkan verməmək üçün Naxçıvan MR parlamenti sədrinin Azərbaycan parlamenti sədrinin müavini olması qaydasının ləğv edilməsi oldu. Sonrakı addım prezident seçkisi üçün yaş senzinin müəyyənləşdirilməsi oldu və s. Təəssüf ki, bu dövrdə "demblоku" təmsil edənlər sonradan hakimiyyətləri dövründə də öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirə bilmədi və əvvəlki hakimiyyətin yolunu davam etdirdi.

## Müstəqillik akkordları

Bütün bu təzyiqlərə baxmayaraq, Heydər Əliyev 7 mart 1991-ci il tarixdə Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxış etməklə uzun illərdən sonra ilk dəfə bütövlükdə Azərbaycan auditoriyasına müraciət etdi. Heydər Əliyev dedi: "Yeni ittifaq müqaviləsi ilə əlaqədar olaraq təyin olunmuş referendumda iştirak etmək və ya etməmək çox mühüm məsələdir. Azərbaycan xalqının gələcək taleyi həll olunur. Ona görə də mülahizə və təkliflərimi mən də bildirmək istəyirəm.

1922-ci ildən Azərbaycan Sovet İttifaqının tərkibindədir. Bu müddət ərzində xalqımız tarixi yol keçib, nailiyyətlər əldə edib. Eyni zamanda çox itkilərə, çətinliklərə də məruz qalıb. Bunları inkar etmək olmaz.

Biz hamımız bu ittifaqın mövcud olduğu dövrdə dünyaya gəlmişik, təhsil-tərbiyə almışıq, formalaşmışıq. Biz hamımız, hər halda tam əksəriyyətimiz bu ittifaqa həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxt gələcəyini bu İttifaq daxilində görmüşük. Mən və mənlə birlikdə xeyli müddət respublikaya rəhbərlik edən həmkarlarım ittifaqın möhkəmlənməsi üçün daim çalışmış, Azərbaycan xalqında da bu İttifaqa sadiqlik və məhəbbət hissiyyatları yaratmağa cəhd etmişik.

Fəqət son illərdə dünyada, ölkədə gedən ictimai, siyasi proseslər keçmişimizə münasibəti, ümumi dünyagörüşünü dəyişdirmiş, Sovet İttifaqında mərkəzlə respublikalar arasında olan iqtisadi, siyasi əlaqələr açılmış, çılpaqlaşmış, hansı tərəfin daha çox xeyir götürdüyü, zərər çəkdiyi aydınlaşmışdır. Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların ittifaq dövləti tərəfindən zorakılıqla, hərbi qoşun hissələri vasitəsilə boğulması tədbirləri ittifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdir. İttifaq dağılmağa başlamışdır".

Heydər Əliyev bu tarixi çıxışında SSRİ rəhbərliyində olmuş bir şəxs kimi sovetlər birliyinin siyasi anatomiyasını açaraq onun imperialist bir dövlət olduğunu ifşa etdi. SSRİ-nin rəhbəri M.Qorbaçovun əsl niyyətini ifşa edən Heydər Əliyev dedi: "Ölkənin rəhbərliyi yetmiş il mövcud olan ittifaqın yarasız olduğunu bəyan edərək, respublikaları yeni ittifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə çıxışında hətta belə demişdir ki, guya ölkədə indiyə qədər həqiqi ittifaq olmayıb, respublikalar heç də ittifaqda yaşamayıb, əsl ittifaq bundan sonra yaranacaqdır. Həqiqəti isə desək, yeni ittifaq müqaviləsinin layihəsi əvvəlkindən də yararsızdır".

SSRİ dönəmini imtahan adlandıran Heydər Əliyev deyir: "İndi isə hesab edirəm ki, bizim xalqımız üçün yetmiş illik imtahan bəsdir. Yeni bir İttifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmirəm".

Heydər Əliyev ittifaq müqaviləsinin rədd edilməsini təkidlə tələb edərək Azərbaycanın yolunun yalnız müstəqillik olduğunu bildirir.

## Tarixi varislik və müstəqilliyə çağırış

Heydər Əliyev sözügedən tarixi çıxışında Azərbaycanın gələcəyinin yalnız müstəqillikdən keçdiyini bildirir. Lakin sessiyada bu fikrin əleyhdarları ciddi şəkildə Azərbaycanın müstəqil ola bilməyəcəyini, buna iqtisadi və siyasi potensialının olmadığını çatdırmağa çalışırdılar. Heydər Əliyev isə əks qütbdə dayanır və cəsarətlə öz mövqeyini müdafiə edirdi.

Heydər Əliyev: "Bəziləri respublikamızın müstəqil, ittifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışır. İttifaqda olan respublikalar bir-biri ilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduğuna görə, onların ittifaqdan ayrı yaşamasının mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır.

Bu təbliğatlar əsassızdır. Əvvəla, Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir. Bu barədə deputat Səmədzadənin çıxışındakı bir çox müddəalarla mən razı deyiləm. Əgər reqlamentdən əlavə vaxt verilsə, onların əsassız olduğunu sübut edərəm.

İkincisi, dünyanın hər bir dövləti digər başqa dövlətlərlə istədikləri sahələrdə qarşılıqlı iqtisadi, ticarət, texniki əlaqələr yaradır, ümumdünya inteqrasiya prosesində iştirak edir və bunların heç biri bu dövlətləri müstəqillikdən məhrum etmir. Ona görə də ittifaqda olan respublikaların iqtisadi əlaqələri onların müstəqilliyə nail olmasına mane ola bilməz. Fikrimcə, əgər Azərbaycan tam müstəqil dövlət olarsa (o, indi ittifaqda olan respublikaların hər biri ilə, hətta ittifaq qalarsa, onunla da qarşılıqlı, bərabərhüquqlu, iki tərəfə də faydalı iqtisadi əlaqələr yarada bilər), bu, müstəqil Azərbaycanın gələcək inkişafı üçün daha səmərəli olar. Azərbaycan xalqının başqa xalqlarla dostluq əlaqələri müstəqil xarakter daşıyar, daha səmimi, daha möhkəm olar.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan xalqının başqa xalqlara nisbətən yeni ittifaq müqaviləsindən imtina etməsinə daha çox əsası var. Üç ildir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi pozulub. Lakin ittifaq dövləti bu vəziyyətin aradan qaldırılması üçün səmərəli tədbirlər görməyib".

Heydər Əliyev yüz illərlə aktual olan və tarixi şüura söykənən bir məsələyə birmənalı qiymət verirdi. Azərbaycan müstəqil olmağa qadir bir xalqdır. Müqayisəli tarixi metodla yanaşsaq, əsrin əvvəllərində qul təfəkkürlü insanlarda mövcud olmuş Azərbaycan müstəqil ola bilməz fikri Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilirdi.

Heydər Əliyev: "Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Biz gəncləri Heydər Əliyevin ətrafında birləşdirən, ona inanmağa sövq edən məhz dahi siyasətçinin yüksək tribunalardan müstəqilliklə bağlı apardığı dönməz mübarizəsi idi.

Hələ 1989-cu ildə BDU-nun həyətində təşkil olunmuş mitinqdə bizi yalnız Heydər Əliyev müstəqilliyə qovuşdura bilər söylədiyimə görə odövrkü universitet rəhbərliyi məni təhsil müəssisəsindən qovmağı qarşılarına məqsəd qoymuşdu. Qiymətlərimin əla və yaxşı olması Heydər Əliyev əleyhdarları bu arzusunu reallaşdıra bilmədiyini görüb BDU-nun hansısa otağının yandırılmasını mənim üstümə atmaqla, bu aktı gerçəkləşdirmək istəmələri həmin şəxslərin nə qədər cılız olduqlarını düşünməyə imkan verir.

## Yaş senzi

Yeni Azərbaycan Partiyasının yaradılması zərurətindən danışarkən Heydər Əliyevin yaş senzinə qarşı mübarizədə fəallıq edən azsaylı vətənsevər, cəsarət sahibi olan şəxslərin fəaliyyətindən danışmamaq mümkün deyil. Konstitusiyada 121-ci maddə ilə "yaş senzi" maneəsi yaradan bəzi qüvvələr xalqın Heydər Əliyevin hakimiyyətə qayıdışı tələbinin gerçəkləşməsinin qarşısını almağa cəhd edirdilər. Ağır vəziyyətə dözməyən insanlar qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, dahi dövlət xadiminin yenidən böyük siyasətə qayıdışını tələb edirdilər. Yaddaqalan əsas məqamlardan biri də bu oldu ki, mübariz insanlar etiraz aksiyaları təşkil etməklə heç kimdən qorxmadan, hətta repressiya təhlükəsinin olmasına baxmayaraq, öz mübarizələrini sona qədər davam etdirdilər. Mən o vaxtlar BDU-nun Mexanika-riyaziyyat fakültəsində oxuyurdum. Bir yerə topladığımız Azərbaycanın vətənpərvər gəncliyi Heydər Əliyev dühasının xalqımızı bu fəlakətli vəziyyətdən qurtara biləcəyini düşünürdü. Yaxşı xatırlayıram, müxtəlif ali məktəblərdə təhsil alan gənclərimiz var idi ki, onların siyasi fəaliyyət göstərmək üçün yaşları çatmasa belə, bizim ətrafımızda birləşərək yaş senzinə qarşı mitinqlərdə iştirak edirdilər. Mən başda olmaqla, o dövrün gənclərini ali məktəb rəhbərlikləri təhdid edərək Heydər Əliyev siyasi dühasının işığına yığışdıqları təqdirdə ali məktəblərdən qovulacaqlarını bildirirdilər. Azərbaycanın yetkin düşüncəli gəncliyi isə bu təhdidlərə sinə gərərək öz işıqlı gələcəyinin dalınca gedirdilər. Lakin bir tərəfdən Moskvaya müti qul kimi xidmət edən Ayaz Mütəllibov, digər tərəfdən hakimiyyətə can atan AXC-Müsavat cütlüyü Heydər Əliyev fenomenini görməzdən gəlməyə çalışır, onun heç cür siyasət səhnəsinə qayıtmasını istəmirdilər. Lakin hadisələrin gedişi xalqın həqiqi liderinin gəlişinə zəmin yaradırdı.

16 oktyabr 1992-ci il tarixdə Azərbaycanın 91 nəfər ziyalısı Heydər Əliyevə mətbuatda müraciət etdi. Sözügedən müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Məlum olduğu kimi, müstəqilliyin ilk illərində respublikamızda xaos, anarxiya yaranmış və daxili çəkişmələr özünün pik nöqtəsinə çatmışdı. Təbii ki, Ulu Öndər Heydər Əliyevin xalq tərəfindən sevilərək təkidlə hakimiyyətə dəvət edilməsinin çox səbəbləri var idi. 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri, ən ağır məqamlarda daim xalqla birlikdə olması, cəsarət göstərərək 20 Yanvar hadisələrinə qiymət verməsi, Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə bu bölgəmizin düşməndən qorunması, 3 sentyabr 1991-ci il sessiyasında Naxçıvan Ali Sovetində "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edilərək, Kommunist Partiyasının fəaliyyətinin dayandırılması haqqındakı qərar, Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağının ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi və "Sovet Sosialist" sözlərinin adından çıxarılması və sair kimi bir-birindən mühüm addımlarla onun 1993-cü ildə xilaskarlıq missiyasını uğurla həyata keçirməsi xalqın inamını daha artırırdı. Vəziyyət o qədər gərgin və idarəolunmaz idi ki, hətta o zaman ölkəyə "rəhbərlik" edən "kor" qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu Öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirirdilər. Heydər Əliyev o illərdə siyasətə qayıtmaq istəyində olmasa da, respublikanın ictimai həyatında ağlasığmaz ədalətsizliklər onun vicdanını həddindən artıq narahat edirdi. Odur ki, real vəziyyəti bir daha dərindən və hərtərəfli təhlil edən Naxçıvan Ali Məclisinin sədrinin qəlbi xalqın taleyi üçün narahat olan ziyalıların bir qrupunun - müstəqillik tarixinə "91"-lər kimi daxil olmuş ziyalıların müraciətini cavabsız qoymadı. Beləliklə, Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına və sədrlik etməsinə müsbət cavab verdi. Onun respublika ziyalılarının müraciətinə cavabı Heydər Əliyev şəxsiyyətinin əqidə manifestidir.

Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılığını belə ifadə etdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

Bundan sonra 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirilən konfransda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın siyasi həyatında canlanma yaratdı. Lakin yenə də maneələr davam edirdi. Amma YAP-ı siyasi sferada məhdudlaşdırmaq cəhdləri uğursuzluğa düçar oldu. Artıq geniş xalq kütlələri böyük siyasət adamının meydanda olmasını sevinclə qarşılayır və ümidləri artırdı. Xalq Yeni Azərbaycan Partiyasını geniş şəkildə dəstəkləməyə başladı. Həmin tarixi hadisələri dəyərləndirən Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

Xalqın Ümummilli Lider Heydər Əliyevə olan inamı isə tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdi. Ümummilli Liderimizin nüfuzu, Azərbaycan xalqının ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Yeni Azərbaycan Partiyası yarandığı müddətdən xalqın Heydər Əliyev fenomeninə olan sevgisi nəticəsində o, 7 ay sonra siyasi hakimiyyətə gəldi. Belə bir tarixi gerçəklik şəraitində YAP özünü xalqa identifikasiya etməyi bacardı. Xalqını və dövlətini hər şeydən üstün tutan dahi liderin iyunun 9-da Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Onun bu seçimi çox siyasətçilərə müyəssər olmayan mənəviyyat seçimi idi, milli reallıqları fəlsəfi idrak səviyyəsində düzgün və analitik qiymətləndirməyin bariz nümunəsi idi.

Bununla da YAP-ın sədri, Ümummilli Lider Azərbaycan dövlətçiliyini xilas etdi, onun növbəti intibahının əsasını qoydu.

Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışından sonra cəmiyyətimizin bütün sahələrində - siyasi, iqtisadi və mədəni sferalarda baş verən cahanşümul transformasiya prosesləri Azərbaycan Respublikasının dünya birliyində tanınmasına və özünə layiq yer tutmasına güclü impuls verdi.

Şübhəsiz ki, YAP-ın Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi prioritetləri Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulması, ictimai-siyasi sabitlik, milli həmrəyliyi, sosialyönümlü iqtisadiyyatı partiyamız üçün əsas fəaliyyət istiqaməti olmuşdur.

Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyev partiyanın VII Qurultayında çıxış edərək bildirmişdir: "Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi".

Səkkiz yüz minə yaxın üzvü olan YAP bu dövrlərdə ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində böyük üstünlüklə qələbə qazanaraq ölkənin siyasi həyatında çox mühüm rol oynamışdır.

2005-ci ilin mart ayında keçirilən YAP-ın III Qurultayında Azərbaycan Prezidenti, YAP sədrinin birinci müavini cənab İlham Əliyevin partiyanın sədri seçilməsi partiyanın həyatında çox mühüm rol oynadı. Prezident İlham Əliyevin YAP-ın sədri seçilməsindən sonra gənclər daha çox partiyaya maraq göstərməyə başladılar. Bundan sonra partiyada gənclərin çəkisi xüsusi olaraq artmağa başladı. Təsadüfi deyil ki, partiya üzvlərinin üç yüz minə yaxın hissəsini gənclər təşkil edir. Hələ 1993-cü ildə ölkə gənclərinin bir qrup nümayəndəsi ilə görüşdə Ulu Öndər bildirirdi: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik".

YAP-ın siyasi həyatında Birinci vitse-prezident Mehriban Əliyevanın rolu da danılmazdır. Mehriban Əliyevanın partiya sıralarında yüksək səviyyədə təmsil olunması Azərbaycanda humanizm prinsiplərinin daha da genişlənməsinə böyük bir töhfədir.

*Fikirlərimi Prezident İlham Əliyevin 2018-ci il mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda müstəqillik haqqındakı sözləri ilə bitirmək istəyirəm: "Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan, demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir".*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

1992 2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

30



# Sınaqlarla dolu Zəfər yolu

Yeni Azərbaycan Partiyasının 30 illik yubileyini böyük sevinc, qürur və fərəh hissi ilə qeyd edirik.

Cənubi Qafqazın ən böyük partiyasının yaranması və fəaliyyəti elə də uzun dövrü əhatə etmir.

Lakin onun gördüyü işlər, çatdığı hədəflər, nail olduğu nəticələr əsrlərə sığmayan nailiyyətlərdir.

Əvvəlcə iki yığcam suala konkret cavab verməyə çalışaq:

Yeni Azərbaycan Partiyası Azərbaycan xalqına və dövlətinə nə verib?

Cavab çox qısa və lakonikdir!

Əslində, hər şey!

Ən əvvəl Azərbaycan xalqının bütün arzu və istəklərini gerçəkləşdirib!

Yeni Azərbaycan Partiyasının uğurlarının səbəbi nədir?

Bu sualın da cavabı çox qısadır:

Daim xalqa arxalanmasında, demokratik prinsipləri dönmədən rəhbər tutmasında, birmənalı şəkildə milli maraqlara xidmət etməsində, milli birliyə nail olmasındadır!

İndi isə otuz il ərzində keçilən yola, görülən işlərə qısa şəkildə nəzər salaq, hadisələri faktların köməyi ilə xatırlayaq.

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyası Azərbaycanın ən çətin, ən ağır günlərində yarandı.

Qırmızı imperiyanın dağılması, SSRİ adlı super dövlətin tərkibinə qatılmış müttəfiq respublikaların müstəqil dövlətə çevrilməsi siyasi kataklizmlərlə müşayiət olunurdu.

İmperiyasevər qüvvələr parçalanma prosesi zamanı Azərbaycanın malik olduğu sərvətlərdən asanlıqla əl çəkmək istəmirdilər.

Odur ki, köhnə ssenarilər işə salınaraq "Dağlıq Qarabağ problemi" yenidən meydana atıldı, Azərbaycandan ərazi qoparmaq üçün məkrli planlar işə salındı.

Mərkəzdəkilər Ermənistanın özünə ordu yaratmasına göz yumdular, azərbaycanlılardan isə ov tüfənglərini belə yığdılar.

Ermənistandan Qarabağa gələn emissarlar Xankəndidə mitinqlər keçirəndə, separatçılıq əməlləri törədəndə susdular.

Ermənistanda qədim dədə-baba torpaqlarında yaşayan iki yüz mindən çox azərbaycanlı doğma yurd-yuvalarından qovulanda da özlərini görməzliyə qoydular.

Əksinə, Moskva Qarabağda "xüsusi idarəetmə komitəsi" təşkil edərək bölgənin Azərbaycanın nəzarətindən çıxarılmasına şərait yaratdı.

Belə bir məsuliyyətli məqamda ölkəyə Vəzirov kimi maymaq, Mütəllibov kimi qətiyyətsiz və qorxaq, AXC-Müsavat cütlüyü kimi səriştəsiz və şəxsi maraqlara xidmət göstərənlərin başçılıq etməsi vəziyyəti daha da mürəkkəbləşdirdi.

Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sessiyasında çıxış edərək baş verənlərin adi məsələ olmadığını, Qarabağı qoruyaraq Azərbaycanın tərkibində saxlamaq üçün xüsusi tədbirlər görülməsini söyləməsi, təhlükə barədə irəlicədən ciddi xəbərdarlıq etməsi isə kimsəni ayıltmadı.

Ölkə idarəolunmaz vəziyyətə çatdı, xaos və anarxiya baş alıb getdi, Azərbaycanın müstəqilliyini itirməsi bir yana, dövlət kimi mövcudluğu da təhlükə altına düşdü.

Əvvəlcə bir qrup ölkə ziyalısı - 91 nəfər Heydər Əliyevə müraciət edərək hadisələrə müdaxilə etməsini, siyasi partiya yaradaraq vətənpərvər insanları ətrafında birləşdirməsini xahiş etdi.

Sonra isə Azərbaycan xalqı onun yenidən ölkə rəhbərliyinə qayıtmasını arzu və tələb etdi.

❖ ❖ ❖

Məşhur bir deyim var: qəhrəmanlıq zirvəni fəth etməkdə deyil, orada qərar tutmaqdadır.

Bəli, əgər əldə etdiyini qoruyub saxlaya bilmirsənsə, itirirsənsə, deməli, əslində ona yiyələnməmiş olursan, çünki əlin boşda qalır.

Yaxud qazandığına sahib çıxıb, onu artırıb inkişaf etdirmirsənsə, itirəcəksən, ovcun boş qalacaqdır.

Zirvədə dayanmaq isə hər kəsə nəsib olmur!

Bunun üçün təkcə bilik, bacarıq, təşkilatçılıq məharəti, zəngin təcrübə də azdır!

Gördüyün işlərlə xalqın məhəbbətini, etibar və etimadını da qazanmalısan!

Ulu Öndər Heydər Əliyev kimi!

Azərbaycan xalqı hələ Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə gördüyü işləri - xalqın həyat şəraitinin yüksəldilməsi, ölkədə abadlıq və quruculuq aparılması, təhsilin, elmin, mədəniyyətin inkişaf etdirilməsi, yeni kadrlar nəslinin yetişdirilməsi ilə bağlı addımlarını bəyənərək sevmişdir.

Həm də Ulu Öndərin xalqımızın ən böyük vətənpərvəri olduğunu görüb ona inanmışdı.

Odur ki, dövlətin ən çətin, ən ağır dövründə yenidən ona üz tutdu, ölkəni çıxılmaz durumdan çıxarmaq üçün yenidən ölkə rəhbərliyinə dəvət etdi!

Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra çox işlər gördü, çox məsələ və problemləri həll etdi.

Bu barədə bir qədər sonra ətraflı bəhs edəcəyik.

İkinci mühüm hadisə isə Azərbaycan tarixinə düşən və Azərbaycanı tarixdə yaşadan, qüdrətli dövlətə çevirən məsələ oldu.

Ulu Öndər Heydər Əliyev ikinci rəhbərliyi dövründə müstəqil Azərbaycanın davamlı, sürətli və daimi inkişafını təmin edən xalqın ehtiramla "Heydər Əliyev siyasi kursu" adlandırdığı inkişaf istiqamətlərini müəyyən etdi.

İkinci xidməti isə özünün yarıda qalan işlərini uğurla davam etdirə biləcək siyasi varisini hazırlaması oldu!

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyasını iqtidar partiyasına Ulu Öndər Heydər Əliyev çevirdi!

Seçkilər keçirməyə vaxt yox idi!

İtirilən hər gün, hər saat qiymətli sayılırdı!

Yeni Azərbaycan Partiyası müxalifdə olduğu tarixən qısa müddətdə demokratiya nümunəsi göstərdi.

Bu partiya heç zaman demokratik prinsipləri pozmadı, dağıdıcılıq törətmədi.

Hətta həmin dövrdə iqtidarda olan AXC-Müsavat cütlüyünün təzyiqlərinə, zora əsaslanan addımlarına belə zorakılıqla reaksiya vermədi.

Yeni Azərbaycan Partiyası öz fəaliyyətində daim milli maraqları rəhbər tutdu, hadisələrə partiya mənafeyindən yox, milli maraqlar baxımından yanaşdı.

Bütövlükdə ortaya bir siyasi mədəniyyət nümunəsi qoydu.

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyasının proqram və vəzifələri daim müstəqil Azərbaycan dövlətinin qarşısında duran vəzifələrlə üst-üstə düşüb.

Partiyamız öz vəzifələrinin icrasına çalışarkən, əslində, dövlətin öz məqsədlərinə çatmasına cəhdlər göstərmiş olub.

Xoşbəxtlikdən Yeni Azərbaycan Partiyasının hər iki sədri eyni zamanda xalqın böyük səs çoxluğu ilə dövlət başçısı seçilib və bu yüksək etimadı ləyaqətlə doğruldaraq uzun müddət Azərbaycana rəhbərlik ediblər.

Əslində, onların Prezident kimi gördükləri işlər həm də partiya rəhbəri kimi fəaliyyətlərinin bir hissəsini təşkil edib.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin və möhtərəm Prezident İlham Əliyevin Azərbaycana rəhbərlikləri dövründə gördükləri nəhəng işləri qısa şəkildə xatırladırıq.

❖ ❖ ❖

Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanı bir dövlət kimi məhvolmadan xilas etdi, müstəqilliyimizi əbədiliyə çevirdi.

Müharibə bölgəsində atəşkəsə nail oldu, qanunsuz silahlı dəstələri tərksilah etdirdi, xaos və anarxiyaya son qoydu, ölkədə möhkəm və dönməz sabitlik yaratdı.

Cənab İlham Əliyev prezidentliyinin ilk günlərindən Heydər Əliyev siyasi kursuna dönmədən əməl etdi, demokratik prinsiplərin bərqərar olmasına, vətəndaş cəmiyyətinin inkişafına, sabitliyin qorunub saxlanılmasına dəyərli töhfələr verdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın bütün dövrlərdə inkişafını təmin edən yeni neft strategiyası hazırladı. Beləliklə, əvvəlki iqtidarların heç birinin bacarmadığı bir işi reallaşdırdı.

20 sentyabr 1994-cü ildə dünyanın aparıcı dövlətlərinin iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" neft kontraktının imzalanması isə müstəqil Azərbaycanın iqtisadi yüksəlişinin təməlinə çevrildi. Ümummilli Liderimiz tərəfindən böyük müdriklik və uzaqgörənliklə hazırlanan bu strategiya neft amilindən məharətli istifadənin klassik nümunəsinə çevrildi. Bu strategiya iqtisadiyyatı dirçəltməklə yanaşı, Azərbaycanın dünyaya inteqrasiyasında, beynəlxalq əlaqələrinin yaranmasında, inkişafında və möhkəmlənməsində də mühüm rol oynadı.

Prezident İlham Əliyev isə inkişafın Azərbaycan modelini formalaşdırdı.

Dünyanın bir sıra dövlətlərinin yüksəlişini təmin etmiş inkişaf modelləri çoxdur. Azərbaycan onların heç birini götürərək mexaniki şəkildə tətbiq etmədi. Qabaqcıl ölkələrin təcrübəsini öyrənməklə öz tarixi ənənələrinə, yerli imkanlarına və xüsusiyyətlərinə uyğun gələn yeni, daha müasir model hazırladı. Bu model cənab İlham Əliyevin "Düşünülmüş, sürətli və davamlı" inkişaf konsepsiyasına əsaslanır. Qısa dövr ərzində inkişafın Azərbaycan modeli özünü doğrultdu. Ölkəmiz neçə illərdir ki, ümumi daxili məhsul istehsalının artım tempinə görə dünya birincisidir. Başqa bir maraqlı məqam. Son illər dünyanı bürüyən maliyyə və iqtisadi böhran inkişafın Azərbaycan modeli üçün əsl sınaq oldu. Həm də uğurlu sınaq. Böhran ölkə iqtisadiyyatına ciddi ziyan vurmayaraq yan ötüşdü. Ən ürəkaçan məqamlardan biri isə budur ki, düşünülmüş, sürətli və davamlı inkişaf yoluna düşən Azərbaycan MDB məkanında birinci olaraq iqtisadi sahədə keçid dövrünü başa çatdırmışdır.

Heydər Əliyevin gəlişindən və "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənəcəyini görən düşmən qüvvələr yenidən "köhnə ssenarilər"ə əl atdılar. Bir neçə terror aktı törədildi. Əvvəlcə 4 oktyabr 1994-cü ildə, sonra isə 13-18 mart 1995-ci ildə dövlət çevrilişinə cəhdlər oldu. Xalqın sonsuz inam və məhəbbətinə, güclü dəstəyinə arxalanan Ulu Öndər Heydər Əliyev dəyanət və qorxmazlıq nümunəsi göstərməklə hər iki cəhdin qarşısını qətiyyətlə aldı. Beləliklə, Azərbaycanı az qala banan respublikasına çevirəcək mənfur bir ənənəyə son qoydu.

Prezident İlham Əliyev müstəqil Azərbaycanda yeni eranın başlandığını və zorakılıqla hakimiyyətə gəlmək dövrünün artıq arxada qaldığını 2003-cü ilin 15 və 16 oktyabr günlərində bir daha sübut etdi.

Aqressiv və dağıdıcı müxalifət antiazərbaycançı şəbəkənin muzdu və diktəsi əsasında 2003-cü ilin prezident seçkilərini tanımamaq və zorla hakimiyyəti ələ almaq üçün seçkilərin nəticələri elan edildikdən dərhal sonra hərəkətə keçdi. Bir neçə xarici ölkənin səfirliyi aqressiv müxalifətin özbaşınalığını və zorakılığını idarə edən və onların nümayəndələri üçün sığınacaq rolunu oynayan məntəqəyə çevrilmişdi. Heydər Əliyev siyasi kursuna səs verdiyini bəyan edən Azərbaycan xalqı dağıdıcılıq əməllərinin genişlənməsinə imkan vermədi. Prezident İlham Əliyev isə qətiyyət və əzmkarlıq göstərərək Azərbaycanda hakimiyyətə yalnız seçkilər yolu ilə, xalqın dəstəyini qazanmaqla gəlməyin mümkünlüyünü bəyan etdi.

Ümummilli Lider Heydər Əliyev qısa müddətdə döyüşkən ordu yarada bildi. Vaxtilə Ulu Öndərin təşkil etdiyi C.Naxçıvanski adına Hərbi Təmayüllü Liseyi bitirənlər və SSRİ-nin hərbi məktəblərində təhsil alaraq zabit rütbəsində ayrı-ayrı hərbi hissələrdə xidmət edən zabitlər kara gəldilər. Ulu Öndər Heydər Əliyevin çağırışı ilə orduya gələn yeni qüvvələr Horadizdə və Kəlbəcər istiqamətində düşmənə güclü zərbələr endirdilər. Güclü ordu yaradıldığını görən ermənilər atəşkəs müqaviləsini imzalamağa məcbur oldular. Beləliklə, yeni ərazilərin işğalının qarşısı alındı. Eyni zamanda ordu quruculuğu prosesi uğurla və səriştəli şəkildə davam etdirildi. Vahid komandanlığa tabe olan və bir mərkəzdən idarə edilən ordu strukturu yaradıldı, müasir bilik və vərdişlərə yiyələnmiş zabitlərin hazırlığı üçün yeni təhsil müəssisələri təşkil edildi, hərbi sahədə əməkdaşlığa dair yeni əlaqələr quruldu. Beləliklə, torpaqlarımızı müdafiəyə qadir yeni və müasir ordu formalaşdırıldı.

Prezident İlham Əliyev müasir dünya təcrübəsinə arxalanaraq milli ordumuzun yeniləşdirilməsini, ən yeni silahlarla təchizini və modernləşdirilməsini, beləliklə, Cənubi Qafqazın ən güclü ordusuna çevrilməsini təmin etdi.

Maddi-texniki təchizatı durmadan yüksəldilən, NATO sisteminə keçirilən, döyüş qabiliyyətini daim artıran ordu dünyanın qaynar nöqtələrində sülhyaratma missiyasında müntəzəm və yaxından iştirak edir, üzərinə qoyulan tapşırıqların öhdəsindən məharətlə gəlir. Dövlət başçısı hər il silahlı qüvvələrin birgə təlimində Ali Baş Komandan kimi şəxsən iştirak edir, ilboyu hərbi hissələri gəzir, vəziyyətlə yerində tanış olur, sərhəd bölgələrindəki səngərlərə baş çəkir, əsgərlərlə nahar edir, onları mükafatlandırır. Cənab İlham Əliyev verdiyi vədə əməl edərək hər il ordunun ehtiyaclarına Ermənistanın bütün büdcəsindən daha çox vəsait ayırır. Müdafiə sənayesinin yaradılması, bir sıra silah və sursatın Azərbaycanda hazırlanması ordunun döyüş qabiliyyətinin artırılmasına dəyərli töhfədir.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın bazar iqtisadiyyatı prinsiplərinə keçidinə nail oldu. Bundan ötrü mərhələlər üzrə ardıcıllıqla xeyli iş görüldü.

İlk növbədə, xüsusi mülkiyyətin mövcudluğuna yol açan, insanların sərbəst və maneəsiz istehsal fəaliyyəti ilə məşğul olmasına geniş imkan yaradan qanunçuluq bazası formalaşdırıldı. Sonra özəlləşdirmə proqramları uğurla həyata keçirilərək bir sıra müəssisələr dövlətsizləşdirildi. Aqrar islahatlar keçirilərək torpaq əsl sahibinə qaytarıldı. Ölkədə azad sahibkarlığın inkişafına sərait yaradan və təşviq edən mühit yaradıldı. Bazar iqtisadiyyatı prinsiplərinin işləməsinə əlverişli şərait yaradan yeni qurum və təsisatlar təşkil olundu. Beləliklə, istehsal vasitələri üzərində ümumi mülkiyyətə əsaslanan sosializmdən imtina edilərək bazar iqtisadiyyatına keçid tam reallaşdırıldı.

Prezident İlham Əliyev iqtisadi sahədə keçid dövrünün başa çatdığını bəyan etdi.

Azərbaycan hələlik MDB məkanında yeganə ölkədir ki, bu çətin vəzifənin öhdəsindən qısa zamanda gəlməyə nail olub.

Cənab İlham Əliyevin müəllifi olduğu "Düşünülmüş, sürətli və davamlı inkişaf" konsepsiyası qazanılan uğurun təminatçısıdır. Ölkə rəhbərliyinə başladığı ilk günlərdən yaradılmış təməl üzərində istehsalın artım sürətini yüksəldən dövlət başçısı Azərbaycanı ÜDM-nin artım tempinə görə dünya liderləri sırasına çıxarmışdır. Artıq ölkəmizdə güclü iqtisadi potensial formalaşdırılmış, Azərbaycan özünü tam təmin edən ölkəyə çevrilmişdir. İqtisadiyyatın strukturu müsbətə doğru dəyişmiş, çoxşaxəli iqtisadiyyata çevrilmiş, qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmişdir.

Ulu Öndər Heydər Əliyev azərbaycanlı gənclərin SSRİ-nin ali məktəblərində təhsil almalarına xüsusi fikir verirdi.

Ölkənin gələcəyi, cəmiyyətin sabahı bugünkü gənclərdən asılıdır. Dərin biliklərə yiyələnmiş, müasir dünyagörüşlü, vətənpərvər və bacarıqlı gənclərin tərbiyəsi Ümummilli Liderimizi daim düşündürmüşdür. Heydər Əliyev Azərbaycana birinci rəhbərliyinin hələ ilk dövrlərindən etibarən vətən övladlarının dövlət hesabına keçmiş SSRİ-nin ayrı-ayrı şəhərlərində nadir və gərəkli ixtisaslar üzrə təhsil almalarına şərait yaratmışdı. Şəxsi nüfuzundan istifadə edən Ulu Öndər ilbəil daha çox gəncin başqa şəhərlərə təhsil almağa göndərilməsinə nail olurdu. Həm də onlarla şəxsən görüşər, tövsiyə və fikirlərini çatdırardı. Moskvaya hər rəsmi səfərində, sonralar isə orada işləyərkən tələbə-gənclərlə görüşər, problemlərini həll edərdi. Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra Heydər Əliyevin oxutdurduğu və müxtəlif ixtisaslara yiyələnmiş gənclər xeyli kara gəldilər. Bu gün də onlar inkişaf və quruculuq proseslərində fəallıq göstərirlər.

Prezident İlham Əliyev bu gün ölkə gənclərini dünyanın inkişaf etmiş ölkələrində oxudur.

Azərbaycanın dünyaya getdikcə daha sıx inteqrasiya etdiyi bir vaxtda müasir düşüncə və təfəkkür tərzinə malik mütəxəssislərin yetişdirilməsi vacib məsələdir.

Bu, ölkəmizin bu günü üçün deyil, gələcək inkişafın davamlılığı sarıdan da vacibdir. Cənab İlham Əliyevin imzaladığı dövlət proqramına əsasən, təkcə 2007-2015-ci illər ərzində 5 min azərbaycanlı gənc dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl təhsil ocaqlarında prioritet ixtisaslar üzrə dövlət hesabına oxumuşdur.

Ulu Öndər Heydər Əliyev mətbuat və söz azadlığını daim diqqət mərkəzində saxlayırdı. O, daim jurnalistlərlə görüşər, onların bütün suallarını cavablandırar, təklif və müraciətlərinə həssaslıqla yanaşardı.

Heydər Əliyev dəfələrlə jurnalistləri əfv edərək vaxtından qabaq həbsxanadan qurtardı, dövlət məmurlarının qəzetlərlə bağlı məhkəməyə müraciətlərini geri götürdü, bir sıra mətbu orqanın mətbəələrə olan borcunu dondurdu, qəzetləri ƏDV-dən azad etdi. Ən önəmlisi isə, 6 avqust 1998-ci ildə mətbuata senzura nəzarətini ləğv edərək KİV-in mənəvi intibahını yaratdı.

Prezident İlham Əliyev milli mətbuatın inkişafına xüsusi qayğı göstərir. O, qəzetlərin mətbəəyə borclarını bağışlamış, dəfələrlə redaksiyalara böyük məbləğdə maddi yardım göstərmiş, jurnalistləri fəxri adlar, dövlət mükafatları ilə təltif etmişdir. 2009-cu ildə müvafiq sərəncam imzalayaraq KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu yaratdı və beləliklə, mətbuatın maddi intibahının əsasını qoydu. Bütün bunlara görə "Jurnalistlərin dostu" adına layiq görüldü.

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyası 30 illik yubileyinə alnıaçıq, üzüağ gəlir.

Partiyamızın Sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində möhtəşəm zəfər qazanaraq xalqımızın ən müqəddəs arzusunu həyata keçirdi. "Dəmir yumruğ"u ilə düşmənin başını əzərək qarşısında diz çökdürdü, kapitulyasiya aktına qol çəkdirdi.

Beləliklə, ikiəsrlik Qarabağ münaqişəsinə Azərbaycanın möhtəşəm qələbəsi ilə son qoydu.

Bu gün isə Qarabağın və Şərqi Zəngəzurun cənnətə çevrilməsi prosesi uğurla davam edir.

Böyük qayıdışa sürətli hazırlıq görülür.

Bəli, Azərbaycan bütün uğur və nailiyyətlərə məhz Yeni Azərbaycan Partiyasının iqtidarı dövründə nail olmuşdur.

**Bəxtiyar SADIQOV**

1992 2022

## YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

30



# Xalqın birlik rəmzi

**30 il əvvəl - 1992-ci il noyabrın 21-də yenicə müstəqilliyini bərpa edən Azərbaycanda əlamətdar tarixi hadisə baş verdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirildi. Bu, gənc dövlətimiz üçün bir dönüş nöqtəsi idi.**

**Müstəqillik qazanılan o dövrün ilk illəri çox ağır, təlatümlü, təhlükəli olması ilə diqqət çəkirdi. Belə bir taleyüklü şəraitdə həmin dövrün mövcud iqtidarı müstəqilliyi qoruyub möhkəmləndirmək gücündə deyildi. Azərbaycan həmçinin Ermənistanın işğalçılıq siyasətinə qarşı apardığı mübarizədə uduzurdu.**

Bütün bunların nəticəsində cəmiyyət sarsıntı içində idi. Xalq sabah nə baş verəcəyini bilmirdi. Xüsusilə 1992-ci ilin mayında Şuşa və Laçının işğala məruz qalması, eyni zamanda həmin faciəli hadisələrdən az sonra hakimiyyətə gələn yeni iqtidarın ölkəni idarə etmək gücündə olmaması mövcud şəraiti daha da ağırlaşdırmış, müstəqilliyimizin itirilmək təhlükəsi yaranmışdı. Bir sözlə, gənc ölkədə bir tərəfdən yaşanan siyasi böhran, sabitsizlik, iqtisadi tənəzzül müstəqilliyimizin möhkəmlənməsinə sədd çəkir, digər tərəfdən erməni faşizminin hücumlarını genişləndirməsini şərtləndirirdi. Belə bir şəraitdə cəmiyyətimizdə böyük nüfuz sahibi olan ziyalılar, ictimai-siyasi xadimlər Ulu Öndər Heydər Əliyevin ətrafında birləşərək YAP-ın yaradılması haqqında qərar verdilər və bu, heç də təsadüfi deyildi. Heydər Əliyevin siyasi təcrübəsi, biliyi, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə isə əsl vətənpərvərlik və xalqa sadiqlik nümayiş etdirməsi Azərbaycanın mütərəqqi düşüncəli insanlarının onun ətrafında sıx birləşməsi zərurəti yaradırdı. Burada, şübhəsiz ki, Ulu Öndərin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər də xüsusi önəm daşıyırdı.

Yeri gəlmişkən, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dönəmində respublikamız keçmiş Sovet İttifaqında bütün göstəricilərə görə öndə olmuşdu. Üstəlik, Heydər Əliyevin qətiyyəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizə aparması bu dahi şəxsiyyətə xalq sevgisi qazandırmışdı.

Digər mühüm amil isə Heydər Əliyevin Naxçıvan dövrü ilə bağlı idi. Müstəqilliyin ilk illərində Naxçıvan həm Ermənistanın, həm də ovaxtkı Azərbaycan rəhbərliyinin əsassız hücumlarına, təqiblərinə məruz qalmışdı. Muxtar respublika blokada şəraitində yaşayırdı. Belə bir gərgin mühitdə - sosial problemlərin məngənəsində əhali Heydər Əliyevin rəhbərliyi altında bütün çətinliklərə sinə gərdi. Digər tərəfdən, erməni faşizmi muxtar respublikada öz istəklərinə nail ola bilmədi. Halbuki Qarabağdan sonra onların növbəti hədəfi Naxçıvan idi. Buna baxmayaraq, dahi şəxsiyyətin rəhbərliyi ilə əhali Naxçıvanı qoruya bildi, düşməni yerinə oturtmağa nail oldu.

Burada onu da qeyd edək ki, o zaman Naxçıvan erməni məkri, Azərbaycan rəhbərliyinin ögey münasibəti nəticəsində blokada vəziyyətinə düşmüşdü. Belə bir vaxtda - 1990-cı ilin iyul ayında xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlməsi muxtar respublikanı başı üzərini almış təhlükədən, erməni işğalından xilas etdi. Ulu Öndər yaxşı bilirdi ki, ermənilərin göz dikdiyi, blokadada saxladığı Naxçıvanın qorunub saxlanması Azərbaycan dövlətçiliyi, bütövlükdə türk dünyası üçün mühüm önəm daşıyır. Bu barədə Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Demək olar ki, ölkəmizin müstəqilliyinin bünövrəsi məhz o illərdə qoyulmuşdur. 1990-cı ildə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi".

Həmin dövrdə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" və "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərarlar xalqımızın müstəqillik və milli dövlətçilik yolunda qəbul edilən ilk rəsmi sənədlər idi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının Naxçıvan MR-in Dövlət Bayrağı kimi təsis olunması və Azərbaycanın ali hakimiyyət orqanları qarşısında dövlət rəmzləri haqqında qərar qəbul edilməsi vəsatətinin qaldırılması da dahi şəxsiyyətin uzaqgörən, müdrik siyasətindən irəli gəlirdi.

Ümummilli Lider tərəfindən hazırlanan və qəbul edilən "1990-ci ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar da ilk dəfə qanlı Yanvar hadisələrinə düzgün siyasi qiymət verilməsinin bariz nümunəsi idi. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən həmin dövrdə qəbul edilən 1991-ci il 16 dekabr tarixli "31 Dekabr Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" qərarın da əhəmiyyəti bugünkü reallıqlar fonunda misilsizdir.

Ulu Öndərin rəhbərliyi ilə irəli sürülən ideyalar və bu istiqamətdə Naxçıvanda qəbul edilən qərarlar Azərbaycan ictimaiyyəti tərəfindən yekdilliklə dəstəklənirdi. Məhz respublika ictimaiyyətinin təsiri nəticəsində az sonra Azərbaycan rəhbərliyi də bəzi addımlar atmalı oldu. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin vaxtilə qəbul etdiyi üçrəngli bayraq Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi təsdiqləndi.

YAP təsis edildiyi ilk günlərdən Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, xalqın rifahının yaxşılaşmasına və torpaqlarımızın erməni faşizminin tapdağından azad edilməsi ilə Vətənin bütövlüyünün bərpasına taleyüklü vəzifə kimi yanaşdı. Bu hədəflərə çatmaq üçün isə partiya fəaliyyətinin ilk mərhələsində bütün gücünü Azərbaycanda siyasi sabitliyin bərpasına yönəltdi. Xalqın tələbi ilə hakimiyyətə gələn Ulu Öndər qısa müddət ərzində vəziyyəti normallaşdırdı və bu, ölkəmizin inkişaf yoluna qədəm qoymasına hərtərəfli şərait yaratdı. Ən əsası, Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, xalqın getdikcə ağırlaşan sosial durumunun yaxşılaşdırılması istiqamətində əsaslı tədbirlər həyata keçirildi, dövrün tələbinə uyğun davamlı islahatlar gerçəkləşdirildi, iqtisadi müstəqilliyimizin əsası qoyuldu. Bütün bunlarla bərabər, erməni işğalçılarının hücümlarının qarşısını almaq, ordumuzu qurmaq və möhkəmləndirmək üçün tədbirlər görüldü.

YAP bütün fəaliyyətində Azərbaycanın dünya birliyinə inteqrasiyasını diqqət mərkəzində saxlayıb. Ölkəmizin siyasi, sosial-iqtisadi inkişafına xidmət göstərən islahatların dərinləşdirilməsinə hər zaman üstünlük verib. Bununla bərabər, Ümummilli Liderin müdrik siyasəti əsasında qəbul edilən konkret və dəqiq proqramlar ilə Azərbaycanın uğurlu inkişafını gerçəkləşdirib.

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti, 2005-ci ilin martında partiyanın III Qurultayında isə YAP-ın Sədri seçilən İlham Əliyev ona bəslənilən bütün ümidləri ötən müddətdə müdrik fəaliyyəti ilə ən mükəmməl şəkildə doğrultdu, Heydər Əliyevin layiqli varisi olduğunu sübuta yetirdi. Prezident İlham Əliyevin liderliyi ilə ölkəmiz böyük uğurlar əldə etdi.

Azərbaycan ötən illər ərzində böyük infrastruktur layihələri həyata keçirməklə, biznes mühitini yaxşılaşdırmaqla, xarici investorları cəlb etməklə iqtisadi sahədə böyük uğurlar qazanıb. Bunun nəticəsində dünya miqyasında iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkə kimi tanınıb. Siyasi sabitlik baxımından respublikamız bir çox ölkələr üçün örnəyə, nümunəyə çevrilib.

Burada bir məsələni də vurğulamaq istərdim. YAP yaranan vaxt müxalifət partiyası kimi fəaliyyətə başlamışdı. Ancaq heç vaxt öz dövlətinə, xalqına müxalifətdə olmamış, dövlətə, dövlətçiliyə daim sədaqət nümayiş etdirmiş, Ulu Öndərin müdrikliyi, cəmiyyətdəki böyük nüfuzu sayəsində qısa müddət ərzində ümumxalq partiyası kimi cəmiyyətin hərəkətverici qüvvəsinə çevrilmişdir. Cəmiyyətin bütün təbəqələrini, bütün yaş qruplarını sıx birləşdirən partiya, sözün əsl mənasında, ümumxalq partiyası kimi böyük nüfuz qazanmış və Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi kimi qəbul olunmuşdur.

Məlum olduğu kimi, Azərbaycan torpaqlarımızın işğaldan azad edilməsi üçün ilk gündən sülh danışıqlarına üstünlük vermişdir. Birinci Qarabağ müharibəsində ərazisinin 20 faizini itirən ölkəmiz BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan dörd qətnaməsinin icrası üçün müxtəlif beynəlxalq qurumlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar aparmışdır. Lakin Azərbaycanın bu sülh təşəbbüsləri 2018-ci ildə Ermənistanda inqilab nəticəsində hakimiyyətə gələn Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyanatları və Azərbaycanın işğal olunmuş ərazilərində təxribatçı hərəkətləri ilə başa çatdı. Ermənistanın ardıcıl təxribatları və "Yeni torpaqlar uğrunda yeni müharibə" çağırışı ordumuzun 2020-ci il sentyabrın 27-də başladığı 44 günlük əks-hücum əməliyyatları nəticəsində işğal altında olan ərazilərimiz düşməndən təmizləndi. Bununla da Azərbaycan Qarabağ münaqişəsinin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirdi.

Bu uğuru şərtləndirən amillər haqqında danışarkən qeyd edək ki, 30 illik işğal dövründə ölkəmizin hərbi qüdrətinin mükəmməlləşməsi üçün çox iş görülmüşdür. Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu ordumuz dahi şəxsiyyətin layiqli varisi Prezident İlham Əliyev tərəfindən modernləşdirilən Silahlı Qüvvələrə çevrilmişdir. Dövlət başçısı təmkinlə diplomatik sahədə təxirəsalınmaz tədbirlər reallaşdırmış, beynəlxalq tribunalardan Qarabağ həqiqətlərini dünyaya bəyan etmiş, aparıcı dövlətlərin rəhbərlərinin diqqətinə bu bölgənin ölkəmizin əzəli torpağı olduğunu çatdırmışdır.

İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun dünyada hərbi əməliyyatların planlaşdırılmasının, həyata keçirilməsinin və yekunlaşdırılmasının yeni texnologiyalara əsaslanan ilk praktik nümunəsini bütün dünyaya göstərdi. Bu savaş xalqımızın mətin iradəyə malik olduğunu, milli ideya ətrafında sıx birləşmək gücünü və işğala boyun əyməmək əzmini təsdiqlədi. Dövlət-xalq-ordu birliyi zəfərin əldə olunmasını şərtləndirdi. Prezident İlham Əliyev diplomatik məharəti və yenilməz sərkərdəlik qabiliyyəti ilə əsl lider olduğunu bir daha təsdiq etdi.

Ermənilərin Cənubi Qafqaza köçürülməsindən və torpaqlarımızda kompakt yaşamağa başladığı vaxtdan keçən təxminən 200 illik bir dövrdə ərsəyə gətirdikləri və "dənizdən-dənizə böyük Ermənistan" kimi mifik təsəvvürlərə əsaslanan xəstə milli ideyası Vətən müharibəsində darmadağın oldu. Artıq həmin tarixi hadisədən iki il ötür. Bu müddətdə ölkəmiz siyasi şərtləri diktə edir, bölgədə yeni təhlükəsizlik və əməkdaşlıq formatı yaradır. Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda erməni faşizminin xaraba qoyduğu yaşayış sahələrinə yeni həyat gətirir, məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətli dönüşünü, bu torpaqların reinteqrasiyasını təmin etmək üçün genişmiqyaslı layihələr reallaşdırır.

Təbii ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın öz şanlı qələbəsi ilə regionda yeni reallıqlar yaratması Yeni Azərbaycan Partiyasının həyatında da öz sözünü dedi. 2020-ci il martın 5-də növbədənkənar VII qurultayın keçirilməsi ilə partiyanın həyatında yeni mərhələ başlandı. Qurultayda qəbul edilmiş qərar əsasında Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsi, 40 nəfər tərkibdə İdarə Heyəti, 13 nəfərdən ibarət Təftiş Komissiyası və yeni qurum olaraq Veteranlar Şurası və yeni tərkibli Gənclər Birliyi formalaşdırıldı.

Qurultayın keçirilməsi ölkəmizin ictimai-siyasi həyatında çox mühüm hadisə oldu. Prezident İlham Əliyevin qurultaydakı çıxışında səsləndirdiyi "Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq" fikri bunun bariz ifadəsidir.

6 siyasi partiyanın YAP-a qoşulması bu təşkilatın siyasi mövqeyinin daha da güclənməsinə xidmət edən uğurlu bir addım oldu. Bu, YAP-ın ideoloji prinsiplərinin milli həmrəyliyə və inkişafa xidmət göstərdiyini bir daha təsdiqləyir. Digər tərəfdən, bu birləşmə ölkəmizdə demokratik ənənələrin inkişafından xəbər verir. Bu fakt həmçinin milli həmrəyliyimizin və birliyimizin nümunəsidir.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Prezidentinin tapşırığına əsasən, Prezident Administrasiyasının nümayəndələri tərəfindən 2020-ci il fevral ayından etibarən üzvlərinin sayından, siyasi çəkisindən və hər hansı digər amildən asılı olmayaraq ölkədəki bütün siyasi partiya rəhbərləri ilə görüşlərin keçirilməsi ənənəsi formalaşdırılıb. Belə görüşlərin nəticəsində qərargahı olmayan 25 siyasi partiya üçün müvafiq yerlər ayrılıb, bir sıra partiyaların vaxtı ötürülmüş qurultaylarının keçirilməsi istiqamətində tədbirlər görülüb, konkret desək, 32 siyasi partiya qurultayını keçirib və nəticələri dövlət qeydiyyatına alınmaqla fəaliyyətlərində legitimlik təmin edilib. Həmçinin uzun fasilədən sonra 11 yeni siyasi partiyanın dövlət qeydiyyatına alınması təmin edilib.

Bütün bunlar təsdiqləyir ki, siyasi konfiqurasiyanın yeni modeli özünü təsdiq edib. Ölkədə fəaliyyət göstərən siyasi partiyalar ümummilli məsələlərdə vahid mövqedən çıxış edirlər. Biz bunu 44 günlük Vətən müharibəsində də gördük. Partiyaların birgə bəyanat imzalayaraq Ali Baş Komandana və Azərbaycan Ordusuna dəstək nümayiş etdirmələri mühüm siyasi hadisə idi.

Ölkəmizdə siyasi münasibətlərin inkişafında hakim Yeni Azərbaycan Partiyasının rolu xüsusi vurğulanmalıdır. YAP fəaliyyət göstərdiyi dövr ərzində hər zaman ölkədə siyasi qüvvələrin sağlam əlaqələrinin qurulması, ümummilli məsələlərdə vahid mövqedən çıxış edilməsinin təşəbbüskarı olmuşdur. YAP ölkəmizdə çox ağır və mürəkkəb siyasi proseslər zamanı tarixi zərurətdən yaranmış bir partiya olaraq qısa zamanda xalq arasında böyük nüfuz qazanmışdır. Çünki hər zaman öz fəaliyyətində ümummilli maraqları öndə tutmuşdur.

Qurultaydan kecən müddət ərzində partiyanın institusional əsaslarının güclənməsi və hüquqi bazasının möhkəmlənməsi istiqamətində mühüm işlər görülüb. Yeni nizamnaməyə uyğun partiyanın yerli təşkilatları formalaşdırılıb. Partiyanın 5 fəsildən ibarət olan yeni proqramında yeni reallıqlar yaradan Azərbaycanın qarşısında dayanan mühüm hədəflər əksini tapıb.

Proqramda YAP-ın siyasi dəyərlər və prinsiplər sistemində Heydər Əliyev yolu, Müstəqillik, Azərbaycançılıq, Dövlətçilik, Qanunun aliliyi, Varislik və təkamül, Konstruktiv əməkdaşlıq və dialoq, Sosial ədalət və insan amili, Multikultural cəmiyyət, Demokratik ənənələrin inkişafı kimi 10 strateji istiqamət müəyyən olunub.

*VII qurultayda qəbul olunmuş qərarlar hakim partiyanın "iqtidar-xalq" modelinin real işə düşdüyünü, milli həmrəyliyin yeni inkişaf mərhələsinə yüksəldiyini nümayiş etdirdi. Partiyamız bundan sonra da üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcək və Prezident İlham Əliyevin liderliyi ilə yeni-yeni qələbələrə imza atacaq!*

***Sevinc HÜSEYNOVA,***
***Milli Məclisin deputatı,***
***YAP Təftiş Komissiyasının sədri***

1992 2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

30



# Müxalifətdən hakim partiyaya təbrik:

## *Yeni Azərbaycan Partiyasının liderləri tariximizin həlledici məqamlarında üzərlərinə götürdükləri missiyaların öhdəsindən layiqincə gəliblər*







**Yeni Azərbaycan Partiyasının təsis olunmasından 30 il ötür. YAP 30 illik yubileyini nəinki Azərbaycanın, bütün Cənubi Qafqazın ən güclü siyasi təşkilatı kimi qarşılayır.**

**Mövzu ilə bağlı qəzetimizə danışan siyasi partiyaların rəhbərləri də Yeni Azərbaycan Partiyasının xalqımızın müstəqil dövlətçilik ənənələrinin qorunub saxlanmasındakı və ölkəmizin siyasi həyatındakı rolundan bəhs ediblər.**

### 30 illik şərəfli yol

Milli Məclisin deputatı, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev bildirdi ki, Yeni Azərbaycan Partiyasının 30 illik dövrü, partiyanın həyata keçirdiyi uğurlu siyasət göz qabağındadır: "Məhz bu partiyanın iqtidarı dövründə, partiyanın Sədri Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Qarabağ və Şərqi Zəngəzur düşmən işğalından azad edildi. Həmin günlərdə İlham Əliyev bütün millətin liderinə çevrildi, dünya azərbaycanlılarını vahid məqsəd uğrunda birləşdirdi və beləliklə, Azərbaycan dövlətinin qarşısında duran ən başlıca vəzifələri yerinə yetirdi. İlham Əliyev bu tarixi uğura imza atarkən ölkədəki siyasi partiyaların da dəstəyini qazanmağı bacarıb. 44 günlük Vətən müharibəsi dövründə əksər müxalif partiyalar Ali Baş Komandanımıza və rəşadətli ordumuza birmənalı dəstək nümayiş etdirirdi".

Partiya sədri dedi: "Etiraf etməliyik ki, YAP öz adını tarixə yazmağı bacarıb. Azərbaycanın müstəqillik dövrünün böyük hissəsi YAP-ın adı ilə bağlıdır. Bu illərdə xeyli uğurlar qazanılıb, ölkəmizin ərazi bütövlüyü təmin edilib. İqtidar partiyasını, rəhbərlik və bütün üzvlərini yubiley münasibətilə təbrik edir və Azərbaycanın yüksək rifahı naminə nailiyyətlər arzulayıram".

### YAP ölkənin aparıcı siyasi partiyasıdır

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə qeyd edib ki, Yeni Azərbaycan Partiyasının qurucu lideri Heydər Əliyev və Prezident İlham Əliyev tariximizin həlledici məqamlarında üzərlərinə götürdükləri missiyaların öhdəsindən layiqincə gəliblər. "Bu partiyanın yarandığı dövr olduqca təlatümlü olub. Həmin vaxtda Azərbaycan müstəqilliyini yenicə bərpa etmiş və dərhal düşmən təcavüzü ilə üz-üzə qalmışdı. Həmçinin Azərbaycanda bir sıra dövlətlərin iqtisadi və siyasi maraqları toqquşurdu, regionda, Azərbaycanın müstəqilliyini qəbul etməyənlər var idi. Bütün bu güclərlə üz-üzə dayanmaq, eyni zamanda ölkə daxilindəki ziddiyyətli problemləri həll etmək olduqca ciddi fəaliyyət tələb edirdi. Həmin dövrdə yeni partiyalar təsis edilməyə başlanılırdı, ölkə çoxpartiyalı sistemə keçid edirdi. Rəqabət mühitində ayaqda qala bilmək, müstəqilliyimizi qoruyub saxlamaq uğrunda mübarizəyə qalxmaq bütün partiyaların üzərinə böyük məsuliyyət qoyurdu. YAP yarandığı vaxtdan nəinki rəqabətə davam gətirdi, eyni zamanda ətrafında ölkənin bir sıra ictimai-siyasi xadimlərini, aparıcı ziyalılarını toplayaraq təxminən bir il ərzində hakimiyyətə gəlməyi bacardı", - deyə A.Əlizadə bildirib.

Partiya sədri deyib ki, YAP artıq 30 ildir ki, Azərbaycanın hakim və aparıcı partiyası kimi fəaliyyət göstərir: "Ötən dövr ərzində dövlətçiliyimizin qorunması, Azərbaycanın siyasi və iqtisadi gücünün artırılması və regionun əsas aparıcı dövlətinə çevrilməsi hakim partiyanın uğurlarından xəbər verir. Ölkədəki bütün siyasi partiyaların dövlət və milli maraqların kəsişdiyi nöqtədə eyni mövqedən çıxış etməsi ölkəmizin regionun aparıcı dövlətlərindən birinə çevrilməsində həlledici amildir. Bu mənada hakim partiya olaraq Yeni Azərbaycan Partiyasının üzərinə çox böyük məsuliyyət düşür. Ona görə də rəqib partiya olmağımıza baxmayaraq, 30 illik yubileyində YAP-a böyük uğurlar arzu edirik".

### Müasir dövlətçiliyimizin siyasi sütunu

Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov qeyd edib ki, tarix müstəqil Azərbaycanla az qala yaşıd sayılan Yeni Azərbaycan Partiyasının üzərinə sanki xüsusi bir missiya - dövlətçiliyimizin möhkəmləndirilməsi və qorunub saxlanması missiyasını qoyub: "Mən YAP-ın yaxın 30 ildəki fəaliyyətinə ilk növbədə məhz bu aspektdən yanaşmağı və qiymətləndirməyi təklif edərdim. Dövlət yaratmaq olduqca çətin və məşəqqətli prosesdir. Dövlət qurmaq bəzilərinin təsəvvür etdiyi kimi heç də üç-beş nəfərin yığışıb sadəcə bəyannamə oxuması ilə və ya ad elan etməsilə olmur. Bunun üçün ortada ilk növbədə bir toplumun fərdlərinin iradəsilə formalaşmış siyasi qüvvələr, siyasi institutlar və siyasi iradə mövcud olmalıdır. Siyasi institutların ən önəmli elementi isə siyasi partiyalardır. İstənilən dövlətin taleyində siyasi partiyalar həlledici rol oynayır. Bu mənada YAP da müasir Azərbaycan dövlətçiliyinin strateji sütunlarından biri sayılır. Bu partiya yarandığı ilk günlərdən gənc Azərbaycan dövlətini üzləşdiyi ağır böhrandan xilas etmək missiyasını öz üzərinə götürməli olub".

Ə.Hüseynov deyib ki, YAP ölkəmizin ən uzunömürlü siyasi institutlarından biri kimi daim dövlət marağına uyğun fəaliyyət göstərib, Azərbaycanın daxili və xarici siyasətinin həyata keçirilməsində yaxından iştirak edib: "YAP-ın tarixi müstəqil Azərbaycanın tarixi ilə paralel şəkildə təşəkkül tapıb. Partiyanın yarandığı dövrdə Azərbaycanda dərin siyasi və iqtisadi böhranın hökm sürməsi faktı hamıya məlumdur. Həmin dövrdə bir tərəfdən Ermənistanın hərbi təcavüzü və işğalçılığı nəticəsində ölkəmiz ağır humanitar fəlakətlə üz-üzə qalmışdı, digər tərəfdən isə Azərbaycanda sözün tam mənasında siyasi xaos, anarxiya və hərc-mərclik hökm sürürdü. YAP və onun böyük lideri Heydər Əliyev məhz belə bir məqamda Azərbaycanın gələcək taleyini müəyyən edən mühüm qərarları ilə ən yeni tariximizdə dərin iz buraxıblar".

Partiya sədrinin sözlərinə görə, YAP-ın uğurlarının ikinci mərhələsi Azərbaycanın inkişaf və yüksəliş mərhələsidir ki, bu da bilavasitə Prezident İlham Əliyevin adıyla bağlıdır. İlham Əliyev hakim partiyanın sıravi üzvlüyündən tutmuş liderlik zirvəsinə qədər uzun bir yol keçib. "Yeni Azərbaycan Partiyasının Sədri və dövlətimizin başçısı İlham Əliyev "Müasir, qüdrətli və zəngin Azərbaycan naminə" şüarı ilə yola çıxaraq Heydər Əliyevin siyasi kursunu yeni tarixi şəraitə uyğun formada davam etdirdi və Azərbaycanın iqtisadi sahədə böyük nailiyyətlər qazanmasında, regionun aparıcı dövlətinə çevrilməsində, eləcə də dünya birliyində mövqelərinin daha da möhkəmləndirilməsində həlledici rol oynadı. İlham Əliyevin ümummilli mənafelərimizə, böyük hədəflərimizə əsaslanan siyasəti nəticəsində 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində tarixi Qələbə qazanıldı, torpaqlarımız işğaldan azad olundu. Bu möhtəşəm qələbə həm də milli həmrəyliyimizin təntənəsi idi", - deyə o bildirib.

Ə.Hüseynov qeyd edib ki, dövlət başçısının digər uğuru isə ondadır ki, məhz onun iradəsi nəticəsində son illərdə ölkədə təşəkkül tapmış yeni siyasi konfiqurasiya hakim partiya ilə müxalifət partiyaları arasında normal münasibətlərin formalaşmasında, konstruktiv əməkdaşlıq imkanlarının yaradılmasında mühüm rol oynayır: "Hakim partiya ilə ölkənin digər siyasi qüvvələri arasında əməkdaşlıq mühitinin formalaşması, siyasi həmrəylik mədəniyyətinin təşəkkül tapması ümummilli hədəflərimizə çatmaqda önəmli rol oynaya bilər. Biz bunun bariz nümunəsini 44 günlük Vətən müharibəsi və postmüharibə dönəmində əyani surətdə gördük. Milli Həmrəylik Partiyası hər zaman siyasi partiyalar arasında sıx əməkdaşlıq münasibətlərinin tərəfdarı kimi çıxış edib. Fürsətdən istifadə edib hakim Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibətilə həm partiyanın lideri və dövlət başçısı cənab İlham Əliyevi, həm də partiyanın bütün üzvlərini ürəkdən təbrik edirəm".

### YAP ölkədə siyasi həmrəylik formalaşdırıb

Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev bildirib ki, Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizin həyatında çox gərgin və qarışıq dövrə təsadüf edib: "Belə gərgin bir dövrdə böyük siyasi xadim Heydər Əliyev YAP-a rəhbərlik edib və qısa müddətdə təşkilatı ölkənin hakim partiyasına çevirməyi bacarıb. 1993-cü ildə xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya gələn və ölkənin idarəçilik məsuliyyətini öz üzərinə götürən Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində siyasi xaosun, vətəndaş qarşıdurmasının qarşısı alınıb. Məhz Ümummilli Liderin səyləri nəticəsində Azərbaycanın parçalanması və dövlətçiliyimizin itirilməsi təhlükəsi aradan qaldırılıb, siyasi sabitlik və iqtisadi inkişaf yoluna qədəm qoyulub. Belə təlatümlü yollardan keçib indiyədək hakimiyyətdə qalmaq həm də partiyanın Sədri, Prezident İlham Əliyevin rəşadəti, uzaqgörən siyasəti nəticəsində mümkün olub və bu, YAP-ın ən böyük uğurlarından biri hesab olunmalıdır".

Partiya sədrinin sözlərinə görə, əvvəllər Yeni Azərbaycan Partiyası ilə digər partiyalar arasında münasibətlər formal xarakter daşıyırdı: "Lakin dövlət başçısının iradəsi ilə başlayan siyasi islahatlar partiyalara qarşı münasibətin müsbətə doğru dəyişməsində mühüm rol oynadı. İnanırıq ki, ölkəmizdə partiyalararası dialoq prosesi bundan sonra da dərinləşəcək və siyasi həmrəylik şəraitində qarşılıqlı etimad tam təmin olunacaq".

E.Musayev bildirib ki, hazırda ölkəmiz növbəti sınaq qarşısındadır və belə bir dövrdə milli həmrəylik nümayiş etdirmək hər bir azərbaycanlının, eləcə də ölkənin siyasi sferasını əhatə edən partiyaların borcudur: "44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə bütün siyasi təşkilatların, xüsusən də hakim partiya olan YAP-ın qarşısında yeni vəzifələr qoyur. Ölkə Prezidenti və YAP Sədri cənab İlham Əliyev başda olmaqla, Yeni Azərbaycan Partiyası üzvlərini 30 illik yubiley münasibətilə təbrik edir, ölkəmizin siyasi həyatındakı fəaliyyətlərində uğurlar arzulayıram".

### Demokratik məramlara sadiq partiya

Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova deyib ki, 30 illik yubileyini qeyd edən Yeni Azərbaycan Partiyası ötən əsrin sonlarında müşahidə edilən mürəkkəb siyasi situasiyanın daxili məntiqindən, zamanın təxirəsalınmaz tələbindən irəli gələrək, Azərbaycan xalqının arzu və istəklərinin təzahürü kimi yaranan partiyadır. Yaradılmasından qısa müddət sonra iqtidar partiyası statusunu qazanan YAP ölkəmizdə sivil siyasi münasibətlərin formalaşmasına, siyasi mühitin inkişafına əhəmiyyətli təkan verib. Qısa zamanda Azərbaycanın siyasi palitrasındakı milli, vətənpərvər, siyasi prosesləri düzgün qavrayan və təhlil edən, maraqlarımıza uyğun inkişaf xətti seçmiş partiyalarla əlaqələr möhkəmləndirilib, beynəlxalq münasibətlər yaradılıb.

"Xalqın israrlı tələbi ilə Bakıya gələn Ulu Öndər Heydər Əliyev atdığı müdrik addımlar sayəsində qısa müddət ərzində vətəndaş müharibəsi və ölkəmizin parçalanmaq təhlükəsinin qarşısını alıb, hakimiyyəti qeyri-qanuni ələ keçirməyə cəhd göstərən cinayətkar qüvvələr xalqın dəstəyi ilə zərərsizləşdirilib. Ümummilli Liderimizin müdrikliyi, dünyada gedən proseslərə dərindən bələd olması, baş verən hadisələrin səbəblərinin təhlili zamanı əvəzolunmaz məharət və bacarığı, hadisələrin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görmək səriştəsi öz bəhrəsini verib. Məhz böyük xilaskarımızın Bakıya gəlməsindən bir neçə ay sonra vəziyyətin sabitləşməsi, daha ağır nəticələrin qarşısının alınması mümkün olub, millətimiz və dövlətimiz dəhşətli bəladan qurtulub və Azərbaycan sabit inkişaf yoluna qədəm qoyub", - deyə partiya sədri qeyd edib.

Ə.Kazımovanın dediyinə görə, Yeni Azərbaycan Partiyası yaradıcısı Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, partiyanın Sədri İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən əsas məramlarına - Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulması, əmin-amanlıq, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyatın yaradılması kimi məramlara hər zaman sadiqlik nümayiş etdirib.

Partiya sədri bildirib ki, Prezident İlham Əliyevin hərtərəfli, çoxşaxəli daxili siyasəti daim islahatlara əsaslanıb: "Bu mənada artıq bir neçə ildir ki ölkəmizdə formalaşan yeni siyasi konfiqurasiyada Yeni Azərbaycan Partiyasının nümayiş etdirdiyi birliyə və həmrəyliyə yönəlik fəaliyyəti xüsusi qeyd edilməlidir. Nəinki Azərbaycanın, bütövlükdə Qafqazın ən mütəşəkkil partiyası olan Yeni Azərbaycan Partiyası bütün siyasi həmkarları ilə siyasi dialoq, müzakirələr aparmağa, milli mənafenin qorunmasında həmrəylik nümayiş etdirməyə hazır olduğunu bildirir. Bir sözlə, Yeni Azərbaycan Partiyası öz təşəbbüsləri sayəsində partiyalararası siyasi dialoqu stimullaşdırır. Siyasi dialoqun inkişafı dövlət siyasətinin prioritet fəaliyyət istiqamətlərindən biridir və ölkəmizdə aparılan siyasi dialoq təcrübəsi Yeni Azərbaycan Partiyasının təşəbbüsləri ilə zənginləşir".

Ə.Kazımova vurğulayıb ki, Azərbaycan Sosial Rifah Partiyası da hər zaman milli maraqlar, sosial, ədalətli, hüquqi cəmiyyətin inkişafı yönündə Yeni Azərbaycan Partiyasının mövqeyini dəstəkləyib: "Partiyamız Prezident İlham Əliyevin yürütdüyü siyasətin birmənalı dəstəkçisidir. Bir daha bütün partiya üzvlərimiz adından Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə Yeni Azərbaycan Partiyasının Sədri, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevi, partiya Sədrinin birinci müavini, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı və bütün partiya üzvlərini təbrik edir, partiyanın qurucusu Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin hörmətlə yad edirik. Partiyaya gələcək fəaliyyətində uğurlar arzulayırıq".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

1992 2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

30



# Xalqın etimad göstərdiyi partiya

**Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası 30 illik yubileyini Zəfər partiyası kimi qeyd edir. Yarandığı gündən xalqın partiyası adını qazanan bu siyasi təşkilatın liderlərinin qəbul etdiyi qərarlar bu gün Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib.**

Əgər fenomen şəxsiyyət, müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyev adını tariximizə xalqının xilaskar Lideri kimi qızıl hərflərlə yazdırıbsa, onun layiqli varisi cənab Prezident İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsinə 44 günlük müharibədə zəfərlə son qoyaraq xalqının qəlbində əbədi heykəlini ucaldıb.

30 il tarixi nöqteyi-nəzərdən o qədər də çox müddət deyil. Amma kiçik bir dövlət üçün təxminən bir qərinəlik dövrdə bu qədər yüksəliş, sürətli inkişaf və şanlı Zəfərin qazanılması böyük dövlətlərin tarixində yaşanmayan həqiqətdir. Bu, uzaqgörən Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi yüksəliş strategiyasının bəhrəsidir. Bu, Ümummilli Liderin "vaxt gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq" kəlamının faktiki təsdiqinin bariz təcəssümüdür. Bu, məhz Ulu Öndərin 30 il öncə yaratdığı Yeni Azərbaycan Partiyasının şanlı tariximizə verdiyi ən böyük töhfədir.

İstənilən dövlətin tarixində güclü, xilaskar lideri olur. Məhz həmin liderin öndərliyi ilə dövlət də, xalq da nicat tapır. Bu gün Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, onun çoxəsrlik tarixində güclü sərkərdələri, xilaskar liderləri olub. Məhz həmin liderlərin özlərindən sonra qoyub getdikləri siyasi mirasın düzgün dəyərləndirilməsi, qiymətləndirilməsi sayəsində respublikamız yüksəliş dövrünü yaşayır.

Tam əminliklə deyə bilərik ki, uca yaradanın Azərbaycan dövlətinə və xalqına Ulu Öndər Heydər Əliyev kimi şəxsiyyəti nəsib etməsi ilə istiqrarımızın, müstəqilliyimizin əbədiliyi rəsmiləşdirilib. Bəlkə də Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə ölkəmizdə siyasi hakimiyyətə gəlməsəydi, indi Azərbaycan adlı dövlətin müstəqilliyindən danışmaq belə mənasız olardı.

Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk illərlə bugünümüzü müqayisə etsək, tamamilə fərqli bir mənzərənin şahidi olarıq. Əlbəttə ki, bu uğurların qazanılmasına əsas verən zamanın tələbi ilə Yeni Azərbaycan Partiyasının yaradılması və 6 ay sonra Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı, YAP-ın iqtidar partiyası kimi səmərəli fəaliyyət göstərməsidir.

Tarixə qısa ekskurs edib həmin dövrdə baş verənlərə nəzər yetirsək, bir daha şahidi olarıq ki, həqiqətən də müstəqilliyini yenicə qazanmış, Azərbaycan suverenliyini itirmək təhlükəsində idi. Hər tərəfdən sanki Azərbaycana hücumlar edilirdi. Müstəqilliyini yenicə qazanmış bir ölkə acınacaqlı günlər yaşayırdı.

Ancaq ölkənin bir qrup ziyalısının bir araya gələrək qəbul etdikləri qərar bu təhlükənin qarşısını aldı. Yaxşı yadımdadır, həmin zaman Azərbaycan Tibb Universitetinin tələbəsi idim və bir azərbaycanlı gənc kimi proseslərlə yaxından maraqlanırdım. Ümumiyyətlə, həmin dövrdə təkcə hörmətli ziyalılarımız deyil, ölkəmizin müstəqilliyinin qorunmasını, dövlətimizin inkişafını istəyən gənclər ordusu da nicatın yalnız Ulu Öndərdə olduğunu bilirdilər. Ona görə də əminliklə deyə bilərəm ki, ziyalılarımızın dahi şəxsiyyətə geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiyanı - Yeni Azərbaycan Partiyasını yaradıb və ona rəhbərlik etməsi ilə bağlı müraciət həm də gənclərin səsi, istək və arzuları idi. Çünki biz gənclər də yaxşı anlayırdıq ki, Azərbaycanı bu uçurumdan yalnız ümummilli lider qurtara bilər.

Yəqin ki, belə çətin, gərgin anlarda hər siyasətçi ağır yükün altına girmək istəməzdi. Amma "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlamağa hazıram" deyən Ulu Öndər ona ünvanlanan müraciəti müsbət dəyərləndirdi və yeni zamanın yeni partiyasını yaradıb ona rəhbərlik etməyə başladı.

Yarandığı gündən etibarən YAP tək ziyalıların deyil, gənclərin də güvənc ünvanı idi. Biz inanırdıq ki, dahi lider Heydər Əliyev tezliklə bu partiyanı böyük bir siyasi təşkilata çevirəcək. Belə də oldu. YAP-ın yaranmasından 6 ay sonra dahi lider Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanın müstəqilliyinin başının üstünü almış bütün təhlükələri çox qısa zamanda sovuşdurdu.

Bu gün bir ziyalı kimi qürurluyam ki, dövlətinin istiqrarını, xalqının xoşbəxt gələcəyini istəyən vətənpərvər bir Azərbaycan gənci kimi mən də həmin proseslərin iştirakçısı və hətta 1993-cü ildə YAP-ın Azərbaycan Tibb Universitetində yaradılan ilk dayaq bölməsinin təsisçilərindən biri olmuşam. Bu həm də Nəsimi rayonunda yaradılan ilk dayaq bölməsi idi.

Həmin zaman universitetin VI kurs tələbəsi idim. 1993-cü il yanvar ayının 8-də ATU-da Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Konfransda 37 nümayəndə iştirak edirdi. Gündəlikdə duran məsələ isə universitetimizdə partiyanın dayaq nöqtəsini təsis etmək və şura üzvləri ilə sədri seçmək idi. Təşkilat komitəsinin sədri vəzifəsi mənə həvalə olunmuşdu. Konfransda çıxış edərək gördüyümüz işlər barədə geniş məlumat verdim. Çıxış edənlər isə vurğuladılar ki, iqtidarın apardığı siyasət böyük xalq kütləsinin heç də ürəyincə deyil. Respublikada vəziyyəti sabitləşdirə biləcək yeganə siyasi təşkilat Yeni Azərbaycan Partiyası ola bilər. Çünki təkcə ziyalılar və tələbə gənclər deyil, xalqın mütləq əksəriyyəti yalnız dahi şəxsiyyət Heydər Əliyevə güvənirdi. Məhz Ulu Öndərin rəhbərlik ediyi partiya tezliklə Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynayacaq.

Təsis konfransında Xəlil Xəlilov sədr, mən isə müavin seçildim. Bu, bir Azərbaycan gənci kimi həyatımda ilk və məsuliyyətli vəzifə idi. Həmin il fevral ayının 20-də dayaq bölməsinin ikinci iclası keçirildi. Gündəliyin əsas məsələsi YAP-ın Nəsimi rayon təsis konfransına nümayəndələrin seçilməsi idi. Müzakirələrdən sonra təsis konfransı üçün 21 nəfər nümayəndə heyəti seçldi. Nümayəndə heyətinin tərkibində bir çox ziyalı, tanınmış ictimai-siyasi xadim yer almışdı. Bu ictimai xadimlər sırasında yer alanlardan biri də bu gün YAP Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov idi.

ATU-nun VI kurs tələbəsi kimi ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayan ziyalılarımızla bir sırada addımlamaq, onlardan siyasi bilgilər almaq mənim üçün ən qürurlu anlar kimi bu gün də unudulmaz xoş xatirələrtək gözlərimin önündə canlanır...

Bir həqiqəti də xüsusi olaraq vurğulayım ki, yaşadığımız tarixi gerçəkliklərin uğurla nəticələnməsində tibb elmləri doktoru, insan anatomiyası kafedrasının müdiri, professor Vaqif Şadlinskinin də böyük əməyi var. Professor Vaqif Şadlinski YAP-ın Azərbaycan Tibb Universitetində dayaq bölməsinin təsis edilməsində, konfransların keçirilməsində əlindən gələni əsirgəmədən bizə böyük mənəvi dəstək olmuşdur.

İllər keçdi və YAP nəinki Azərbaycanın, eləcə də Cənubi Qafqazın ən böyük siyasi təşkilatına çevrildi. Partiyamızın həyata keçirdiyi siyasət, görülən işlər qısa zamanda Azərbaycanı yeni inkişaf mərhələsinə çıxartdı. YAP-ın hər bir qurultayı respublikamızın həyatına mühüm hadisə kimi həkk olundu. Bu da ondan irəli gəlir ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu il təsis edilməsinin 30 ili tamam olan YAP hər zaman xalqın etimadını doğruldub.

Bu gün YAP Cənubi Qafqazın ən böyük siyasi təşkilatı kimi cəmiyyətdə gedən proseslərin önündədir və öz fəaliyyəti ilə dövlətimizin həyata keçirdiyi bütün işlərə layiqli töhfələr verir.

*Təbii ki, partiyamızın respublikamızın aparıcı siyasi qüvvəsi kimi fəaliyyət göstərməsinin təməlində ilk növbədə lider amili dayanır. Ulu Öndər Heydər Əliyevin layiqli varisi, ata vəsiyyətini yerinə yetirən cənab Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Qələbə ilə YAP-ı Zəfər partiyasına çevirib. Bu gün YAP Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi özünün cəmiyyətdəki aparıcı rolunu gündən-günə daha da möhkəmləndirməkdədir.*

***Elçin HÜSEYNOV,***
***tibb elmləri doktoru***

# İlham Əliyevə ümumxalq sevgisi var



**Bir insan, bir rəhbər üçün ən böyük mükafat, ən yüksək dəyər xalqın inamını, etibarını, sevgisini qazanmaqdır. Bu inamı qazanmaq hər kəsə nəsib olan xoşbəxtlik deyil. Onun dəyəri misilsizdir, qiymətsizdir... Bütün maddi nemətlərdən, fəxri adlardan və titullardan yüksəkdə ümumxalq sevgisi durur.**

Ölçüsü, biçimi, çəkisi mürəkkəb olan, gəlimli-gedimli bu dünyada sözü, əməli, işi ilə yaşamaq, bir millətin taleyi olub tarixini yazmaq, qurmaq, yaratmaq və yaşatmaq üçün dünyaya gəlmək çox nadir şəxslərə nəsib olan xoşbəxtlikdir. Elə insanlar var ki, onlar təmsil olunduqları xalqın, lideri olduqları dövlətin rəmzinə çevrilirlər, adları millətin milli kimliyini ifadə edir. Nə xoş ki Tanrı zaman-zaman bu cür tarixi şəxsiyyətləri ilə xalqımızı mükafatlandırıb. Adı XXI əsrin nəhəng siyasi liderləri ilə qoşa çəkilən, dünya siyasi mühitində öz dəst-xəti, sözü və iradəsi, qətiyyəti ilə seçilən Azərbaycan Prezidenti İlham Əliyev kimi.

Prezident İlham Əliyev qazandığı uğurlarla, apardığı möhtəşəm siyasəti, güclü məntiqi, dərin iradəsi, tükənməz enerjisi və qətiyyəti ilə, bir rəhbərdən daha çox bir möhtəşəmlik rəmzinə çevrilib, insanların ruhunda, qəlbində öz abidəsini ucaldıb. Dövlət başçısı Qarabağın xilaskarı, Azərbaycan Ordusunu quran, onu qələbəyə aparan möhtəşəm sərkərdədir. Prezident İlham Əliyev fatehdir: 300 illik erməni ideologiyasını tarmar edən, erməni xalqını bu bəladan qurtarandır. 44 günlük zəfər müharibəsinin nəticələrini görən erməni xalqı nəinki dənizdən-dənizə "böyük Ermənistan" dövləti qurmağın mümkün olmadığını anladı, hətta hazırkı Ermənistan dövlətini qorumaq haqqında düşünməyə məcbur edildi. Cənab İlham Əliyev qurucu Prezidentdir. Azərbaycan dövlətinin iqtisadi, siyasi təkamül yoluna çıxarılmasında müstəsna xidməti olan tarixi şəxsiyyətdir...

## Zəfərin İlham Əliyev yolu

Dövlət ağılla, məntiqlə, səbirlə idarə edilir. Müdriklər hesab edirlər ki, siyasətin açarı iqtisadiyyatın gücündədir. Prezident İlham Əliyev də ilk növbədə ölkənin iqtisadi gücünün artmasına çalışdı. Qısa bir zaman ərzində buna nail oldu. İqtisadi cəhətdən Azərbaycanı regionun ən qüdrətli dövlətinə çevirdi. Ölkəmizdə dayanıqlı sabitliyi, güclü lideri görən qüdrətli, böyük dövlətlər Azərbaycana sərmayələr yatırıb, müştərək müəssisələr yaratdılar. Yeni iş yerləri açıldı. Yol infrastrukturu yenidən quruldu. Ölkəmiz sabitliyinə, əmin-amanlığına, təhlükəsizliyinə, eyni zamanda xidmətin səviyyəsinə görə turistlərin ən çox üz tutduqları məkana çevrildi. Ərazilərimizin müdafiəsi, müstəqilliyimizin daha da etibarlı təminatı üçün ordu quruculuğuna, hərbi sənayemizin qüdrətinin artırılmasına xüsusi diqqət yetirildi. Respublikanın elm, təhsil, səhiyyə sistemi yenidən quruldu. Ölkə bütünlükdə böyük tikinti meydanına çevrildi. Dövlətimizin iqtisadi qüdrəti artdıqca siyasi mövqeyi də gücləndi. Artıq şərtləri Azərbaycan diktə etməyə başladı. Qüdrətli Azərbaycan dövləti dünya siyasi masasında söz sahibinə çevrilərək qlobal görüşlərə Prezident İlham Əliyevin təşəbbüsü və vasitəciliyi ilə evsahibliyi edirdi. Təbii ki, gündən-günə qüdrətimizin artmasını gözü götürməyənlər bizi gücdən salmaq üçün erməni faktorundan istifadə edirdilər. Həmişə özgələrinin maşası olan erməniləri qızışdırıb üstümüzə qaldırırdılar. Dövlətimizin başçısı isə siyasi iradə nümayiş etdirib ermənilərı qan tökməməyə, sülhə, problemi danışıqlar yolu ilə həll etməyə çağırırdı. Böyük praqmatik, siyasətçi İlham Əliyevin siyasi dözümlülüyü, iradəsi isə bizi addım-addım iqtisadi yüksəlişdən hərbi qələbəyə aparırdı.

Nəhayət, 27 sentyabr 2020-ci il gəldi. 27 sentyabr tariximizə yalnız Vətən müharibəsinin başlandığı gün kimi düşmədi. Milli birlik, inam və qətiyyət günü kimi tariximizə yazıldı. Xalq həmin gün sevib-seçdiyi liderinə inamını qətiyyətlə ifadə etdi. Cənab İlham Əliyevin uğurla başladığı zəfər siyasəti keçilməz dağlardan yol saldı, qayalardan keçdi. Oğullarımız "mənim Prezidentim, mənim dövlətim, mənim vətənim, mənim bayrağım deyib" yeridilər düşmən üzərinə. Əsgərlərimiz savaş meydanında, Prezdent isə siyasi meydanda bədxahlarımızla döyüşdülər. Hər iki meydanda qazanan Azərbaycan idi. Ona görə ki, hər iki cəbhənin Ali Baş Komandanı, əsrin əfsanəvi lideri İlham Əliyev idi. Hər iki cəbhənin sərkərdəliyi onun əlində idi. Müdriklər gözəl deyib ki, güc kimin əlindədirsə, şərtləri də o diktə edir. Ermənistan rəhbəri daha rüsvayçı məğlubiyyətdən yaxa qurtarmaq üçün aman diləyirdi, yalvarırdı. Qətiyyətli Azərbaycan liderinin qarşısında aciz duruma düşmüşdü. Döyməndiyi qapı, yalvarmadığı ölkə lideri qalmamışdı. Nəhayət, Ermənistan 10 noyabr üçtərəfli Bəyanatını, kapitulyasiya aktını imzalamağa məcbur edildi...

Hər bir xalqın öz xarakteri, milli düşüncəsi var. İnsanlar güclü, qətiyyətli, sözünü, əməlini tamamlayan lideri sevir. Cənab İlham Əliyev ardıcıl siyasəti ilə özünü təsdiq edib, əbədi olaraq xalqın ürəyində məskən salmağı bacaran dövlət başçısı oldu. Bizi illərin bəlasından, dərdindən xilas etdi, həsrətində olduğumuz torpaqlarımıza qovuşdurdu. Vətənimizi bütövləşdirdi.

## Xalqın gözü tərəzidir

Noyabrın 17-də Azərbaycan Prezidentinin reytinqini əks etdirən səkkizinci "İnam indeksi" jurnalının təqdimat mərasimi keçirilib.

Sosial Tədqiqatlar Mərkəzinin "İnam indeksi" silsiləsinin davamı olaraq təqdim edilən icmalda 2022-ci ilin may-avqust aylarında Prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətini öyrənmək məqsədilə sosioloji sorğu keçirilib. Rəyi soruşulanların 95,3 faizi Azərbaycan Prezidentinə etibar etdiyini bildirib. Sorğuda Birinci vitse-prezident Mehriban Əliyevaya münasibətdə rəyi soruşulanların 90,7 faizi müsbət mövqe ifadə ediblər.

Dövlət başçısının ölkəmizin ictimai-siyasi, postmüharibə dövründə sülh yaradıcılığı, o cümlədən informasiya-kommunikasiya siyasəti ilə bağlı ictimai göstəricilər vətəndaş rəyində qiymətləndirilib. Prezident İlham Əliyevin reytinqi uzunmüddətli münaqişəni həll etdikdən sonra nəzərəçarpacaq dərəcədə artıb və artmaqda davam edir. Dövlət başçısının hərbi-quruculuq siyasəti bütün cəmiyyət tərəfindən dəstəklənir.

## Vətən sevgisi hər şeydən ucadır

Sorğudan göründüyü kimi, xalqımızın vətən sevgisi, torpaq sevgisi hər şeydən ucadır. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan Qarabağı düşmən işğalından azad etməklə insanların ürəyini fəth etdi. İşğaldan azad olunmuş ərazilərimizdə hər dəfə zəfər bayrağımızı ucaltdıqca, özü də xalqın gözündə bayraq kimi müqəddəsləşdi. Xalqımızın dövlət başçısına olan münasibəti, onu ürəklərdə əvəzsiz lider etməsi Prezident İlham Əliyevin siyasətinə verilən dəyərin ən dürüst ifadə formasıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Taleyimizdə böyük rolu olan partiya



## Yeni Azərbaycan Partiyası qarşıya qoyduğu məqsədləri uğurla gerçəkləşdirmişdir

**Tarixdə bəzən elə anlar yaşanır ki, onların təsadüf deyil, qanunauyğunluq olduğunu dərk edirsən. Fikrimizi bir qədər də dəqiqləşdirsək, belə ifadə edə bilərik ki, mövcud mühitdəki saysız-hesabsız təsadüflər içində bir qanunauyğunluq baş verir və məhz o, bütün mühiti dəyişib, ümumi vəziyyətə həlledici təsir göstərir, zamanın axarını müəyyənləşdirir.**

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini elan edərkən ölkədə çoxpartiyalı sistem elan olunmuşdu. Kommunist Partiyasının təxminən 70 il çəkən hökmranlığına son qoyulduqdan sonra respublikada siyasi partiya yaratmağa maraq artmışdı, bir-birinin ardınca belə təşkilatlar elan olunurdu. Əksəriyyətini təsadüfi adamlar yaratdığı üçün bu partiyaların ölkədəki ictimai-siyasi proseslərə ciddi bir təsiri olmur, onlar siyasi mühitdə anidən göründükləri kimi, tez də gözdən itirdilər. Çünki bu partiyaları yaradanlar əsl liderlər deyildi, onların formalaşması cəmiyyətin sosial sifarişindən yox, az sayda fərdlərin müəyyən maraqlarından irəli gəlirdi. Həmin təşkilatların proqram və məramnamələrində çox təmtəraqlı sözlər, pafoslu müddəalar yazılsa da, bu partiyalar güc, nüfuz, təsir etibarilə həmin o yazılanları həyata keçirmək, milli mənafelərə əhəmiyyətli şəkildə xidmət göstərmək imkanlarından məhrum idilər və daha çox öz yaradıcılarının şəxsi maraqlarına xidmət göstərirdilər.

### Xalqın yaratdığı partiya

Belə bir zamanda Yeni Azərbaycan Partiyası 1992-ci ilin 21 noyabrında tarixi zərurət, qanunauyğunluq kimi meydana çıxdı, 30 il ərzində müstəqil dövlətimizin taleyində əhəmiyyətli rol oynadı. Azərbaycanın müstəqillik tarixi bu partiyanın fəal iştirakı, rəhbərliyi, bələdçiliyi ilə yazıldı.

Yeni Azərbaycan Partiyasının yaranmasında o illərdə dövlətimizin, xalqımızın gələcək taleyinə görə narahatlıq hissi keçirən, vəziyyətin yaxşıya doğru dəyişməsini arzulayan milyonlarla insanın fədakar əməyi, zəhməti var. Heydər Əliyev ideyaları ətrafında, bu böyük dövlət adamının şəxsiyyəti işığında həyat qazanmış Yeni Azərbaycan Partiyasının yaradıcısı xalqdır, ötən əsrin 90-cı illərinin o çətin və təlatümlü günlərində cəmiyyətdən gələn sosial sifarişdir.

Həmin illərdə Moskvadan Vətənə yenicə dönmüş, blokada şəraitindəki Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərərək bütün gücü ilə bölgəni qorumağa çalışan Heydər Əliyevi belə bir partiyanın yaradılmasında iştirak etməyə və ona rəhbərliyi üzərinə götürməsinə razı salanlar, Ümummilli Liderin müsbət cavabından sonra təşkilati işləri qısa zamanda həyata keçirənlər xalqın istəyini, israrlı tələblərini yerinə yetirirdilər.

### Ağır sınaq anı

Azərbaycanın tarixi taleyinə çox mühüm təsir göstərən hadisələrin, proseslərin baş verdiyi 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində xalqımızın bu prosesləri doğru istiqamətə, gələcək inkişafa yönəltməyə qabil güclü liderə həyati dərəcədə ehtiyacı olsa da, cəmiyyətdə lider böhranı yaşanırdı. Təsadüflər nəticəsində hakimiyyətə gələn naşı siyasətçilər ali hakimiyyət kürsülərində bir-birini əvəz edir, onların qısamüddətli fəaliyyətləri dövründə verdikləri yanlış qərarlar dövlət, xalq üçün yeni-yeni problemlərə yol açırdı. Vəzifə uğrunda didişmələr ölkədə vəziyyəti vətəndaş müharibəsi təhlükəsinə qədər gətirib çıxarmışdı. Bir qədər də belə davam edərsə, Azərbaycanın parçalanaraq dünya xəritəsindən silinməsi ehtimalı çox real idi. Ölkə rəhbərlərinin yanlış qərarları xarici güclərin maraqlarına toxunduğundan, regionla bağlı geostrateji reallıqları nəzərə almadığından və balans yarada bilmədiyindən artıq Azərbaycana qarşı çox qorxulu planların addım səsləri eşidilirdi. Bütün sahələrdə ağır tənəzzül hökm sürürdü. Qurulu iqtisadiyyatın, sosial sistemin bir anda dağıdılması nəticəsində iş yerini itirən insanlarımızda sabaha inam qalmamışdı. Misli görünməmiş inflyasiya adamların illərlə dar gün üçün yığdıqları vəsaitləri qəpik-quruşa çevirirdi. Mağazalar bomboş idi, yavan çörəyi belə tapıb almaq üçün günlərlə növbəyə durmaq lazım gəlirdi. Ən pisi isə bu acınacaqlı duruma görə heç kim məsuliyyəti üzərinə götürmək, yol verilən yanlışları etiraf etmək və vəziyyəti az da olsa düzəltmək üçün təşəbbüs göstərmək niyyətində görünmürdü. Bir tərəfdən də mənfur ermənilərin Azərbaycana qarşı elan olunmamış müharibəsi davam edirdi, xəyanətlər nəticəsində, hakimiyyət davalarının təzahürü, kürsü uğrunda bir-biri ilə didişən tərəflərin qarşılıqlı təsir vasitəsi kimi torpaqlarımız düşmənə təslim edilir, igid oğullarımız cəbhədə şəhid olur, faciəni xalq yaşayırdı. Hər siyasi qüvvənin özünün qeyri-qanuni silahlı dəstəsi vardı və onlar cəbhədəki uğursuzluqlara görə böyük məsuliyyət daşımaqla yanaşı, vətəndaşlarımızın həyat və sağlamlığını da təhdid altında saxlayırdılar. Sifarişli qətllər, ayrı-ayrı şəxslərin fiziki cəhətdən aradan götürülməsi adi həyat hadisələrinə çevrilmişdi. SSRİ-nin süqutundan sonra birdən-birə gün işığına çıxan kriminal qruplaşmalar artıq hüquq-mühafizə orqanlarına meydan oxuyurdular. Onlar azad bazar iqtisadiyyatı yoluna yenicə qədəm qoymuş ölkədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə xərac kəsir, mülki mübahisələrin həllinə müdaxilə edir, böyük problemlər yaradırdılar.

### Cəmiyyətdən gələn sosial sifariş

Hər dəfə ölkədə rəhbərlik dəyişdikcə, hakimiyyət kürsüsündəkilər bir-birini əvəz etdikcə və durum daha da gərginləşdikcə, insanlarda belə qənaət formalaşırdı ki, Azərbaycanı üzləşdiyi bütün bu bəlalardan yalnız Ulu Öndər Heydər Əliyev öz qətiyyəti, müstəsna idarəetmə təcrübəsi, dövlətçilik təfəkkürü ilə xilas edə bilər. Azərbaycanın çətin günlərində ölkəyə rəhbərliyin ağır yükünü öz üzərinə götürüb xalqı, dövləti fəlakətdən qurtarmağa, nicat yoluna çıxarmağa qadir şəxsiyyət kimi insanlarımız yalnız Heydər Əliyevi görürdülər. Əslində, o zaman Azərbaycanı uçuruma sürükləyən səriştəsiz rəhbərlər də anlayırdılar ki, ölkəni belə faciəli vəziyyətdən ancaq Heydər Əliyev çıxara bilər. Bununla belə onlar arasında tarixi qanunauyğunluğa müqavimət göstərib Ümummilli Liderin hakimiyyətə qayıdışını əngəlləməyə çalışanlar da vardı. Belə zamanlarda xalqımızın sayılıb-seçilən ziyalıları, eləcə də sadə zəhmət adamları ölkənin hər yerindən dəstə-dəstə Naxçıvana gedir, Heydər Əliyevi Azərbaycanın taleyində yaxından iştirak etməyə çağırır, xalqın israrlı tələblərini ona yetirirdilər. Bu arzuda olan insanların təşkilatlanması, cəmiyyətin ictimai-siyasi həyatında vahid güc kimi mütəşəkkil iştirakı üçün siyasi partiyanın yaradılması çox vacib sayılırdı. Ona görə də Heydər Əliyevə belə bir partiyanın yaradılması və ona rəhbərlik etməsi ilə bağlı çağırışlar olurdu. Nəhayət, Ümummilli Lider öz qəti qərarını elan etdi. 1992-ci ilin 21 noyabrında Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Partiyanın adını da Ulu Öndər təklif etmişdi. Yeni formalaşan siyasi təşkilata qoyulmuş Yeni Azərbaycan Partiyası adı yeniliklərə hər zaman açıq olan, müsbət dəyişikliklərə inkişafın, tərəqqinin əsas şərti kimi baxan və müstəqilliyini yenicə elan etmiş Azərbaycanın həyatın bütün sahələrində yenilənməsi ehtiyaclarını aydın görən Heydər Əliyevin ölkəmizlə bağlı arzularının, strateji hədəflərinin ifadəsi idi.

Yeni Azərbaycan Partiyası elan olunan kimi Azərbaycanın bütün regionlarından bu partiyanın sıralarına axın başlandı, partiya yerlərdə çox sürətlə təşkilatlandı. Xüsusilə müxtəlif bölgələrimizdə yaşayıb fəaliyyət göstərən ziyalılarımızın, el-obanın sayılıb-seçilən, sözü, mövqeyi başqaları üçün də mötəbər sayılan şəxslərin Yeni Azərbaycan Partiyasında təmsilçiliyə marağı böyük idi. Dövlətimizin gələcəyinə görə məsuliyyət hissi duyan, reallıqları düzgün qiymətləndirməyi bacaran insanlar bilirdilər ki, bu partiya xalqın gələcək taleyinin partiyasıdır, siyasətdəki hansısa təsadüfi kəsin, cılız dəstələrin yaratdığı oyuncaq firqə deyil. Partiya üzvlərinin sayının artması, Azərbaycanın siyasi həyatında nüfuzunun güclənməsi çox qısa müddətdə elə miqyas aldı ki, buna çoxəsrlik demokratik ənənələri ilə tanınmış bir çox ölkələrin siyasi partiyaları belə qibtə edə bilərdilər. Yeni Azərbaycan Partiyası faktoru göstərdi ki, şəxsiyyət amili, əsl Lider fenomeni bütün dövrlərdə, bütün şəraitlərdə aktualdır. Azərbaycanda da on minlərlə insanı qısa zamanda bu partiyanın sıralarında bir araya gətirən məhz Heydər Əliyev şəxsiyyətinin gücü, ona olan inamın sarsılmazlığı idi. Partiyanın qarşıya qoyduğu məqsədlər bütün dövrlərdə zamanla səsləşdiyindən ictimaiyyətin böyük diqqətinə, marağına səbəb olur. Xüsusi qeyd edilməlidir ki, müstəqil, güclü və qüdrətli dövlətçilik YAP-ın birinci əsas prinsipi idi.

### Yeni siyasi mədəniyyətin təmsilçisi

Yeni Azərbaycan Partiyasının varlığı onun vasitəsilə Azərbaycanın xilas yollarını geniş xalq kütləsinə aydın göstərməkdən, milli birliyə, siyasi sabitliyə nail olmaqdan, ölkədə qaragüruh düşüncədən uzaq yeni siyasi mədəniyyət formalaşdırmaqdan ötrü Heydər Əliyev üçün geniş imkanlar yaratdı. Yeni Azərbaycan Partiyası müxalifətdə olduğu bir neçə ayda da öz fəaliyyəti, davranışları ilə nümunə ortaya qoydu. Konstruktiv müxalifət olmağın örnəyini meydana çıxartdı. Göstərdi ki, bu partiyanın yeganə məramı hakimiyyətə gəlmək deyil, cəmiyyətdəki köklü problemləri yoluna qoymaqdır və bununla bağlı əsaslandırılmış, aydın, nəticələri proqnozlaşdırıla bilən plana malikdir. O dövrdə hakimiyyətdə olanların qısqanc münasibətinə, partiyanın yaradılmasında iştirak edənlərə qarşı hücumlara, təzyiq və təhdidlərə rəğmən Yeni Azərbaycan Partiyası cılız didişmələrdən hər zaman yüksəkdə durmağı bacardı. Hətta ən kritik məqamlarda belə təmkinini qorudu, Azərbaycanın milli dövlətçilik maraqlarına qarşı heç bir addımı özünə rəva görmədi. Eyni zamanda müstəqil dövlətimizin taleyi ilə bağlı məsələlərdə hakimiyyətlə əməkdaşlıqdan, səmərəli dialoqdan, məsələlərin qarşılıqlı müzakirəsindən də çəkinmədi.

1993-cü ilin 15 iyununda Azərbaycan xalqının israrlı tələbləri ilə Ulu Öndər Heydər Əliyevin ölkənin ali rəhbərliyinə qayıdışından sonra bu partiya Heydər Əliyev partiyası kimi böyük siyasi missiya yerinə yetirdi. Cəmiyyətdə ictimai-siyasi sabitliyin təmin olunmasında, milli-strateji inkişaf ideyalarının aktuallaşdırılmasında, Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi köklü islahatların, hüquqi dövlət quruculuğunun məqsədlərinin geniş xalq kütlələrinə düzgün çatdırılmasında, baş verən dəyşikliklər ətrafında ictimai polemikaların təşkilində, ziddiyyətlərin diskussiya məcrasına yönləndirilməsində və fikir müxtəlifliyi mühitinin yaranmasında, sivil mübarizə ənənələrinin təməlinin qoyulmasında müstəsna rol oynadı. Yeni Azərbaycan Partiyası ölkə siyasətinə təşkilati mədəniyyət gətirdi. Bütün seçkilərdə fəal iştirak ənənələrini formalaşdırdı. Seçkilərə yüksək səviyyədə hazırlaşmağın, ən uğurlu namizədləri müəyyənləşdirməyin, onların kampaniyalarını təşkil etməyin, seçicilərin mütləq əksəriyyətinin səsini qazanmağın beynəlxalq təcrübədə özünü doğrultmuş yollarını göstərdi, hətta rəqiblərə də öyrətməyə çalışdı və bu gün də çalışır. Çünki Yeni Azərbaycan Partiyasının ali niyyəti təkcə seçkilərdə qalib olmaq deyil, həm də ölkəmizdə müasir Azərbaycanın inkişaf reallıqlarına uyğun siyasi konfiqurasiyanın qurulmasına, sivil siyasi münasibətlərin formalaşmasına töhfə vermək və bununla ölkəmizin siyasi inkişafına nail olmaqdır. Yeni Azərbaycan Partiyası eyni mərama, dövlətin milli mənafelərinə xidmət göstərmək istəyən hər bir siyasi qüvvə ilə əməkdaşlığa hazır olub və bu gün də eyni mövqedədir.

### Zəfər partiyası

Yeni Azərbaycan Partiyası adındakı yenilik ruhuna daim sadiqdir. Partiya zaman-zaman yenilənir və müasir reallıqlara, dövrün dəyişən şərtlərinə inamla uyğunlaşaraq gücünü, ölkənin, ümumilikdə isə Cənubi Qafqazın ən böyük partiyası kimi regionun ictimai-siyasi həyatına təsir imkanlarını qoruyur. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün YAP yeni inkişaf mərhələsindədir. Sonuncu qurultayında partiyanın idarəetmə strukturlarında böyük dəyişikliklər həyata keçirilib, partiyanın rəhbər orqanlarına yeni şəxslər seçilib. Bu da Yeni Azərbaycan Partyasının 30 il ərzində yerinə yetirdiyi tarixi missiyanın önəmli bir hissəsidir. Hakim partiya uzun illər ərzində ölkəmiz üçün yüksək dövlətçilik düşüncəsinə malik layiqli kadrlar yetişdirib, onların potensialını kəşf edib, cəmiyyətə tanıdıb, fərdi və karyera uğurlarına dəstək olub. Eyni xətt yenə davam etdirilir. Bu mənada Yeni Azərbaycan Partiyası Azərbaycan gəncliyinin partiyasıdır, gənclərin axın etdikləri, özlərini reallaşdırmağa münbit mühit tapdıqları yerdir. Yeni Azərbaycan Partiyasına rəhbərlik missiyasını üzərinə götürərkən Ulu Öndərin bir arzusu da elə bu idi. Onun rəhbərliyi ilə yaradılmış partiya Azərbaycan gəncliyi üçün sağlam mühit yarada bildi, onları siyasi oyunlarda vasitə olmaqdan, fitnəkar qrupların ziyanlı təsirlərindən qorumağı bacardı, Azərbaycan gəncliyinə inkişafın ən düzgün yolunun oxuyub öyrənməkdən, müasir dövrün bilik və bacarıqlarına yiyələnməkdən keçdiyini göstərdi və bu gün də göstərir.

Yeni Azərbaycan Partiyasının ölkəmizdə qadın fəallığı ənənələrinin güclənməsində də rolu çox böyükdür. Partiya Sədrinin birinci müavini, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti bu cəhətdən xanımlarımız üçün mükəmməl örnəkdir. Bəşəri amallar uğrunda çalışan Mehriban xanımın Azərbaycan qadınının adını layiq olduğu ən yüksək zirvələrə yüksəldən nəcib əməlləri xanımlarımızın, o cümlədən gənc qızlarımızın bu partiyaya marağını artırır, onları cəmiyyət üçün faydalı fəaliyyətə təşviq edir.

Yeni Azərbaycan Partiyasının - Heydər Əliyev partiyasının formalaşmasında yaxından iştirak etdiyi Azərbaycan gəncliyi 44 günlük Vətən müharibəsində böyük tarix yazdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz torpaqlarımızı işğaldan azad etdi. Yeni Azərbaycan Partiyasının tarixi taleyinə bir də Zəfər partiyası olmaq qisməti yazıldı.

Partiya yaranmasının 30-cu ildönümünü böyük nailiyyətlərlə qeyd edir və qəlbi Azərbaycan adı ilə döyünən hər bir kəs bu nailiyyətlərin, bu yubiley önilliklərinin davamlı olmasını arzulayır. Çünki Yeni Azərbaycan Partiyası elə Azərbaycan deməkdir!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ağdamın Zəfər Günü

**44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin əsl sərkərdə və diplomat məharəti, prinsipiallığı, dəmir iradəsi və Azərbaycan Ordusunun şanlı zəfəri Ermənistanı kapitulyasiyaya və əraziləri boşaltmağa məcbur etdi.**

Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin imzaladığı birgə bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam rayonunun işğal olunmuş ərazisi Ermənistan ordusu tərəfindən boşaldıldı. Azərbaycan Ordusu heç bir itki, şəhid vermədən, qan tökülmədən Ağdam rayonunun işğal altındakı hissəsinə daxil oldu. 27 ildən sonra Qarabağın dilbər guşəsi, cənnətməkanın giriş qapısı sayılan Ağdam şəhərində yenidən Azərbaycanın üçrəngli bayrağı dalğalandı.

Bu gün Ağdamın işğaldan azad olunmasının ikinci ilini böyük sevinc və qürur hissi ilə bayram edirik. İlham Əliyevin bir güllə atılmadan azad etdiyi rayon hazırda inkişaf və quruculuğun yeni rəmzinə çevrilib.

## Ən çox şəhid verən, ən çox küçə döyüşləri aparılan rayon

1993-cü il iyulun 23-də Ağdam şəhərini və rayon ərazisinin böyük bir hissəsini işğal edən erməni silahlı dəstələri ərazidə görünməmiş vandalizm həyata keçiriblər. Ermənilər 27 il ərzində Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Qəbiristanlıqlar, tarixi, mədəni abidələr erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdam işğaldan azad edilləndə viranəyə çevrilmiş xarabalıqları xatırladırdı. Ağdam şəhərində səfərdə olmuş xarici jurnalistlər onu "Qafqazın Xirosiması" adlandırdılar.

27 il bu ağrı-acı ilə yaşadıq. Hər il o qara günü ürək ağrısı ilə yada saldıq. Çünki Ağdam Birinci Qarabağ müharibəsi zamanı hadisələrin episentri idi. İşğal nəticəsində ərazisi 1154 kvadrat kilometr, əhalisi 147000 nəfər olan Ağdam rayonunun 77,4 faizi ermənilərin əlinə keçmişdi. Ermənilər Ağdamın işğal olunan ərazilərindəki tarixi abidələri, qəbiristanlıqları, yaşayış obyektlərini, xəstəxanaları, kitabxanaları, məktəbləri, idarə və müəssisələri darmadağım etmişdilər. 128 min nəfər doğma ev-eşiyindən didərgin düşmüşdü, Azərbaycan iqtisadiyyatına 3 milyard manatdan çox ziyan dəymişdi. İşğaldan əvvəl Ağdamda 1898 sayda sosial-iqtisadi tikinti obyekti, 17 sənaye, 31 tikinti, 753 ticarət, 397 ictimai iaşə, 220 məişət müəssisəsi, 480 sosial bina, 24 min 446 yaşayış tikililəri, həmçinin 54 məktəbəqədər uşaq, 116 ümumtəhsil müəssisəsi, bir neçə ali məktəb filialı, 13 mədəniyyət evi, muzeylər, 109 mədəniyyət klubu olub.

Qarabağ döyüşlərində ən çox küçə döyüşləri aparılan rayon da Ağdam olub. Ağdam Birinci Qarabağ müharibəsində 6 mindən çox şəhid verən rayondur. Ağdam hər zaman düşmənə gözdağı olub.

## 23 iyul - işğal tarixi arxivə getdi, 20 noyabr- Ağdamın Zəfər bayramıdır

27 il bu təqvim günündə təkcə ağdamlıların deyil, bütün xalqımızın qəlbi qan ağladı, nisginliklə, qəmli notlarla o günləri yada salıb ağrılı-acılı tarixi xatırlamaq məcburiyyətində qaldı.

Bütün anım mərasimlərində bir arzumuz var idi - torpaqlarımız azad edilsin, işğal günləri tarixə qovuşsun, yalnız zəfər günlərimizi böyük təntənə ilə qeyd edək. Və o gün gəldi. Bu gün ağdamlılar üçün 23 iyul işğal tarixi yox, 20 noyabr Zəfər bayramı günü var.

Ali Baş Komandan İlham Əliyevin diplomatik məharəti ilə bir güllə atılmadan düşmənin geri qaytardığı Ağdam indi yenidən quruculuğun baş meydanına çevrilib.

İki il öncə İlham Əliyev noyabrın 20-də xalqa müraciətində Ağdam üçün yeni dövrün başlandığını, rayonun bərpasının gələcək planlarda xüsusi yer tutacağını bildirmişdi: "Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda, dediyim kimi, əhali baxımından ən böyük rayondur".

Şanlı qələbə nəticəsində işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Ağdamada da həyat yenidən canlanır. Azadlığına qovuşmuş bu şəhər böyük quruculuq, təmir-bərpa işlərinin şahidinə çevrilir. Bir zamanlar nəinki Qarabağın, eləcə də respublikamızın ən inkişaf etmiş, abad şəhərlərindən olan Ağdamda hazırda böyük tikinti bumu yaşanır.

## İki ildə Ağdama dörd səfər

İşğaldan azad edildikdən sonra Prezident İlham Əliyev Ağdama 4 dəfə səfər edib. 2020-ci il 23 noyabr, 2021-ci il 28 may, 2022-ci il 13 fevral və 2022-ci il 4-5 oktyabr tarixlərində gerçəkləşən bu səfərlərin hər birində çox mühüm tarixi hadisələr yaşanıb. Prezident yeni-yeni layihələrin təməlini qoyub, açılışlar edib və rayon ictimaiyyəti ilə görüşərək Ağdamın gələcək ağ günlərindən söz açıb.

Qalib sərkərdə kimi 2020-ci il noyabrın 23-də Ağdama səfər edən İlham Əliyev 27 ildən sonra şəhərdə Azərbaycan bayrağını ucaltdı. Dövlət başçısı Məkkədən gətirdiyi Qurani-Kərimi Ağdam məscidinə bağışladı. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam məscidində dua etdilər və Prezident Ağdam məscidinin qarşısında çıxış edərək erməni vandalizmini bir daha dünyaya nümayiş etdirdi və Ağdamın yenidən cənnətməkana çevriləcəyini bildirdi.

İkinci səfər isə 2021-ci il, 28 May Müstəqillik Gününə təsadüf etdi. Bu səfər zamanı Prezidentin iştirakı ilə Bərdə-Ağdam avtomobil yolunun, Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, Ağdam Sənaye Parkının, Ağdam şəhər 1 saylı orta məktəbin yeni binasının və Ağdam şəhərinin bərpasının təməl daşı qoyuldu. İlham Əliyev Ağdam şəhər meşə-parkında ağac əkdi, Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində oldu, Zəfər Muzeyi və açıq havada İşğal Muzeyinin layihəsi ilə maraqlandı, Qiyaslı məscidində, Şahbulaq qalasında da oldu. Ağdamın Baş planı təqdim edildi. Dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Baş plana əsasən, Ağdam şəhərinin ərazisi 1750 hektar, şəhərətrafı bağlar 2450 hektar olacaq. Burada ağıllı və dayanıqlı sosial infrastruktur yaradılacaq. Ağdam şəhərində həm fərdi evlər, həm də yüksəkmərtəbəli yaşayış binaları inşa olunacaq. Əhalinin 30 faizi fərdi evlərdə yaşayacaq. Yüksəkmərtəbəli binalar isə Ağdam şəhərinin ərazisinin 30 faizini, əhalinin 70 faizini əhatə edəcək. Hazırda 5 kvartaldan ibarət yaşayış massivinin tikintisinə başlanılması üçün hazırlıq işləri görülür. Bu yaşayış massivində hər kvartalda altımərtəbəli olmaqla, 6 yaşayış binasının tikilməsi nəzərdə tutulur. Yaşayış massivində, həmçinin hotelin və bir parkın inşa edilməsi qərarlaşdırılır.

Ağdam şəhərində 15 məktəb və uşaq bağçasının inşası planlaşdırılıb. Məktəb və uşaq bağçalarının əhatə dairəsi 500 metr təşkil edir. Ağdam şəhərinin nəqliyyat infrastrukturu da əhalinin rahatlığı üçün hesablanıb. Belə ki, küçələrdə piyada, velosiped və ictimai nəqliyyat üçün zolaqlar, eləcə də elektriklə işləyən tramvay xətlərinin çəkilişi nəzərdə tutulub.

Şəhərin yaşıllaşdırılmasına xüsusi diqqət yetirilir. Belə ki, burada 4 böyük meşə sahəsi, 23 ədəd şəhər parkı salınacaq. Ümumilikdə şəhərin ərazisinin 20 faizi yaşıllıqla əhatə olunacaq. Bu yaşıllıq həm şəhərin ekologiyasına, həm də gözəlliyinə töhfə verəcək. Şəhərin içərisində - su kanalının keçəcəyi yerdə artıq meşə parkı salınıb.

Bu il Prezident İlham Əliyev işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzura səfərləri çərçivəsində ilk səfərini Ağdama etdi. Fevralın 13-də reallaşan səfər zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirak etdilər. Sonra Prezident Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək alternativ və bərpaolunan enerji mənbələri ilə qidalanan işıq dirəklərinin, digər qurğuların və Xalça istehsalı müəssisəsinin, "Park Forest Otel Ağdam" mehmanxanasının və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməllərini qoydu.

Daha sonra dövlət başçısı və birinci xanım Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində bərpa-restavrasiya işlərinin gedişi ilə tanış oldular. Prezident həmçinin 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının da təməlini qoydu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış oldular.

Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva Pənahəli xanın sarayı və imarət kompleksində görüləcək işlərlə tanış olub, Xurşidbanu Natəvanın abidəsinin açılışında, Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün inşa olunacaq 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmir yolu və avtovağzal kompleksinin, rayonun Sarıcalı kəndinin təməlqoyma mərasimlərində iştirak ediblər.

Oktyabrın 5-də Prezident İlham Əliyev Ağdamda "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumunda çıxış etdi. Forum beynəlxalq səviyyədə keçirilən çox əhəmiyyətli tədbir kimi tarixə düşdü.

Birləşmiş Millətlər Təşkilatının şəhərsalma proqramı çərçivəsində milli şəhərsalma forumu Ağdam işğaldan azad edildikdən sonra ilk keçirilən beynəlxalq tədbir idi. Dünyanın 44 ölkəsindən, ABŞ da daxil olmaqla, bir sıra ölkələrdən 130-a qədər nümayəndənin, ümumilikdə isə 400-ə qədər şəxsin iştirak etdiyi bu forumun beynəlxalq aləmdə çox ciddi önəmi var idi.

## İlham Əliyev bütün dünya ölkələrinə örnək olacaq Ağdam qurur

Bu gün Ağdam həqiqətən də cənnətməkana çevrilməkdədir. Bir il öncə, 2021-ci il mayın 28-də, Müstəqillik Günündə yeni Ağdamın təməl daşını qoyarkən Müzəffər Ali Baş Komandan İlham Əliyevin səsləndirdiyi "Biz elə bir Ağdam quracağıq ki, bu, bütün dünya ölkələrinə örnək olsun" fikri düşmənin 27 il ərzində xarabalığa çevirdiyi Qarabağın giriş qapısı sayılan məkanın çox qısa zamanda yenidən cənnətməkana çevriləcəyinin nidası oldu.

Ağdamın strateji əhəmiyyəti, eləcə də acı mənzərəsi tikinti-quruculuq işlərinin ilk olaraq məhz buradan başlanması zərurətini yaradırdı. Bu səbəbdən də ilk baş planı təsdiqlənən şəhər Ağdam oldu. Bir il öncə Prezident şəhərin baş planına uyğun çox mühüm sosial-iqtisadi infrastrukturların təməlini qoydu.

Artıq Ağdamın bərpa, yenidənqurma, inkişaf, çiçəklənmə dövrü başlayıb. Düşmənin 30 ilə yaxın müddətdə talayıb dağıtdığı şəhərə indi yeni nəfəs gəlib. Çox keçməyəcək ki, biz azad edilmiş torpaqlarımıza ayaq basanda işğalın ağır nəticələri, ağrı-acıları ilə deyil, gözəlliklərlə, doğma yurdlarına dönmüş insanların çöhrəsindəki xoşbəxt təbəssümlə qarşılaşacağıq.

Artıq azad edilmiş elə bir ərazi yoxdur ki, orada bu və ya digər formada abadlıq-quruculuq işləri həyata keçirilməsin. İşğaldan azad edilmiş ərazilərdə 15 yol-nəqliyyat infrastrukturunun, digər kommunikasiya xətlərinin salınması, Füzuli və Zəngilan beynəlxalq aeroportlarının qısa müddətdə tikilib istifadəyə verilməsi, hazırda Laçında aeroportun tikintisinin davam etdirilməsi, elektrik yarımstansiyalarının istifadəyə verilməsi, su xətlərinin çəkilməsi, yaşayış məntəqələrinin yenidən qurulmasına başlanılması, Zəngəzur dəhlizinin açılması istiqamətində reallaşan layihələr misli görünməmiş quruculuq işləridir desək, yanılmarıq.

Son olaraq onu da vurğulayaq ki, yenidənqurma işlərindən sonra Ağdam Qarabağın ən böyük şəhəri olacaq. Keçmişlə gələcəyin, qədimliklə müasirliyin birləşəcəyi Ağdam həm də Azərbaycanın 4-cü ən böyük yaşayış məskəninə çevriləcək.

Bir sözlə, bu gün böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri həm də Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir. Çünki İlham Əliyevin bölgədə reallaşdırdığı bütün layihələri Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına həyata keçirir, yəni heç bir beynəlxalq təşkilatdan, dövlətdən maddi yardım almadan.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



## İlham Əliyev bir güllə atılmadan azad etdiyi Qarabağın giriş qapısını inkişaf və quruculuğun yeni rəmzinə çevirib







### Prezidentin 2020-2022-ci illərdə Ağdama səfərləri: təməlqoymalar, layihələrlə tanışlıq və açılışlar

***2020-ci il 23 noyabr***

* Qalib sərkərdə 27 ildən sonra Ağdamda Azərbaycan bayrağını ucaldır;
* Dövlət başçısı Məkkədən gətirdiyi Qurani-Kərimi Ağdam məscidinə bağışlayır;
* İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam məscidində dua edirlər;
* Prezident Ağdam məscidinin qarşısında çıxış edir.

***2021-ci il 28 may***

* Prezidentin iştirakı ilə Bərdə-Ağdam avtomobil yolunun təməli qoyulur;
* İlham Əliyev Ağdam şəhər meşə-parkında ağac əkir;
* Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməli qoyulur;
* Prezident Ağdam Sənaye Parkının təməlqoyma mərasimində iştirak edir;
* İlham Əliyev Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksində olur;
* Zəfər Muzeyi və açıq havada İşğal Muzeyinin layihəsi Prezidentə təqdim edilir;
* Prezident Ağdam şəhər 1 saylı orta məktəbin yeni binasının təməlini qoyur;
* İlham Əliyev Qiyaslı məscidində, Şahbulaq qalasında olur;
* Prezident Ağdam şəhərinin bərpasının təməl daşını qoyur;
* Dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşür.

***2022-ci il 13 fevral***

* Prezident "Ağdam-1", "Ağdam-2" yarımstansiyalarının açılışını edir;
* "Qarabağ" Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilir;
* İlham Əliyev Ağdam Sənaye Parkında iki müəssisənin təməlini qoyur;
* "Park Forest Otel Ağdam" mehmanxanasının təməlqoyma mərasiminə qatılır;
* Prezident və birinci xanım Mehriban Əliyeva Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olurlar;
* Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməli qoyulur;
* 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməlqoyma mərasimi olur;
* Prezident Ağdamda xüsusi nümayəndəliyin qərargahındakı şəraitlə tanış olur;
* Dövlət başçısı və Mehriban xanım Əliyeva imarət kompleksinə baş çəkirlər.

***2022-ci il, 4-5 oktyabr***

* Prezident Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olur;
* Ağdamda Atçılıq Nəsilartırma Mərkəzinin təməli qoyulur;
* İlham Əliyev Ağdamın Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin təməlini qoyur;
* Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin təməli qoyulur;
* Ağdam şəhərində "City Hotel Agdam" mehmanxanasının layihəsi ilə tanışlıq;
* İmarət kompleksində görüləcək işlərlə tanışlıq;
* Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışı olur;
* Keçmiş məcburi köçkünlər üçün yaşayış məhəlləsinin təməli qoyulur;
* Prezident dəmir yolu və Avtovağzal Kompleksinin təməllərini qoyur;
* Prezidentin iştirakı ilə Ağdamda Azərbaycan Milli Şəhərsalma Forumu keçirilir.









# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Biz cahana sülh arzulayan xalqıq

**Yer kürəsi sınaq qarşısındadır. Təbii fəlakətlər, müharibələr, mənşəyi məlum olmayan xəstəliklər sanki planetimizi imtahana çəkir... Bir yandan da ərzaq təhlükəsi, qiymətlərin bahalaşması qara bulud kimi dünyanın başının üstünü almaqdadır.**

Hətta BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesabatında qeyd olunur ki, 2022-2023-cü illər ərzində postsovet məkanında ərzaq təhlükəsizliyi ilə bağlı vəziyyət gərgin olacaq. Proqnozlara görə, gələn il dünyada taxıl ehtiyatının həcmi tələbatı ödəmək üçün kifayət etməyəcək.

İddialara görə qlobal ərzaq çatışmazlığının kökündə əsasən iqlim faktorları durur. Planetimizdə baş verən anormal hava şəraiti, daşqınlar, şaxtalı hava, ardınca da gələn quraqlıqlar məhsuldarlığın əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb olub. Deyilənlərə görə, Avropa iqlim böhranının bir addımlığındadır. Bu qədim qitə son 500 ilin ən pis quraqlığı ilə üzləşə bilər. İqlim faktoru, təbiətdə baş verən kataklizmlər də öz yerində... Dünyada yaranan ərzaq böhranının daha bir tutarlı səbəbi də dünyada baş verən müharibələrdir. Dünyanın taxıl, ərzaq təminatında müstəsna rolu olan iki dövlət - Rusiya və Ukrayna arasında müharibə gedir. Heç kimə sirr deyil ki, əslində, böyük dövlətlər arasında gedən müharibələr iqtisadi resursları ələ keçirmək uğrundadır.

Biz bu gün təbiətdə baş verən kataklizmlərin cəmiyyətdə daha qabarıq şəkildə özünü büruzə verdiyini müşahidə etməkdəyik. Təbiətlə cəmiyyət arasında sıx vəhdət olduğu açıqca hiss olunur. Yer kürəsi qaynar qazana bənzəyir. Dünyanın əksər yerlərində silahlar partlayır, qan tökülür, günahsız insanlar həlak olur. Dünyanı idarə etmək iddiasında olanlar bu gün hələ ki, bir-biri ilə silahların dili ilə danışırlar.

Nə qədər qəribə səslənsə də, belə bir durumda real sülh çağırışları türk xalqlarından gəlir. Dünyanı həm ərzaq, həm də müharibə təhlükəsindən xilas etmək üçün real işi birmənalı olaraq türk dövlətləri görürlər. Reallıq bundan ibarətdir ki, dünyanın heç bir yerində türk xalqları bir-biri ilə və əslində, heç kimlə də vuruşmurlar. Dünyada "parçala və hökm sür" siyasətinin at oynatdığı ağır bir zamanda türk dovlətlərinin birlikləri yaranır...



Ümumiyyətlə, türkün xislətində qan tökmək yoxdur. Yurda sülh, cahana sülh arzulayan, bu yöndə fəaliyyət göstərən xalqlarıq. Barış üçün çalışdığımızı dünya yaxşı bilir və dərk edir.

İllər idi ki, xalqımız Azərbaycanın müstəqilliyini istəməyən, Cənubi Qafqazda ikinci bir qüdrətli türk dövlətinin olmasını gözü götürməyən qüvvələrin birbaşa himayəsi ilə müharibəyə cəlb olunmuş, torpaqlarımızın böyük bir hissəsi Ermənistan tərəfindən işğal edilmişdi. Ermənilərin törətdikləri bütün qeyri-insani hisslərə baxmayaraq, Azərbaycan həmişə problemi sülh yolu ilə həll etməyə çalışıb. Ən son məqama, yəni 44 günlük Vətən müharibəsi başlanan günə kimi sülhün tərəfdarı olduğumuzu hər an təkcə sözdə yox, işdə sübut etmişik. Lakin Ermənistan tərəfi bunu heç vaxt başa düşüb düzgün dəyərləndirə bilməyib. Qan ermənilərin gözünü örtmüşdü. Mənəm-mənəmlik hissi onlara reallığı dərk etməyə, dəyərləndirməyə imkan vermirdi. Nəticədə hamımızın yaxşı bildiyi və gözlədiyi hadisə oldu. Biz haqq mübarizəmizi zəfərlə başa vurduq.

Ermənilərin bizi haqsız münaqişəyə cəlb etdikləri bu illər ərzində daim ətrafımızda türk dövlətlərinin birliyini gördük. Haqlı mübarizəmizdə qardaş türk dövlətləri hər zaman bizə dəstək verdilər. Təhdidlərə baxmayaraq, ərazi bütövlüyümüzə hər an hörmətlə yanaşdılar. Bir sözlə, bizi siyasi meydanda tək qoymadılar.

Bu gün dünyanın siyasi xəritəsində ciddi dəyişikliklər getdiyi bir zamandayıq. Bəzi dövlətlər dünyada ağalıq, hegemonluq etmək uğrunda bir-biri ilə mübarizə-dədirlər. Belə bir məqamda hər kəs dostunu, düşmənini müəyyən etməyə çalışır. Sevindirici faktdır ki, dünyanın belə qarışıq vaxtında türk dövlətləri də ortalığa prinsipial mövqe qoyublar. 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türk Dövlətləri Təşkilatının yaradılması barədə qərar qəbul edildi. Bu qərar dünyada türk dövlətlərinin birliyi, inteqrasiyası istiqamətində atılan çox böyük tarixi hadisə oldu. Türk Dövlətləri Təşkilatında (TDT) Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan təmsil olunur. Türkmənistanla Macarıstan isə müşahidəçi statuslu üzvlərdir.

Dünyada ciddi dəyişikliklərin baş verdiyi, təhdidlərin, müxtəlif çağırışların qapını döydüyü bir vaxtda türk dövlətləri arasında belə birliyin yaranması olduqca vacib və labüd idi. TDT-yə üzv dövlətlər arasında iqtisadi nəqliyyat, humanitar sahədə əməkdaşlıq var.

Burada bir məsələni də qeyd etməyi vacib bilirik. Türk dövlətlərinin birliyi heç kimi narahat etməməlidir. Bu birlik kimə və kimlərəsə qarşı yaranan birlik deyil. Türklər harada olublarsa, orada ədalət olub, qanun hökm sürüb. Dünyada türk bayrağı dalğalandığı yer sülhün, əmin-amanlığın olduğu yerdir. Bunu sübut etmək üçün çox da uzağa getmək lazım deyil. Ermənilər işğal etdikləri Azərbaycan torpağını 30 ildə viran etmişdilər. Azərbaycan işğaldan azad etdiyi əraziləri iki ildə cənnətə döndərir. Fransızlar işğal etdikləri Əlcəzairdə 10 milyondan çox günahsız insanı qətlə yetiriblər, türklər dünyanın üç qitəsinə ədalət aparıblar.

Elə bu gün də dövlətimizin başçısı yenə müdriklik göstərib humanistlik edərək məğlub Ermənistana 5 bənddən ibarət sülh təklifi edib. Bütün münaqişələrin sonu sülhlə tamamlandığı kimi, biz də sülh istəyirik. Bu, bizdən daha çox ermənilərə lazımdır. Qardaş Türkiyə Ermənistanın bütün pis niyyətlərinə, Türkiyənin əleyhinə illərdir apardıqları qəbuledilməz təbliğata baxmayaraq, dostluq əli uzadır, barış təklif edir. Ermənilərin dostu olan dövlətlər isə özləri kimi hiylə işlədirlər. Erməniləri silahlandırıb, yenə müharibə, münaqişə ocağını alovlandırmaq istəyirlər.

Qətiyyətlə qeyd edə bilərik ki, türk dünyasının birliyinin möhkəmlənməsində Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin, Prezident Rəcəb Tayyib Ərdoğanla dövlətimizin başçısı İlham Əliyevin sarsılmaz dostluğunun müstəsna rolu var. Bu birlik getdikcə qüdrətlənəcək, qüvvətlənəcək, dünyada sülh, barış istəyən insanlara xoşbəxtlik gətirəcək.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Böyük Zəfər əbədi dönüşlə davam edir

### Azad etdiyimiz ərazilərimizə sülh və qurub-yaratmaq üçün qayıdırıq

**Müstəqilliyimizin ömrü təxminən bir qərinəyə - 33 ilə yaxın olsa da, dövlətimiz bu kiçik zaman kəsiyində əsrlərin inkişafına bərabər möhtəşəm döyüş və bənzərsiz quruculuq yolu keçmişdir. Erməni faşistlərini darmadağın etdiyimiz gündən üzü bəri işğaldan azad edilmiş ərazilərdə bərpa işləri bir an belə səngimir. Budur, artıq qələbəmizin özü qədər sanballı və zəruri sənəd - işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışa dair birinci dövlət poqramı işıq üzü gördü.**

Faşizmin qızdırmasında çabalayan Ermənistan hələ də məglubiyyətinin fəlsəfəsini və çökdüyü uçurumların dərinliklərini anlamır, kapitulyasiya aktını müticəsinə imzalasa da, yenə də yanlarını yerləşdirməyə "etibarlı" qucaq axtarışındadır. Biz bütün gücümüzlə gələcəyə səmtlənirik, onlar isə hələ də məğlubiyyətlərinin bataqlıqlarına çökərək mifik qələbələrinin uydurma bayraqlarını axtarırlar. Heç kim erməni xalqını almanları faşizmin caynağından alan kimi almayacaq. Ona görə də onlar hələ də onilliklər boyu faşizmin girdabında çabalamağa məhkumdurlar. Onlar güc mərkəzlərinin vassal imtiyazlarını namuslarına bələyib sürünməyi azadlıqdan üstün tuturlar. İki ildir ki, hayana süründükləri, kimlərin ayaqlarına düşdükləri və nə umduqları heç özlərinə də bəlli deyil. Amma unudurlar ki, elə onların məğlubiyyəti üz tutduğu ünvanlardadır.

Biz öz məqsədlərimizi və perspektivlərimizi aydın görən bir xalqıq. Ermənilər isə hələ də bir neçə əsr əvvəl olduğu kimi, Şərqlə Qərb arasında qoruyucu kəmər, sipər rolunu oynamaq eşqindədirlər. Dərk etmədikləri odur ki, reallıqlar fərqlidir, türk kəməri daha etibarlıdır və artıq erməni hoqqasına ehtiyac yoxdur. Bu gün dünyada yaşayan ermənilərin təxminən 5 milyonundan çoxu ABŞ, Fransa və Rusiyada yerləşib. 30 illik "miatsum" onunla nəticələnib ki, Qafqazda ermənilərin sayı təxminən 3 dəfə azalıb. Ermənilər bir 10 il də "böyük Ermənistan" uğrunda belə "döyüşsələr", təbii ki, Qafqazda hətta nümunə üçün erməni tapmaq asan olmayacaq. Beləliklə, "böyük Ermənistan" uğrunda gedən müharibələrin döyüş səhnələri Qafqazdan Rusiyaya, Fransaya və ABŞ-a adlayacaq. Faşizmin xisləti belədir ki, onun əbədi düşmənləri olmalıdır və bu düşmənlə mübarizə aparmaq üçün o, nə qədər yaxında olsa, siyasi dirənmələr də bir o qədər zəngin görünəcək.

Biz fərqli xalqlar və mədəniyyətlərin sahibiyik. Azərbaycan Respublikası Prezidenti hələ 2021-ci il 2 fevral tarixində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i təsdiq etmiş və digər mühüm sənədləri imzalamışdır.

Bütün qəbul edilən sənədlər, sərəncamlar və proqramlar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərin inkişafına təkan vermək məqsədi daşıyır. Bu baxımdan dövlət başçısının yeni imzaladağı sonuncu sənəd "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizinin 30 ilə yaxın müddətdə Ermənistan respublikası tərəfindən işğal altında saxlanılması, işğal dövründə bu ərazilərdə bütün şəhərlərin və yaşayış məntəqələrinin, o cümlədən infrastruktur obyektlərinin, zavodların, fabriklərin, müəssisələrin, məscidlərin, müzeylərin, məktəblərin, ümumiyyətlə, bütün tikililərin dağıdılması, milli-mədəni irsimizin kökündən məhv edilməsi Azərbaycan iqtisadiyyatına milyardlarla ziyan vurmuşdur.

Dövlət başçısının imzaladığı sərəncamda qeyd olunur ki, bu günədək həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsi, əhalinin dayanıqlı məskunlaşması, davamlı iqtisadi fəallığın əldə edilməsi istiqamətində müsbət tendensiyaların özülünü qoymağa imkan vermişdir. İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək məqsədilə sərəncamda işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilir, azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahına işlərin səmərəli icrası həvalə olunur.

Nazirlər Kabinetinə Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və hesabatlılığı həyata keçirmək, tədbirlərin icrası ilə bağlı ildə iki dəfə hesabatın hazırlanması tapşırılır. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il müvafiq olaraq dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görməlidirlər.

Proqramın özündə nəzərdə tutulan ən vacib məqamlardan biri prioritet istiqamətlərin təyin edilməsi ilə bağlıdır. Burada Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılması, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bölgənin tarazlı və dayanıqlı inkişafına nail olunması önə çəkilir. Əsas prioritet istiqamətlərə ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili, ərazilərin minalardan və digər hərbi sursatdan təmizlənməsi, daşınması və zərərsizləşdirilməsi, minaların və partlamamış hərbi sursatın təsirinə məruz qalmış ərazilərin nişanlanması kimi vacib işlər nəzərdə tutulur. İşğaldan azad edilmiş ərazilərdə dövlət sərhədinin mühafizəsi və müdafiəsinin, eləcə də polis nəzarətinin təşkili, ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təminatı önə çəkilir. Bütün yenidənqurma, bərpa və şəhərsalma işlərində qabaqcıl urbanizasiya modellərinin tətbiqi, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcək şəhərsalma prinsipləri nəzərə alınacaq.

Dövlət proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə insan kapitalının inkişafı sahəsində sosial xidmətlər şəbəkəsinin - səhiyyə, sosial müdafiə, mədəniyyət və idman, məktəblər və məktəbəqədər uşaq-tərbiyə müəssisələrinin qurulması və digər ictimai xidmətlərin təşkilinə xüsusi diqqət yetirilir. Tarixi abidələrin bərpası və qorunması işinin təşkili vacib məsələlərin sırasındadır.

Ərazilərdə məskunlaşacaq əhali üçün layiqli həyat şəraitinin təmin edilməsinə xüsusi diqqət yetiriləcək, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıdışı, təhlükəsizlik məsələlərinin həlli, yaşayış yerlərinin, zəruri infrastrukturun və sosial xidmətlərin təmin olunması da vacib tədbirlərin sırasındadır.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

Fotomüxbirin albomundan

# "AĞDAM ÇƏKDİYİM FOTOLARDAKI KİMİ XƏYALIMDA FÜSUNKAR QALIB"

















"Hələ işğal olumamışdan əvvəl Ağdama dəfələrlə getmişəm. Qarabağın bu qədim şəhərinin gözəlliklərini fotolentin yaddaşına köçürmüşəm, Çörək, Tarix-diyarşünaslıq muzeylərini, tarzən Qurban Pirimovun Xatirə Muzeyini, Ağdam Şəkil Qalereyasını çəkmişəm... İndi isə bir televiziya ekranından yerləyeksan olmuş Ağdama, bir də 30 ilin o üzündə çəkdiyim həmin şəkillərdəki abad Ağdama baxıram. Ürək ağrısı ilə görürəm ki, daha Ağdam o Ağdam deyil..."

O, 80 illik həyatının böyük hissəsini - 60 ilə yaxınını fotojurnalistliyə həsr edib. Bu dünyanın çox ecazkar mənzərələrini, çox acılı-şirinli anlarını həm fotolentin, həm də ruhuna, beyninin yaddaşına həkk edib. Özü isə hər zaman deyir ki, "Vladivostokdan Anqolayacan, Pribaltikadan Orta Asiyayacan çox yerlər gəzmişəm, amma Azərbaycanın bölgələrindən hazırladığım fotoreportajlar mənim üçün daha doğma olub. Xüsusilə də Qarabağdan, Ağdamdan".

Əməkdar incəsənət işçisi, "Azərbaycan" qəzetinin təqaüdə çıxmış keçmiş əməkdaşı Ağaəli Məmmədov danışır ki, hələ sovet illərində dəfələrlə Ağdama fotoreportajlar hazırlamağa gedib: "İldə iki dəfə Ağdama ezamiyyətə gedirdim. Kənd təsərrüfatı, o zaman Ağdamda aparılan quruculuq işləri ilə bağlı fotoreportajlar hazırlayırdım. Ağdam bazarından, Çörək Muzeyindən, Xalçaçılıq fabrikindən, məşhur Çay evindən demək olar ki, Ağdamın bütün gəzməli, görməli yerlərindən şəkillər çəkmişəm. Ağdamın kəndlərindən, o cümlədən səfalı və füsunkar təbiətli Gülablıdan da fotoreportaj hazırlamışam. Kənddə "Gülablı" adlı möhtəşəm sanatoriya da tikilmişdi və dünyanın hər yerindən insanlar ora dincəlməyə gəlirdilər. Bu sanatoriyadan xatirə olan xeyli fotolar çəkmişəm".

A.Məmmədov deyir ki, Ağdamda 1988-89-cu illərdə, Qarabağda hadisələrin ən qızğın zamanlarında da, sonuncu dəfə isə 1992-ci ildə "Xarıbülbül" festivalı keçiriləndə olub: "Həmin vaxt gördüm ki, daha Ağdamın o cah-cəlalından əsər qalmayıb, onun ağır günlərini çəkmək mənim üçün çox əzabverici idi".

O, işğaldan sonra yenə də Ağdamın Azərbaycanda olan ərazilərinə ezamiyyətə gedib, fotolar çəkib, amma çəkdikləri heç cür ürəyinə yatmayıb: "Axı bu həmin Ağdam deyildi... Amma bilirdim ki, o gün gələcək ki, Ağdamı Gülablıdan Şelliyəcən, Kolanıdan Paprəvəndəcən qarış-qarış çəkəcəm, özü də daha heç vaxt o şəkillərdə qəm, kədər öz əksini tapmayacaq..."

Qocaman fotojurnalist Zəfərdən sonra televiziya ekranlarında Ağdamın yerləyeksan olunan kadrlarına baxdıqca qəhərlənir, bir zamanlar ev-ev, küçə-küçə hər qarışına bələd olduğu bu əsrarəngiz şəhərin tanınmaz hala düşdüyünə yanıb yaxılır: "İllər əvvəl Ağdamda Cümə məscidinin qülləsinə çıxaraq şəhəri başdan-başa çəkmişdim. Ağdam bütün görkəmi ilə bu fotolarda əks olunmuşdu. İndi o Ağdamdan əsər-əlamət qalmayıb".

Amma Ağaəli Məmmədov sevinclə əlavə edir ki, Azərbaycan dövlətinin bütün işğaldan azad edilən ərazilərimizdə olduğu kimi, Ağdamda da apardığı tikinti, quruculuq işləri Qarabağın bu qədim şəhərinin əzəmətini yenidən özünə qaytaracaq: "Bu gün oxucularımla paylaşdığım şəkillər Ağdamın illər əvvəlki bəxtəvər, qayğısız, həm də dar günündə çəkdiyim fotolarıdır. Qismət elə gətirib ki, mən həm Ağdamın ən xoşbəxt, kədərli anlarının şahidi, həm də o anları donduraraq tarixin yaddaşına çevirən biri olmuşam. Şükürlər olsun ki, Ağdamın azadlığını görmək qismətim oldu. İndi isə bir arzum var, yaşımın bu çağında yenidən Ağdama gedib orada yaşanan Zəfər qürurunu, gerçəkləşdirilən abadlıq işlərini də fotolentə köçürərək tariximizin fəxarətli yaddaşına həkk edim".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*









# Laçınlı müəllimlər dövlət başçısına minnətdarlıqlarını bildirirlər

**Dövlətimiz düşmənin viran qoyduğu yurd yerlərini yenidən cənnətə, gülüstana çevirir. Erməni vandallarının dağıtdıqları mədəniyyət abidələrini, məscidləri, məktəbləri bərpa edib yenidən həyata qaytarır. Bayrağımızı Laçında ucaldarkən dövlət başçısı qətiyyətlə demişdir: "Fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi olaraq dalğalanacaq! Biz burada əbədi olaraq yaşayacağıq. Yaşasın Laçın! Yaşasın Azərbaycan!" İndi Laçına dönüş üçün sürətli iş aparılır. Laçının bərpasına yol, işıq çəkməklə, yeni hava limanının tikintisi ilə başlanmışdı. Dövlət başçısı Laçın şəhəri 2 nömrəli tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında sərəncam imzalamışdı. Laçın şəhərində bərpa və quruculuq işlərinə ilk olaraq məktəbdən başlanmasının da bir rəmzi mənası var. Bununla Azərbaycan dövləti sülhə sədaqətini, gələcəyimiz olan uşaqlara dövlətin qayğısını nümayiş etdirir.**



Laçın şəhər 2 nömrəli tam orta məktəbin əsaslı təmiri və bərpası haqqında verilmiş sərəncamı laçınlı ziyalılar tezliklə doğma torpaqlarına qayıdacağı günün müjdəsi hesab edirlər. Bizimlə söhbətində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Şərqi Zəngəzur Regional Təhsil İdarəsi təhsil sektorunun müdiri Nicat Həsənov dedi ki, Laçından çıxanda mənim 11 yaşım var idi. O vaxt birdən silah səsi, barıt qoxusu toz dumana qarışdı... Canımızı götürüb hara qaçacağımızı bilmirdik. Çox ümidsiz idik. Ayaqyalın, başıaçıq qaçırdıq. O zaman mən Laçın şəhər 1 nömrəli orta məktəbdə oxuyurdum. Laçın şəhəri, Poçt küçəsi - Prezidentimizin qururla addımladığı o küçə gözümün önündən heç getməyib. O yerləri gözəl xatırlayıram. Laçın uşaqlıq illərimizin gözəl xatirələri, atalı-analı günlərimizlə yadımızda qalıb. Atam həsrətə dözməyib dünyasını dəyişdi. Üç qardaş bizə dövlətimiz sahib çıxdı. Bizi oxutdu, ixtisasımıza uyğun iş verdi.

N.Həsənov deyir ki, bütün laçınlılar qələbəmizin nəticəsi, Prezidentimizin qətiyyəti olaraq Laçın şəhərində bayrağımızın ucaldılmasını, Laçın şəhərində bərpa işlərinə məktəb tikintisi ilə start verilməsini dövlətimizin təhsilə, gələcəyimizə olan xüsusi diqqəti kimi qəbul edirik. Bu, bizi ikiqat sevindirir. Erməni vandalları Laçında olan 104 məktəbi, məktəbəqədər müəssisələri, uşaq bağçalarını, kitabxanaları, mədəniyyət abidələrimizi dağıdıb məhv ediblər. Onlar o torpaqda yaşamayacaqlarını, o yerlərin əsl sahiblərinin əvvəl-axır qayıdacaqlarını bildikləri üçün belə vəhşiliklər ediblər. Sevinirik ki, tezliklə ermənilərin uçurub dağıtdıqları yurd yerlərimizi, məktəblərimizi bərpa edib doğma torpaqlarımıza qayıdacağıq. Bizə bu sevinci yaşadan, Laçında qalibiyyət bayrağını ucaldan Prezidentimizə laçınlı müəllimlər, ziyalılar adından minnətdarlığımı bildirirəm.

Laçın şəhər 2 nömrəli orta məktəbin riyaziyyat müəllimi Sevinc Etibar qızı Əhmədova bizimlə sevincini bölüşərək dedi:

- Bir zamanlar orta təhsil aldığım 2 saylı Laçın şəhər orta məktəbində sonralar riyaziyyat müəllimi kimi fəaliyyət göstərmişəm. Uşaqlıq, gənclik xatirələrim oralarda qalıb. Düzünü deyim ki, bir də o torpaqlara qayıdacağımıza, orada işləyəcəyimizə inanmırdım. Sanki birdən-birə möcüzə baş verdi. İndi bir vaxtlar bizə yuxu, xəyal kimi gorunən gozəl hisslərlə yaşayiram. Dogulub boya-başa catdıgım, qaygisiz uşaqlıgımı yaşadığım Lacın azaddır. Hamımız dogma Lacınımızı gorməyi, orada goruşməyi səbirsizliklə gozləyirik. Torpaqlarımızın azadlıgı ugrunda canından kecən vətən ogullarının ruhu qarşısında baş əyirik. Qazilərimizə cansaglıgı arzulayiram. Lacin şəhər 2 nomrəli məktəbin əsaslı təmiri və bərpasi butun lacınlılar üçün və məktəbin məzunları, həmin məktəbdə işləyən müəllimlər ucun gözəl xəbər oldu. 2 nomrəli məktəbin müəllim və şagirdləri adından Ali Baş Komandanımıza təşəkkürümüzü bildiririk.

Laçın şəhər 2 nömrəli məktəbin pisixoloqu Zəminə Şükür qızı Şahsuvarova:

- Bu gün mən çox qürurluyam. Ali Baş Komandanımızın siyasi iradəsi və qətiyyəti ilə Laçın düşməndən azad edilib. İllərlə xəyalı ilə yaşadığımız, yuxularımızda gördüyümüz Laçın artıq öz qollarını bizə açıb.

Bizim Böyük qayıdışa səbirsizliklə hazırlaşdığımız bir vaxtda Prezident İlham Əliyevin Laçın şəhər 2 saylı tam orta məktəbin bərpası və yenidən qurulması ilə bağlı imzaladığı sərəncam sevincimizi ikiqat artırdı. Mən Laçın şəhər 2 saylı tam orta məktəbin məzunu olmuşam. İndi isə həmin məktəbdə psixoloq işləyirəm və çox sevinirəm ki, pedaqoji kollektivlə birlikdə doğma məktəbimizə qayıdacağam. Bizə bu gözəl hissləri yaşatdığına görə Ali Baş Komandanımıza öz dərin minnətdarlığımı bildirirəm. Vətən uğrunda canından keçən şəhidlərimizə rəhmət diləyir, qazilərimizə şəfa arzulayıram. Biz Prezidentimizin bizə olan bu qayğısına cavab olaraq üzərimizə düşən vəzifəmizi layiqincə yerinə yetirərək Vətənimizə, ölkəmizə layiqli, savadlı, vətənpərvər gənclərin yetişməsində var gücümüzlə çalışacağıq.

Birinci Qarabağ savaşında Laçın uğrunda canını fəda etmiş Milli Qəhrəman Oqtay Güləliyevin və 44 günlük Vətən müharibəsində şəhid olmuş leytenant Rəşad Sadıqovun əziz xatirəsi qarşısında baş əyirəm. Onlarla bu gün təkcə məktəbimiz yox, bütün ölkə vətəndaşları fəxr edirlər.

Bizə bu sevinci yaşadan Azərbaycan Ordusuna, bu ordunu quran, ona sərkərdəlik edən Müzəffər Ali Baş Komandana ailəm adından minnətdarlığımı bildirirəm.

Laçın şəhər 2 nömrəli məktəbin ibtidai sinif müəllimi Könül Yusif qızı Abdullayeva:

- 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu tarixi zəfər qazandı. Bu tarixi zəfər eyni zamanda xalqın inamını özünə qaytardı, öz liderinə etibarını daha da artırdı. Bu xoşbəxtliyi, qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli ordumuz yaşatdı.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizin bərpası ilə bağlı indiyə kimi bir çox sərəncamlar verib. İmzaladığı bir sərəncam isə bizi - laçınlıları daha çox sevindirdi. Çünki bu sərəncam doğma məktəbimiz - Laçın şəhər 2 nömrəli tam orta məktəbin binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı oldu. 1981-ci ildən həmin məktəbdə işləyən bir müəllim kimi şəxsən öz adımdan və məktəbin bütün kollektivi adından Ali Baş Komandamız İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk. Doğma Laçında böyük qürur hissi ilə "Zəfər tariximizi" şagirdlərimizə öyrədəcəyimiz günü səbrsizliklə gözləyirik.

Laçın rayon 21 saylı məktəbin direktoru Aygün Kərimova:

- 30 ildir ki, vətən həsrəti ilə yaşadığımız, dağlar qoynunda yerləşən, gözəlliyi ilə aləmə səs salan, hər daşında bir sirr yatan Laçın 44 günlük Vətən müharibəsi nəticəsində düşmən işğalından azad edilib. Bu qələbə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində baş verdi. Artıq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və birbaşa nəzarəti altında Laçında bərpa-quruculuq işləri sürətlə həyata keçirilir. Laçın zəngin və ecazkar təbiəti ilə doğma Vətənimizin şanlı tarixini qəlbində yaşadan tarixi bir diyardır. Biz Laçına yenidən həyat verəcəyik. Biz Laçına yenidən nəfəs gətirəcəyik, onu yenidən abadlaşdıracağıq. Bu yolda artıq böyük addımlar atılır.

Laçının gözəl, xoşbəxt günlərinin qayıdışına çox az qalıb. Müəyyən müddətdən sonra o yerlərdə məktəblilərin gülüş səsi eşidiləcək, sinif otaqlarında Dövlət himnimiz oxunacaq. Yolunda yüzlərlə canın qurban getdiyi Laçına baxıb deyəcəyik: "Ay Laçın, can Laçın! Can sənə qurban Laçın!"

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*




# Futbol bayramı başlayır

## Qətər-2022 mundialı bu gün start götürür









**Bu gün - 2022-ci il 20 noyabr təqvim günü - dünya futbol ictimaiyyətinin 4 il gözlədiyi idman bayramına Qətərin Əl-Hor şəhərindəki 60 min tamaşaçı tutumu olan "Al-Bayt" arenasında Qətər-Ekvador oyunu ilə start verilir. Futbol üzrə dünya çempionatını keçirən ilk ərəb ölkəsi kimi tarixə düşən Qətər dekabrın 18-dək diqqət mərkəzində olacaq.**

Monarxiya bu hüququ hələ 2010-cu ildə alıb. Bu müddət ərzində turnirə hazırlığa nə qədər vəsait xərcləndiyini dəqiqliklə söyləmək çətindir. Hesablamalarda qeyri-müəyyənliyə səbəb Qətər hökumətinin dünya çempionatı ərəfəsində xərclədiyi pulların böyük əksəriyyətinin qeyri-futbol infrastrukturuna - yeni metropoliten sisteminin, hava limanının və yolların, 100-ə yaxın hotel və istirahət mərkəzlərinin tikintisinə sərf olunmasıdır. Bu investisiya layihələrinin əksəriyyəti Qətər hökumətinin qəbul etdiyi və ölkənin 2030-cu ilə qədər milli inkişaf və modernləşmə üzrə iddialı strategiyası olan "Qatar National Vision 2030" proqramının bir hissəsidir.

Mütəxəssislərin fikrincə, istənilən halda bu, 1930-cu ildən bəri keçirilən bütün dünya çempionatları arasında ən bahalısı olacaq.

Müxtəlif ekspert hesablamalarına və hesabatlarına görə, Dohanın ümumi xərcləri 200 milyard dolları keçəcək. Müqayisə üçün qeyd edək ki, əvvəllər futbol üzrə ən bahalı dünya çempionatları 2014-cü ildə Braziliyada, 2018-ci ildə isə Rusiyada keçirilən mundiallar olub və bu yarışların hər biri təşkilatçılara təxminən 15 milyard dollara başa gəlib.

Şeffild-Hallam Universitetinin idman maliyyəsi üzrə eksperti Den Plamli "Alman dalğası" radiostansiyasına müsahibəsində deyib ki, 2010-cu ildə Qətər 2022-ci il Dünya Çempionatına evsahibliyi etmək üçün seçiləndə potensial xərc artıq 65 milyard dollar təşkil edirdi. Bəzi son hesablamalar isə hazırda onun indi 200 milyard dolları keçə biləcəyini deməyə əsas verir. Bu, hazırda rekord məbləğdir.

Öz növbəsində, Amerikanın idman maliyyəsi üzrə məsləhətçi şirkəti olan "Front Office Sports" Qətərdə keçirilən dünya kubokunun xərclərini 220 milyard dollar həcmində qiymətləndirib. Qətər-2022 Ali Komitəsinin davranış və miras üzrə baş katibi Həsən Əl-Təvadi isə infrastruktur xərclərinin 200 milyard dollardan artıq olacağını bildirib.

Plamli hesab edir ki, Qətərin nail olmaq istədiyi əsas qazanclar qeyri-kommersiya xarakterlidir: "Dünya çempionatına evsahibliyi etmək üçün əsas motivasiya beynəlxalq münasibətlərdir. Bu, həm də müdafiə və təhlükəsizlik strategiyası kimi "yumşaq güclə" bağlıdır. Pul Qətər üçün heç də problem deyil. Aydındır ki, Doha Dünya çempionatına evsahibliyi etməyə qadirdir və bununla bağlı itkiləri ödəməyə hazırdır. Bir çox cəhətdən DÇ-2022 maliyyə anomaliyasıdır".

### Futbol çempionatlarının "mirası"

Amma bu, həqiqətən də maliyyə anomaliyası olsa belə, indiki çempionat da bütün keçmiş mundiallarda olduğu kimi, "miras" məsələsini həll etməlidir. İdeya bundan ibarətdir ki, hər hansı belə turnir özündən sonra bütün cəmiyyətin həyatında uzunmüddətli irəliləyişlər saxlamalıdır və bu inkişaf dörd həftəlik futbol bayramı üçün sərf olunan böyük maliyyə xərclərinə haqq qazandırmalıdır. Bu, əksər dünya çempionatları üçün əsas çətinliklərdən biridir, lakin Qətər məsələsinə gəldikdə, xüsusilə ciddi şübhələr ortaya çıxır.

Ən aşkar problemlərdən biri stadionlardır. Dünya çempionatının oyunlarına evsahibliyi edəcək səkkiz oyundan yeddisi turnir üçün xüsusi olaraq sıfırdan tikilib. Qətər hakimiyyəti stadionların tikintisinin 6,5 milyard dollara başa gəldiyini bildirir. Lakin dünyanın ən yaxşı futbolçuları evlərinə qayıdanda, cəmi 2,8 milyon nəfər əhalisi olan bir ölkənin bu qədər böyük idman arenalarına ehtiyacı olmayacaq.

Yerli mütəxəssislərin dediyinə görə, üç stadionda futbol matçlarının keçirilməsi davam edəcək, qalan beşi isə ya söküləcək, ya başqa məqsədlər üçün yenidən qurulacaq, ya da tutumları xeyli azaldılacaq.

Liverpul Universitetinin futbol maliyyəsi üzrə eksperti Kiran Maquayr isə hesab edir ki, buna baxmayaraq, gələcəkdə Qətər Avropa Liqası və ya Çempionlar Liqasının finalları kimi böyük futbol yarışlarına evsahibliyi etmək təklifini əsaslandırmaq üçün yeni infrastrukturdan istifadə edəcək.

### Dünya kubokunun real dəyəri - əmək miqrantlarının həyatı

Lakin Dünya çempionatının xərci məsələsi son on ildə Qətərdə stadionların tikintisində çalışan miqrant işçilərin aqibətini ikinci plana çəkir. 2010-cu ildə dünya kuboku yarışını keçirmək hüququ qazandıqdan sonra Qətər xarici işçilərə münasibətinə görə insan haqları təşkilatlarının geniş tənqidi ilə üzləşib.

2016-cı ildə Amnesty International (AI) Dohanı 2022-ci il Dünya çempionatının əsas arenalarından biri olan "Xəlifə" beynəlxalq stadionunun tikintisində məcburi əməkdən istifadə etməkdə ittiham edib. Bundan əlavə, son on ildə Qətərdə minlərlə fəhlə miqrantın həlak olduğu barədə məlumatlar var.

2021-ci ilin fevralında Böyük Britaniyanın "The Guardian" qəzeti yazıb ki, 2010-20-ci illərdə Qətərdə Hindistan, Pakistan, Nepal, Banqladeş və Şri-Lankadan olan 6500 miqrant işçi dünyasını dəyişib. İnsan haqları üzrə ekspertlər vurğulayırlar ki, ölənlərin əksəriyyəti məhz Dünya çempionatı səbəbindən ölkəyə gəlib.

Qətər hakimiyyəti son illərdə əmək qanunvericiliyində müəyyən islahatlar həyata keçirib, lakin insan hüquqları müdafiəçilərinə görə, bu sahədə problemlər aktual olaraq qalır.

### FİFA yenə böyük qazanc götürəcək

Bu arada, Beynəlxalq Futbol Federasiyasına (FIFA) gəldikdə, nə əmək miqrantlarının ölümü, nə də Qətərdə Dünya çempionatının təşkili və keçirilməsinə çəkilən xərclər onun yekun qazancına təsir göstərməyəcək. Bu baxımdan ekspertlər əmindirlər ki, bu turnir də 2018-ci ildə Rusiyada keçirilən əvvəlki Dünya çempionatı kimi, FİFA üçün böyük maliyyə qələbəsi olacaq.

"FİFA üçün Dünya çempionatı hər dördillik dövr ərzində fəaliyyətini maliyyələşdirmək üçün pul qazanmaq və gəlir əldə etməkdən ibarətdir", - deyə Plamli bildirib. Mütəxəssis xatırladıb ki, FİFA-nın DÇ-2018-dən əldə etdiyi gəlir gözləntiləri xeyli üstələyib. FİFA üçün Qətər turnirindən də analoji uğur gözləyin. Bu, ev sahibi ölkəyə çoxlu pul bahasına başa gələ bilər, lakin çempionatın uğurunu təmin etmək FİFA-nın marağındadır və yəqin ki, fantastik xərclər bu beynəlxalq qurumu çox da narahat etmir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Dünya çempionatının "Qızıl fit"li hakimi



**Futbol üzrə Dünya çempionatları tarixində uğur qazananlar sırasında azərbaycanlı hakim də var. Bu Nikolay Latışevdən sonra dünya futbol çempionatında hakimlik edən ikinci sovet hakimi Tofiq Bəhramovdur (1925-1993). Onun ən böyük uğuru 1966-cı il Dünya çempionatında İngiltərə və Almaniya komandaları arasındakı final oyununda olub.**

Bu final mundialın bütün tarixi ərzində ən maraqlı və dramatik oyunlardan biri olub. Bəhramov matçın yan xətt hakimi idi. Əsas vaxt heç-heçə (2:2) başa çatıb. Qalibi müəyyənləşdirmək üçün 30 dəqiqə əlavə olunub. 110-cu dəqiqədə ingilislərin hücumçusu Herst topu almanların qapısına göndərib. Top dirəyə dəyib yerə düşüb. Oyunun baş hakimi, isveçrəli Dinst topun uçuş trayektoriyasını görmədiyindən özünü itirib. Lakin dərhal oyunun bütün taleyini üzərinə götürəcək adamı tapıb. Dinst özünün yan xətt köməkçisinə işarə edərək son sözü onun deyil, köməkçisi - sovet hakimi Bəhramovun deyəcəyini göstərib. O isə bayrağı yellədərək mərkəzi göstərməklə ingilislərdə sevinc, almanlarda isə qəzəb doğurub.

Almanlar onu əhatəyə alaraq bu qərara etiraz ediblər, lakin Bəhramov fikrindən dönməyib. Oyun davam edib, hakimin əlavə vaxtın bitdiyini bildirən fitinə az qalmış Herst bu oyun ərzində özünün üçüncü qolunu vurub. Oyun 4:2 hesabı ilə İngiltərənin xeyrinə başa çatıb.

Oyundan sonra İngiltərə Kraliçası Bəhramova "Qızıl fit"i (o vaxtadək bu mükafat yalnız meydan hakimlərinə verilirdi) və "Qızıl ilahə"nin kiçik modelini təqdim edib. Yeni "Uembli" stadionunun muzey vitrinlərinin birində Tofiq Bəhramovun bürüncdən tökülmüş heykəli yerləşdirilib.

Tofiq Bəhramov eyni zamanda Avropa kuboklarının finallarında hakimlik edən ilk sovet arbitri olub. Bundan başqa, 1972-ci ildə o, Argentinanın "İndependyente" və Hollandiyanın "Ayaks" komandaları arasında qitələrarası kubok uğrunda oyunu da idarə edib.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## "DÇ-2022"nin təqvimi

FIFA WORLD CUP Qatar2022

**20 noyabr**

*A qrupu: 20:00 Qətər - Ekvador*

**21 noyabr**

*B qrupu: 17:00 İngiltərə - İran*

*A qrupu: 20:00 Seneqal - Niderland*

*B qrupu: 23:00 ABŞ- Uels*



# Azərbaycanın Pelesi

**Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da futbolun zəngin tarixi və ənənələri olub. XX əsrdə Azərbaycanda dünya səviyyəli futbolçular, məşqçilər və hakimlər yetişib. Belə futbolçulardan biri də Anatoli Banişevski (1946-1997) idi. O, peşəkar karyerası ərzində "Neftçi" komandasında çıxış edib, qısa müddət ərzində vurduğu qollarla azarkeşlərin sevimlisinə çevrilib. Burada parlaq oyun nümayiş etdirən hücumçu 19 yaşında SSRİ milli komandasına cəlb edilib. Tezliklə o, məşqçilərin ümidlərini doğruldaraq yığmada keçirdiyi 3-cü oyununda 3 dəfə fərqlənib.**




Eyni zamanda Banişevski Dünya çempionatında iştirak edən ilk azərbaycanlı futbolçu kimi tarixə düşüb. O, 1966-cı ildə İngiltərədə təşkil olunmuş mundialda SSRİ yığmasının formasını geyib. Qrup mərhələsi çərçivəsində keçirilən SSRİ-Şimali Koreya matçı Azərbaycan futbol həvəskarlarının diqqət mərkəzində olub. Çünki koreyalılara qarşı oyunda qol vuran Banişevski həm də böyük hesablı qələbənin təməlini qoyub - 3:0.

Turnirin 3-cü yer uğrunda keçirilmiş Portuqaliya-SSRİ matçının oyun protokolunda qolun müəllifi kimi bir futbolçunun, mətbuatda isə digərinin adı yazılmışdı. Bu hadisə Azərbaycan futbolunun əfsanəvi siması Anatoli Banişevskinin başına gəlmişdir. Həmin görüşdə Anatolinin də formasını geydiyi SSRİ yığması Portuqaliya seçməsinə 1:2 hesabı ilə uduzur, oyunda komandasının yeganə qolunu Banişevski vurur.

Bunu illər sonra oyunun televiziya görüntüləri əsasında Rusiyanın "Sport-Ekspress" nəşri topu portuqaliyalıların qapısından Banişevskinin keçirdiyini dəqiqləşdirmişdir. Bu fakt adıçəkilən qəzetin, eyni zamanda "Sovetski sport"un DÇ-2012 üçün nəşr etdirdikləri xüsusi buraxılışlarında da öz əksini tapmışdır.

Bütün bunları nəzərə aldıqda Banişevskinin SSRİ yığmasında ümumilikdə, əksər mənbələrdə yazıldığı kimi, 19 deyil, 20 qol vurduğu məlum olur. Lakin bir çox mənbələr isə qolun müəllifi kimi Malofeyev və ya Metrevelinin adını yazır.




Banişevskiyə "Azərbaycanın Pelesi" də deyirdilər. Vaxtilə SSRİ yığma komandasının tərkibində Braziliyaya qalib gələndən sonra məşqçilər "Neftçi"nin hücumçusundakı fitri istedadı görüb qəzetlərə müsahibə verərək deyirmişlər ki, biz Banişevskini məmnuniyyətlə komandamıza dəvət edərdik. Jurnalistin "Banişevskinin gəlməsi üçün nə qədər pul verərdiniz" sualına "Onun qiyməti yoxdur…" cavabını vermişdilər.

*E.CƏFƏROV,*
*"Azərbaycan"*

# Gəncədə şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 30 mənzil təqdim edildi








Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Gəncə şəhərində şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 30 mənzil təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Mənzil İnşaatı Dövlət Agentliyinin Gəncə yaşayış kompleksində yerləşən tam təmirli mənzillərdə ailələrin rahat yaşaması üçün hər cür şərait yaradılıb.

Mənzillərin sənədlərinin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov iştirak ediblər.

Tədbirdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırıqlarına uyğun olaraq şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin genişmiqyaslı sosial dəstək tədbirləri ilə əhatə olunduğu vurğulanıb.

Bu tədbirlər çərçivəsində artıq 119 min şəxsə sosial dəstəkyönümlü 249 min xidmət göstərildiyi bildirilib.

Qeyd olunub ki, 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 4100-ə yaxın, ümumilikdə ötən dövrdə 13 mindən çox mənzil və fərdi ev təqdim edilib.

2022-ci il üzrə də 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, artıq 1100-ə yaxını təqdim edilib.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatı tədbirləri çərçivəsində onlara postmüharibə dövründə 300-dən çox, ümumilikdə ötən dövrdə 7500-dən artıq avtomobil verilib.

Yeni mənzillə təmin olunan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər daima dövlət qayğısı ilə əhatə olunduqlarına, bu gün isə mənzillə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Kanada mətbuatında Fransa Senatının ədalətsiz qərarı pislənilib

Kanadanın nüfuzlu "Thej.ca" yəhudi media platformasında "Fransa Azərbaycana deyil, İrana qarşı sanksiyalar tətbiq etməlidir" sərlövhəli məqalə dərc olunub.


THEJ.CA HOME SUBSCRIBE SUPPORT US CONTACT

France Should Apply Sanctions On Iran, Not Azerbaijan

One-sided resolution purported to "incentivize sustainable peace"



The French Senate recently voted to impose sanctions on Azerbaijan by a vote of 295 to one. The resolution proposed sanctions on Baku over "attacks" on Armenia and "aggression against Karabakh."

Following these developments, Russian analyst Igor Korotchenko said that the French Senate should be renamed the French Armenian Diaspora Senate: "Money does not smell. Apparently, each of those senators who voted for was guided by this thesis. As you know, in France, even ex-presidents work as consultants for Armenian billionaires. See the example of Sarkozy. He took bribes from Libya as president. What about Macron?"

AZƏRTAC xəbər verir ki, tanınmış israilli politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın qələmə aldığı məqalədə Fransa Senatının Azərbaycana qarşı qəbul etdiyi məlum sənədlə bağlı rusiyalı analitik İqor Korotçenkonun Fransa Senatının adının dəyişdirilərək Fransa Erməni Diasporu Senatı adlandırılmasının zəruriliyinə dair fikirləri yer alıb: "Pulun qoxusu olmur. Görünür, səs verən senatorların hər biri bu tezisi rəhbər tutub. Bildiyiniz kimi, Fransada hətta eksprezidentlər də erməni milyarderlərə məsləhətçi işləyirlər. Sarkozinin nümunəsinə baxın. O, prezident kimi Liviyadan rüşvət alıb. Bəs Makron?"

Məqalədə "Ev Kilsəsi Hərəkatı"nın iranlı xristian lideri, keşiş Səid Abedinə də istinad edilib: "Mən İranda insan haqlarının vəziyyəti ilə bağlı Qərbin yürütdüyü siyasətdən çox məyus oldum. Ötən il inqilaba çevrilən qanlı küçə etirazlarında 2000-dən çox insan ürəyindən və başından güllələndi. Onlar əsasən azyaşlılar və bakirə qızlar idi. 20 mindən çox insan, o cümlədən əmim oğlu Məhəmməd və Nazarin həbs olunub, onların hamısı dəhşətli fiziki, emosional və cinsi işgəncələrə məruz qalıb. Onlardan bəziləri haqqında ölüm hökmü bu məqaləni oxuduğunuz vaxta qədər artıq yerinə yetiriləcək. Digərləri həftələrlə təcavüzə məruz qalıblar. Lakin Qərb bunu şifahi şəkildə pisləsə də, heç vaxt tədbir görmür".

İsrailli politoloq, həmçinin qeyd edib ki, Avropanın Ukraynadakı müharibənin yaratdığı qaz çatışmazlığını həll etməli olduğu, Azərbaycan qazının və neftinin bu problemin həlli üçün əlverişli variant olduğu bir vaxtda Fransa Senatı plüralizmə, multikulturalizmə və qadın hüquqlarına dəyər verən Azərbaycana deyil, nüvə proqramını reallaşdıran və müntəzəm olaraq "Amerikaya ölüm" və "İsrailə ölüm" şüarları səsləndirən İrana qarşı əlavə sanksiyaların tətbiqinə səs verməli idi. Məqalədə Fransa parlamentinin qadınların fransız dəyəri olan Qərb libası geymək hüququ tələb etdikləri üçün öldürüldüyü, insan haqlarının vəziyyətinin hər gün pisləşdiyi İrana qarşı tədbir görmək əvəzinə, qadınların istədikləri kimi geyinməkdə azad olduğu bir ölkə olan Azərbaycana sanksiya tətbiq etmək qərarının əsaslı etiraz doğurduğu vurğulanıb.

Müxtəlif fikirlərin yer aldığı məqalədə yekun qənaətə gəlinib ki, Fransa Azərbaycan kimi sülhsevər bir ölkəni təqib etmək əvəzinə, bütün səylərini İran İslam Respublikasına qarşı yönəltməlidir. Dünya Tehrandakı mollalara qarşı birləşməli, Azərbaycanı və bu dəhşətli rejimə qarşı mübarizənin önündə gedən digər ölkələri gücləndirməli, onları zəiflətməməlidir. Müəllif, həmçinin Fransa Senatının qəbul etdiyi qətnaməyə erməni diasporunun Fransanın milli maraqlarına vurduğu zərər kimi xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıb.

Məqaləni ətraflı aşağıdakı linkdən oxumaq mümkündür: https://www.thej.ca/-2022/11/16/france-should-apply-sanctions-on-iran-not-azerbaijan/



AZƏRBAYCAN


## OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*



Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 22.11.2022-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Azərbaycan Ordusunda ictimai-siyasi hazırlıq məşğələləri keçirilir

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2022-ci ilin hazırlıq planına uyğun olaraq hərbi qulluqçuların maarifləndirilməsi üzrə tədbirlər davam etdirilir.






Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu istiqamətdə görülən işlər çərçivəsində Azərbaycan Ordusunda hərbi qulluqçular ilə ictimai-siyasi hazırlıq məşğələləri keçirilir.

Məşğələlərdə Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin çıxışlarında Azərbaycan Ordusu haqqında səsləndirdiyi fikirlər şəxsi heyətə çatdırılır, eyni zamanda Azərbaycan Respublikasının Prezidentinin diplomatik fəaliyyətinin tarixi əhəmiyyəti barədə ətraflı məlumat verilir.

Azad olunmuş ərazilərdə xidmət edən hərbi qulluqçularla aparılan söhbətlər zamanı bu ərazilərin tarixindən, həmçinin Vətən müharibəsi zamanı işğaldan azad olunması uğrunda aparılan döyüş əməliyyatlarında hərbi qulluqçuların göstərdikləri qəhrəmanlıq nümunələrindən bəhs edilir.

Hərbi qulluqçularla keçirilən tərbiyəvi iş və siyasi məlumatlandırma saatlarında, eləcə də asudə vaxtlarda maarifləndirici söhbətlər, ətraflı fikir mübadiləsi aparılır, onları maraqlandıran suallar cavablandırılır və xidmətləri ilə bağlı lazımi tövsiyələr verilir.

# Hava əsasən yağmursuz olacaq




Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 9-12°, gündüz 14-17° isti, Bakıda gecə 10-12°, gündüz 15-17° isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-11°, gündüz 19-23° isti, dağlarda gecə 0-5°, gündüz 7-12° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Göyçaydan Nazim İsmayılov Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Dövlət Universitetinin rektoru Elxan Hüseynov və professor-müəllim heyəti Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə qardaşı

**NAZİM BABABƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və kollektivi universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, dosent Elmar Xəlilova əmisi

**ƏJDƏR XƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az az.reklam@mail.ru azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6507
Sifariş 3244
Qiyməti 40 qəpik